RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 97 (9842) 13 may 2025-ci il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Qarabağın quruculuq zəfəri



## İlham Əliyevin müəllifliyi ilə işğaldan azad olunmuş ərazilərin yeni və möhtəşəm tarixi yazılır

Mayın 10-da Prezident İlham Əliyev yolunu Ağdam rayonundan saldı. Erməni vandallarının xüsusi amansızlıqla divan tutduqları Ağdam şəhərinin təməl daşını hələ 2021-ci ildə - Müstəqillik Günündə Ağdam ictimaiyyətinin nümayəndələri ilə birgə qoyan Qarabağın xilaskarı İlham Əliyevin bu bölgəyə gəlişi xalqımızda əsl bayram ovqatı yaratdı. Çünki hamımız bilirdik ki, qurucu liderin bu ziyarətində düşmənin Ağdama vurduğu daha neçə-neçə yaralar sağaldılacaq, neçə-neçə intizarında, həsrətində olduğumuz xəbərlərlə şadlanacağıq.

Ulu Öndərin doğum günündə Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin, rayonun Kəngərli kəndinin birinci mərhələsinin açılışında iştirak edən Prezident İlham Əliyev Kəngərli kənd tam orta məktəbinin binasının, Kəngərli kəndində körpələr evi-uşaq bağçasının açılışında iştirak edib. Həmçinin Kəngərli kəndində yerli icra strukturları üçün inşa edilmiş çoxfunksiyalı inzibati binada, Kəngərli kəndində klub-icma mərkəzində, kənddə yeni inşa edilmiş fərdi evlərdə yaradılan şəraitlə tanış olub.

"Sizi təbrik edirəm, Kəngərliyə həyat qayıdır, Kəngərli sakinləri artıq qayıdır, böyük xoşbəxtlikdir, tarixi hadisədir. Uzun fasilədən sonra doğma dədə-baba torpağında yaşamaq, əlbəttə ki, böyük xoşbəxtlikdir". Bu təbrikləri isə Prezident İlham Əliyev Ağdamın Kəngərli kəndinə köçən sakinlərlə görüşüb, onlara evlərin açarlarını təqdim edən zaman səsləndirdi.

Nitqində bu vətəndaşlarımızın illərlə çəkdikləri əzablardan danışan dövlətimizin başçısı vurğuladı ki, bütün bu əzablı illər arxada qaldı: "Siz indi öz doğma torpağınıza qayıdırsınız və qayıtmısınız, sizin üçün gözəl şərait yaradılıb. Kəngərli kəndi göz oxşayır".

Ölkəmizin rəhbəri məlumat verdi ki, kəndin bərpasının, yenidən qurulmasının birinci mərhələsidir, 292 ev hazırdır, sizin ixtiyarınıza verilir. İkinci mərhələdə daha çox evlər tikiləcək: "Hər cür şərait var. Gözəl evlər, işıq, qaz, su, kanalizasiya sistemləri, məktəb, uşaq bağçası, market, tibb məntəqəsi, hətta bazar kompleksi - hər şey var. Əkin üçün yerlər ayrılacaq. İndi bəzi torpaqlarda artıq minatəmizləmə işləri başa çatıb. Mən göstəriş vermişəm, sakinlərə torpaq sahələri də veriləcək. Həyətyanı sahə də 12 sotdur. Orada da əkib-becərmək mümkündür. Yəni həyat qayıdır, ədalət zəfər çalıb, ədalətin təntənəsidir. Biz bunun şahidiyik".

→ 4

## "Milli birliyin və həmrəyliyin təntənəsi"

### Prezident İlham Əliyev PKK terror qruplaşmasının özünü ləğv etməsi ilə əlaqədar Türkiyə xalqını təbrik edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev PKK terror qruplaşmasının özünü ləğv etməsi ilə əlaqədar Türkiyə xalqını təbrik edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı "X" sosial şəbəkə hesabında bununla bağlı etdiyi paylaşımda bildirib:

***"Başda əziz Qardaşım, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan olmaqla bütün qardaş Türkiyə xalqını PKK terror qruplaşmasının özünü ləğv etmək və silahı yerə qoymaq qərarı münasibətilə ürəkdən təbrik edirəm.***

***Əziz Qardaşımın bəyan etdiyi "Terrorsuz Türkiyə" hədəfinə çatmaqda vacib mərhələ olan bu hadisə dövlətçilik yolunda ölkədə aparılan qətiyyətli siyasətin nəticəsi, güclü liderliyin və sarsılmaz iradənin, milli birliyin və həmrəyliyin təntənəsidir.***

***Alınmış qərarın tam icrası istiqamətində Türkiyə dövlətinə və xalqına uğurlar arzulayıram".***

## Ataşkəsdən Qələbəyə



Prezident İlham Əliyevin qətiyyətli siyasəti, dövlətimizin iqtisadi qüdrəti sayəsində Qarabağ və Şərqi Zəngəzur tam bərpa ediləcək, bütün keçmiş məcburi köçkünlər doğma yurdlarına qayıdacaqlar. Dövlətimizin başçısı Ağdam Muğam Mərkəzinin açılışında çıxışı zamanı azad edilmiş ərazilərimizin bərpası ilə bağlı təkcə Ağdam rayonunun timsalında çoxsaylı nümunələr göstərdi. Bütün Qarabağ və Şərqi Zəngəzuru əhatə etsək, bərpa və quruculuq layihələrinin sayı-hesabı bilinməz.

Olduqca qürurvericidir ki, bütün bunları həm də Birinci Qarabağ müharibəsində atəşkəsin elan olunmasının 31-ci ildönümündə bəyan edirik. Birinci Qarabağ müharibəsində atəşkəs 1994-cü il may ayının 12-də elan olunmuşdu. Hansı ki həmin vaxt torpaqlarımız işğal altında idi. Bu gün isə Azərbaycan torpaqlarını işğaldan azad edən, Qarabağı separatçılardan təmizləyən qalib dövlətdir.

→ 3

## Yeni siyasi konfiqurasiya:

### *Konstitusiya və suverenliyin etibarlı təminatçısı*




2018-ci il prezident seçkilərindən sonra cənab İlham Əliyevin elan etdiyi yeni islahatlar kursu artıq dövlət və cəmiyyət həyatında istisnasız olaraq bütün istiqamətlərdə köklü dəyişiklikliyi, təkmilləşməyi və səmərəli nəticəyə hesablanan fəaliyyəti zərurətə çevirdi. Bu günün prizmasından baxanda, 7 il öncəki dövlət quruculuğu ilə bağlı yeni çağırışın, əslində, Prezidentin Zəfər Manifesti olması təsdiqini tapır.

Bəli, Müzəffər Ali Baş Komandan böyük Zəfər üçün bütün qüvvələri - ölkənin iqtisadi gücünü, sosial rifahını, hərbi qüdrətini, milli birliyin monolitliyini, o cümlədən Azərbaycanın yeniləşən siyasi sistemini səfərbərliyə, qəti qələbəyə hazırlayırdı.

Xatırladaq ki, Prezidentin islahatlar strategiyasında siyasi konfiqurasiyasının yeni mərhələdə təşəkkülü əsas məqsədlərdən biri kimi qəbul olunmuşdu. Bu sahədə Prezident təşəbbüslərinin mühüm icraçısı və proseslərin əsas koordinatoru olaraq Prezident Administrasiyasında 2019-cu ildə Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi yaradıldı.

Bu şöbə fəaliyyətinin ilk günlərindən etibarən Prezident İlham Əliyevin yeni siyasi konfiqurasiya vizyonunun tətbiqinə əzmkarlıqla, qətiyyətlə başladı. Öncə siyasi sistemin bütün tərəfləri, elementləri, üzvləri açıq görüşlərə dəvət edildi, onlar dinlənildi, fikirləri öyrənildi, həmçinin ölkədə yeni siyasi münasibətlərin formalaşması ilə bağlı ölkə rəhbərinin düşüncələri, təklifləri, tövsiyələri diqqətə çatdırıldı.

→ 5

## Mayası ikili standartlardan yoğrulmuş təsisat



Bu günü analiz etməmişdən əvvəl çox uzağa da getmədən COP29 ərəfəsini xatırlamaq kifayətdir. Bu önəmli tədbir ərəfəsində də bütövlükdə səs-səsə, avaz-avaza verilərək Qərb təsisatları tərəfindən Azərbaycan əleyhinə silsilə məqalələr yazıldı, böhtan xarakterli fikirlər səsləndirildi. Məsələn, Avropa Parlamenti Natali Loiseau tərəfindən irəli sürülən "Azərbaycanda vəziyyət, insan hüquqlarının və beynəlxalq hüququn pozulması və Ermənistanla münasibətlər" adlı böhtan xarakterli qətnaməni Azərbaycana qarşı qəbul etməklə dünya ermənilərinin mənafeyinə oynanıldı. Hətta Natali bildirirdi ki, o, Avropa Parlamenti üzvlərinin böyük əksəriyyətini Azərbaycanla bağlı COP29 ərəfəsində onlara təqdim etdiyi qətnamənin lehinə səs verməyə inandırmaqdan qürur duyur. Qürurun səbəbinə baxın. Azərbaycan deyir dünya birliyi olaraq bəşəriyyətin ümumi problemlərinə qarşı birlikdə mübarizə aparaq, regionda sülh olsun, bölgə xalqları rifah içində yaşasın, bu "siyasətçi"lər nifaq salır, ikitərəflilik yaradırlar. Onu da nəzərə alaq ki, bu qadın Ermənistan ərazisinə Aİ-nin genişləndirilmiş missiyasının göndərilməsini də fəal şəkildə müdafiə edirdi.

→ 6

## "Azərbaycan Respublikası Hökuməti ilə Somali Federativ Respublikası Hökuməti arasında müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2025-ci il fevralın 12-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Somali Federativ Respublikası Hökuməti arasında müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 aprel 2025-ci il*

## "İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 29 mart tarixli 3851 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 29 mart tarixli 3851 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 3, maddə 571 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci hissə aşağıdakı redaksiyada verilsin:

"1. Aşağıdakı tərkibdə İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyası (bundan sonra - Komissiya) yaradılsın:

**Komissiyanın sədri**

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri

**Komissiyanın üzvləri:**

Azərbaycan Respublikası daxili işlər nazirinin müavini

Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini

Azərbaycan Respublikası müdafiə nazirinin müavini

Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini

Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini

Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti rəisinin müavini

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti rəisinin müavini

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidmətinin rəisi.".

2. 2-ci hissədə "Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinə" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 may 2025-ci il*

## A.M.Şirinovun Azərbaycan İlahiyyat İnstitutunun rektoru təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq,"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.13-cü bəndinə uyğun olaraq **qərara alıram:**

Aqil Muxtar oğlu Şirinov Azərbaycan İlahiyyat İnstitutunun rektoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 may 2025-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 21 fevral tarixli 535 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 21 fevral tarixli 535 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 234 (Cild I); 2024, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş "İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyası haqqında Əsasnamə"nin 5.15-ci bəndinin ikinci cümləsi çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 may 2025-ci il*

## "Balıqçılıq haqqında", "Heyvanlar aləmi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında" və "Ovçuluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 8 oktyabr tarixli 43-VIIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 8 noyabr tarixli 228 nömrəli Fərmanının icrasının təmin edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 153** **Bakı şəhəri, 8 may 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Balıqçılıq haqqında", "Heyvanlar aləmi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında" və "Ovçuluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 8 oktyabr tarixli 43-VIIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 8 noyabr tarixli 228 nömrəli Fərmanının icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasında balıqçılıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 6 sentyabr tarixli 146 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 9, maddə 556 (Cild I); 2024, № 2, maddə 208; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 1 aprel tarixli 95 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissədə "növləri, dərəcələri" sözləri "məbləği" sözü ilə, "cərimələr" sözü "görə təbiətə dəymiş ziyan" sözləri ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "Balıq və digər su bioresurslarından istifadəyə görə ödəmələrin növləri, dərəcələri, tətbiq edilmə qaydaları və balıq və digər su bioresurslarının qeyri-qanuni ovuna cərimələr" üzrə:

1.2.1. adında "növləri, dərəcələri" sözləri "məbləği" sözü ilə, "cərimələr" sözü "görə təbiətə dəymiş ziyan" sözləri ilə əvəz edilsin;

1.2.2. 3-cü hissədə "cərimələr" sözü "görə təbiətə dəymiş ziyan" sözləri ilə əvəz edilsin;

1.2.3. 4-cü hissə üzrə:

1.2.3.1. mətndə "növləri və dərəcələri," sözləri "məbləği" sözü ilə əvəz edilsin;

1.2.3.2. cədvəldə "dərəcələri" sözü "əmsalları" sözü ilə əvəz edilsin;

1.2.4. 5-ci hissə üzrə:

1.2.4.1. üçüncü abzasda "dərəcədir" sözü "əmsaldır" sözü ilə əvəz edilsin;

1.2.4.2. dördüncü abzasda "(limiti, kvotası)" sözləri "(kvotası)" sözü ilə əvəz edilsin;

1.2.5. 10-cu hissənin cədvəlinin on dördüncü sətrində "bioresursları üçün cərimələr" sözləri "bioresurslarına görə təbiətə dəymiş ziyan" sözləri ilə əvəz edilsin;

1.3. həmin Qərarla təsdiq edilmiş "Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikasında balıq və digər su bioresurslarından istifadə haqqı və qaydaları" üzrə:

1.3.1. 2-ci hissə üzrə:

1.3.1.1. birinci abzasda "limitlər (kvotalar)" sözləri "kvotalar" sözü ilə əvəz edilsin;

1.3.1.2. ikinci abzasda "(limiti, kvotası)" sözləri "(kvotası)" sözü ilə əvəz edilsin;

1.3.2. 5-ci hissənin altıncı abzasında "(limiti, kvotası)" sözləri "(kvotası)" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 22 fevral tarixli 41 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 2, maddə 119 (Cild I) ilə təsdiq edilmiş "Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 3.1-1-ci bənd əlavə edilsin:

"3.1-1. qeyri-qanuni heyvan ovuna görə təbiətə dəymiş ziyan;".

3. "Heyvanlar aləminin mühafizəsi və istifadəsi sahəsində dövlət nəzarətinin həyata keçirilməsi qaydaları", "Heyvanlar aləmindən istifadəyə görə ödəmələrin növləri, dərəcələri, tətbiq edilmə qaydaları və qeyri-qanuni heyvan ovuna cərimələr" və "Heyvanlar aləmi obyektlərindən istifadəyə görə ödənişlərin və qeyri-qanuni vəhşi heyvan ovuna görə cərimələrin istifadəsinə dair Təlimat"ın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 6 noyabr tarixli 176 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 964 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. adında və 1-ci hissədə "növləri, dərəcələri" sözləri "məbləği" sözü ilə "cərimələr" sözü "görə təbiətə dəymiş ziyanın məbləği" sözləri ilə, "cərimələrin" sözü "təbiətə dəymiş ziyanın məbləğinin" sözləri ilə əvəz edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş "Heyvanlar aləmindən istifadəyə görə ödəmələrin növləri, dərəcələri, tətbiq edilmə qaydaları və qeyri-qanuni heyvan ovuna CƏRİMƏLƏR" üzrə:

3.2.1. adında "növləri, dərəcələri" sözləri "məbləği" sözü ilə, "CƏRİMƏLƏR" sözü "görə təbiətə dəymiş ziyanın məbləği" sözləri ilə əvəz edilsin;

3.2.2. 1.3-cü bənddə "növləri dərəcələri" sözləri "məbləği" sözü ilə, "cərimələr" sözü "görə təbiətə dəymiş ziyan" sözləri ilə əvəz edilsin;

3.2.3. II hissənin adında "NÖVLƏRİ VƏ DƏRƏCƏLƏRİ" sözləri "MƏBLƏĞİ" sözü ilə əvəz edilsin;

3.2.4. 2.1-ci bənddə "növləri və dərəcələri" sözləri "məbləği" sözü ilə əvəz edilsin;

3.2.5. III hissənin adında "OVU ÜÇÜN TƏBİƏTƏ DƏYMİŞ ZİYANA GÖRƏ TƏTBİQ EDİLƏN CƏRİMƏLƏR" sözləri " OVUNA GÖRƏ TƏBİƏTƏ DƏYMİŞ ZİYANIN MƏBLƏĞİLƏRİ" sözləri ilə əvəz edilsin;

3.2.6. 3.1-ci bənddə "ovu üçün təbiətə dəymiş ziyana görə cərimələr" sözləri "ovuna görə təbiətə dəymiş ziyanın məbləği" sözləri ilə əvəz edilsin;

3.2.7. 3.2-ci və 3.3-cü bəndlərdə "ziyana görə cərimələr" sözləri "ziyanın məbləği" sözləri ilə əvəz edilsin;

3.2.8. 3.4-cü və 3.7-ci bəndlərdə "cərimələr" sözü "təbiətə dəymiş ziyanın məbləği" sözləri ilə əvəz edilsin;

3.2.9. 3.5-ci bənddə "ovu üçün təbiətə dəymiş ziyana görə cərimələr" sözləri "ovuna görə təbiətə dəymiş ziyanın məbləği" sözləri ilə əvəz edilsin;

3.2.10. 3.6-cı bənddə "cərimələr" sözü "təbiətə dəymiş ziyanın məbləği" sözləri ilə əvəz edilsin;

3.2.11. 3.7-ci bəndə "ödəmələr" sözündən sonra "(balıq və digər su bioresurslarından istifadəyə görə ödəmələr istisna olmaqla)" sözləri əlavə edilsin;

3.3. həmin Qərarla təsdiq edilmiş "Heyvanlar aləmi obyektlərindən istifadəyə görə ödənişlərin və qeyri-qanuni vəhşi heyvan ovuna görə cərimələrin istifadəsinə dair Təlimat" üzrə:

3.3.1. adında "cərimələrin" sözü "təbiətə dəymiş ziyanın məbləğinin" sözləri ilə əvəz edilsin;

3.3.2. 1-ci və 2-ci hissələrdə "cərimələrdən" sözü "təbiətə dəymiş ziyanın məbləğindən" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 12 iyul tarixli 134 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 667 (Cild I) ilə təsdiq edilmiş "Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondlarının və vəsaitlərinin yaradılması və onlardan istifadə Qaydası"nın 3-cü hissəsinin "d" bəndi "e" bəndi hesab edilsin və aşağıdakı məzmunda "d" bəndi əlavə edilsin:

"d) heyvanlar aləminin obyektlərindən istifadəyə görə ödəmələrin (balıq və digər su bioresurslarından istifadəyə görə ödəmələr istisna olmaqla) və qeyri-qanuni vəhşi heyvan ovuna görə təbiətə dəymiş ziyanın məbləğinin;".

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 2 iyun tarixli 243 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1220 (Cild I); 2024, № 3, maddə 331, № 5 (II kitab), maddə 611) ilə təsdiq edilmiş "Balıq və digər su bioresursları ovunun Qaydaları"nın 1.7-ci bəndinin ikinci cümləsində "növləri, dərəcələri" sözləri "məbləği" sözü ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 14 iyun tarixli 256 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1231 (Cild I); 2024, № 1, maddə 116, № 3, maddə 331) ilə təsdiq edilmiş "Akvakulturanın həyata keçirilməsi Qaydası"nın 4.6-cı bəndinin birinci cümləsində "növləri, dərəcələri" sözləri "məbləği" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bir sıra qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 8 oktyabr tarixli 46-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 154** **Bakı şəhəri, 8 may 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bir sıra qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 8 oktyabr tarixli 46-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 fevral tarixli 59 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2008, № 2, maddə 134 (Cild I); 2024, № 1, maddə 81, № 5 (II kitab), maddə 594, № 9, maddə 1067, № 11, maddə 1246) ilə təsdiq edilmiş "Hərbi-həkim ekspertizası haqqında Əsasnamə"nin 77-ci maddəsinin beşinci abzasının birinci cümləsində "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrin və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin şəxsi heyəti üçün ərzaq payı normalarının və xidməti heyvanlarının yemləmə normalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 8 yanvar tarixli 2 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 1, maddə 82; 2025, № 2, maddə 187) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Qərarla təsdiq edilmiş 9 nömrəli əlavə - "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ümumqoşunları və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin sıravi və rəis heyəti üçün quru ərzaq payı Normaları"nın "Qeydlər" hissəsinin 2-ci bəndinin ikinci cümləsində "ərzaqların" sözü "qida məhsullarının" sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş 10 nömrəli əlavə - "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin sıravi və rəis heyətinin ərzaq payları verilərkən məhsulların əvəz olunması Normaları"nda hər iki halda "ərzaq xidməti" sözləri "ərzaq (qida) xidməti" sözləri ilə əvəz edilsin;

2.3. həmin Qərarla təsdiq edilmiş 11 nömrəli əlavə - "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin sıravi və rəis heyətinə müalicə ərzaq payları verilərkən məhsulların əvəz olunması Normaları"nın cədvəlinin 7-ci hissəsində "ərzaqları" sözü "qida məhsulları" sözləri ilə əvəz edilsin.

3. "Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Nizamnaməsi"nin və "Heydər Əliyev adına Hərbi Liseyin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 4 avqust tarixli 274 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 8, maddə 960 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Nizamnaməsi"nin 1.6-cı və 11.4-cü bəndlərində "ərzaq" sözü "qida məhsulları" sözləri ilə əvəz edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Heydər Əliyev adına Hərbi Liseyin Nizamnaməsi"nin 1.6-cı və 11.4-cü bəndlərində "ərzaq" sözü "qida məhsulları" sözləri ilə əvəz edilsin.

4. "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyində Bakı Hərbi Kollecinin, Gəncə Hərbi Kollecinin və Naxçıvan Hərbi Kollecinin yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 22 may tarixli 272 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (II kitab), maddə 609; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 3 aprel tarixli 97 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

4.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Bakı Hərbi Kollecinin Nizamnaməsi"nin 7.19-cu bəndində "ərzaq" sözü "qida məhsulları" sözləri ilə əvəz edilsin;

4.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Gəncə Hərbi Kollecinin Nizamnaməsi"nin 7.19-cu bəndində "ərzaq" sözü "qida məhsulları" sözləri ilə əvəz edilsin;

4.3. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "Naxçıvan Hərbi Kollecinin Nizamnaməsi"nin 7.19-cu bəndində "ərzaq" sözü "qida məhsulları" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 14 iyun tarixli 303 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 6 (II kitab), maddə 723, № 11, maddə 1255) ilə təsdiq edilmiş "Müdafiə və ya dövlət təhlükəsizlik ehtiyaclarının meyarları və onlarla bağlı satınalmaların keçirilməsi Qaydası"nın 3.2.5-ci və 13.3.9-cu yarımbəndlərində "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 155** **Bakı şəhəri, 8 may 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, yerli flora növlərinin genefondunun qorunub saxlanılması və yaşıllıqların cins tərkibinin zənginləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 299 (Cild I); 2024, № 1, maddə 78, № 3, maddə 354, № 6 (II kitab), maddə 715, № 10, maddə 1167, № 11, maddə 1252; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 9 aprel tarixli 105 nömrəli Qərarı) aşağıdakı məzmunda 4.37-ci bənd əlavə edilsin:

"4.37. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təsdiqedici sənədinə əsasən, əkin məqsədilə ölkəyə gətirilən ağaclar, kollar, kolcuqlar, ot bitkiləri.".

2. Bu Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycanın xarici işlər naziri Bəhreyn Krallığına rəsmi səfər edib







Mayın 12-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Bəhreyn Krallığına rəsmi səfəri çərçivəsində bu ölkənin vəliəhdi və Baş naziri Salman ibn Həməd ibn İsa Əl-Xəlifə ilə görüşüb.

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan-Bəhreyn ikitərəfli və çoxtərəfli əməkdaşlığının hazırkı durumu, ikitərəfli və çoxtərəfli münasibətlərin inkişaf perspektivləri, habelə regional və beynəlxalq vəziyyət müzakirə olunub.

Nazir Ceyhun Bayramov rəsmi səfəri çərçivəsində göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkür edib, bugünkü səfərin iki ölkə arasında əməkdaşlığın inkişafına töhfə olacağına dair ümidvarlıq ifadə edib.

Ölkələrimiz arasında ali və yüksək səviyyədə siyasi dialoqun səviyyəsindən məmnunluq ifadə olunub, bu dinamikanın iqtisadiyyat, ticarət, investisiyalar, turizm, logistika, informasiya və kommunikasiya texnologiyaları üzrə konkret təşəbbüslər vasitəsilə daha da inkişaf etdirilməsinin vacibliyi vurğulanıb.

Gələn ilin Azərbaycan və Bəhreyn arasında diplomatik münasibətlərin 30 illiyi ilə əlamətdar olacağı məmnunluqla qeyd edilib, bu illər ərzində münasibətlərimizin əsaslandığı prinsiplərin bundan sonra da əməkdaşlığımızın inkişafında rəhbər tutulmasının əhəmiyyəti diqqətə çatdırılıb.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Mayın 12-də xarici işlər naziri Ceyhun Bayramov Bəhreyn Krallığına rəsmi səfəri çərçivəsində bu ölkənin Şura Məclisinin sədri Əli bin Saleh Al Saleh ilə görüşüb.

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycan-Bəhreyn əməkdaşlığının parlamentlərarası müstəvidə inkişafı və davam etdirilməsi imkanları, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

İki ölkə arasında dostluq, qardaşlıq, qarşılıqlı hörmətə və anlayışa əsaslanan ikitərəfli, həmçinin çoxtərəfli münasibətlərin daha da inkişaf etdirilməsi, xalqlarımız arasında bağların daha da gücləndirilməsi istiqamətində parlament diplomatiyasının, qanunvericilik orqanlarının üzvləri arasında qarşılıqlı səfər və mübadilələrin genişləndirilməsinin əhəmiyyəti qeyd olunub.

Azərbaycanla Bəhreyn arasında BMT, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı kimi platformalarda əməkdaşlıq məmnunluqla qeyd edilib. Azərbaycanın Qoşulmama Hərəkatı çərçivəsində təsis olunmuş Parlament Şəbəkəsinə Bəhreyn tərəfindən göstərilən dəstəyə, habelə Parlament Şəbəkəsinin 2-ci iclasının Manamada müvəffəqiyyətlə təşkilinə görə təşəkkür ifadə edilib.

Postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, ölkəmiz tərəfindən işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, bu fəaliyyətə hədə törədən mina təhdidi ilə mübarizə səyləri, habelə Azərbaycan-Ermənistan normallaşma prosesi barədə qarşı tərəfə ətraflı məlumat verilib.

Azərbaycanın təşəbbüsü və səyləri ilə irəlilədilən ikitərəfli normallaşma və sülh danışıqları çərçivəsində əldə olunan uğurlardan bəhs edilib, sülh müqaviləsinin mətni üzrə danışıqların yekunlaşdırıldığı diqqətə çatdırılıb. Bununla belə Ermənistan Konstitusiyası və bir sıra qanunvericilik aktlarında ölkəmizə qarşı davam etdirilən ərazi iddialarının regional sülh səylərinə maneə olduğu vurğulanıb.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Mayın 12-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Bəhreyn Krallığına rəsmi səfəri çərçivəsində bu ölkənin xarici işlər naziri Əbdüllətif bin Rəşid Əlzəyani ilə görüşüb.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyindən məlumat verilib.

Bildirilib ki, nazirlər arasında baş tutan təkbətək görüş daha sonra hər iki tərəfdən nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib.

Görüş zamanı Azərbaycan ilə Bəhreyn arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri, münasibətlərin perspektivləri, həmçinin regiondakı və beynəlxalq inkişaflar müzakirə olunub.

Növbəti il Azərbaycan və Bəhreyn arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunacağı məmnunluqla qeyd edilib, bu illər ərzində bir sıra sahələr üzrə qarşılıqlı faydalı əməkdaşlığın, o cümlədən çoxtərəfli platformalar çərçivəsində göstərilən qarşılıqlı dəstəyin və həmrəyliyin əhəmiyyəti vurğulanıb.

Əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində mövcud potensialdan istifadə olunmasının, habelə bu xüsusda qarşılıqlı yüksəksəviyyəli səfərlərin və görüşlərin intensivləşdirilməsinin, Xarici İşlər nazirlikləri arasında mütəmadi siyasi məsləhətləşmələrin aparılmasının və ikitərəfli hüquqi bazamızın zənginləşdirilməsinin vacibliyi qeyd edilib.

İqtisadiyyat, ticarət, investisiyalar, turizm, yüksək texnologiyalar və s. istiqamətlər üzrə əməkdaşlığın genişləndirilməsinin zəruriliyi diqqətə çatdırılıb. Humanitar sahədə əməkdaşlığın genişləndirilməsinin, xüsusilə təhsil və təcrübə mübadilələrinin əhəmiyyətindən bəhs edilib.

Regional və beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı (BMT), İslam Əməkdaşlıq Təşkilatı (İƏT), Qoşulmama Hərəkatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM) çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub, Azərbaycanın cari ildə AQEM sədrliyi, habelə 2026-cı ildə İƏT-in sammitinə sədrliyi zamanı mümkün birgə təşəbbüslər barədə fikir mübadiləsi aparılıb.

Ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində formalaşmış Parlament və Gənclər Şəbəkəsi barədə məlumat təqdim olunub. Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin 2-ci konfransının Manamada keçirilməsi məmnunluqla xatırlanıb.

Qarşı tərəf həmçinin postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə həyata keçirdiyi bərpa və yenidənqurma işləri, mina təhdidi ilə mübarizə səyləri, habelə Azərbaycan-Ermənistan normallaşma prosesi, eləcə də Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları daxil olmaqla mövcud maneələr barədə ətraflı məlumatlandırılıb.

Görüş zamanı Yaxın Şərqdə vəziyyət də geniş müzakirə edilib.

Müzakirələrdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Hakan Fidan PKK-nın özünü buraxmasını "tarixi" qərar adlandırıb

**Türkiyənin xarici işlər naziri Hakan Fidan PKK terror təşkilatının özünü buraxması və silahlı fəaliyyətini dayandırması ilə bağlı xəbərlərə münasibət bildirib.**



AZƏRTAC xəbər verir ki, o, Ankarada Türkiyə, Livan və Suriya xarici işlər nazirlərinin üçtərəfli görüşünün yekunlarına dair brifinqdə çıxış edərək əmin edib ki, Ankara "terror təşkilatının özünü ləğv etməsi ilə bağlı bəyanatından sonra əməli addımları izləyəcək".

Türkiyə diplomatiyasının rəhbəri PKK terrorçularının fəaliyyətinin dayandırılması qərarını "bölgədə uzunmüddətli sülh və sabitlik yolunda tarixi və mühüm addım" adlandırıb.

Bu qərar "səmimiyyətlə həyata keçirilərsə" gələcəyimizə, vətəndaşlarımızın gələcəyinə çox müsbət təsir göstərəcək", - deyə türkiyəli nazir bildirib.

# MSK-nın nümayəndə heyəti TDT-yə üzv ölkələrin ali seçki qurumlarının Məşvərət Platformasının təsisində iştirak edəcək

**Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahovun rəhbərlik etdiyi nümayəndə heyəti Qazaxıstan Respublikasının Türküstan şəhərinə səfər edib.**

Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildirilib ki, Qazaxıstan Mərkəzi Seçki Komissiyasının sədri Nurlan Abdirovun dəvətinə əsasən reallaşdırılan səfər çərçivəsində Azərbaycan MSK-nın nümayəndə heyəti əvvəlcə Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin ali seçki qurumlarının Məşvərət Platformasının təsis sənədinin imzalanması mərasimində iştirak edəcək. Sözügedən sənəd Türk Dövlətləri Təşkilatına üzv ölkələrin seçki idarəetmə orqanları arasında münasibətlərin daha da intensivləşdirilməsi və təcrübə mübadiləsinin aparılması istiqamətində qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinə imkan yaradacaq.

Mərkəzi Seçki Komissiyasının nümayəndə heyəti Qazaxıstana səfər zamanı həmçinin "Türk dünyası: Ənənələr, təcrübə və seçki sistemlərinin inkişafı üçün perspektivlər" mövzusunda beynəlxalq konfransda da iştirak edəcək.

MSK-nın nümayəndə heyətinin tərkibinə komissiya sədrinin müavini Rövzət Qasımov və Katibliyin rəhbərinin müavini Həsən Kazımzadə də daxildirlər.

Səfər çərçivəsində nümayəndə heyətinin Türk Dövlətləri Təşkilatına üzv ölkələrin ali seçki orqanlarının rəhbərləri və digər rəsmi şəxslərlə görüşləri, qurumlararası əlaqələr və qarşılıqlı maraq doğuran məsələlər ətrafında müzakirələrin aparılması da nəzərdə tutulur.

# Efiopiya Azərbaycanla parlamentlər arasında əməkdaşlığın dərinləşməsində maraqlıdır

**Mayın 12-də Azərbaycan və Efiopiya parlamentlərinin qarşılıqlı dostluq qrupları arasında onlayn görüş keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, onlayn görüşdə Milli Məclisin Efiopiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Mehriban Vəliyeva çıxış edərək iştirakçıları salamlayıb, Milli Məclisin Efiopiya ilə parlamentlərarası əlaqələrin inkişafına önəm verdiyini bildirib. O, ölkələrimiz arasında əlaqələrin dərinləşməsində dostluq qruplarının rolundan danışıb, bu sahədə əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı fikirlərini bölüşüb.

Efiopiya Parlamenti Xalq Nümayəndələr Palatasının Efiopiya-Azərbaycan parlament, diplomatiya və dostluq qrupunun rəhbəri xanım Bethelhem Lakyu Sisay Efiopiyanın Azərbaycanla müxtəlif sahələrdə, o cümlədən parlamentlər arasında qarşılıqlı əlaqələrin və əməkdaşlığın dərinləşməsində maraqlı olduğunu deyib, parlament əlaqələrinin iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsində əhəmiyyətindən danışıb.

Sonra görüş parlamentlərarası əlaqələrimizin mövcud durumu, inkişaf perspektivləri və tərəfləri maraqlandıran digər məsələlərlə bağlı fikir mübadiləsi ilə davam etdirilib.

Videokonfransda Milli Məclisin deputatları Bəhruz Məhərrəmov, Zaur Şükürov, efiopiyalı parlamentarilər və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# Atəşkəsdən Qələbəyə

**Prezident İlham Əliyevin Şuşa, Xocalı və Ağdam rayonlarına səfəri bəlli həqiqətlərə yeni işıq saldı. Bu səfər bir daha göstərdi ki, Qarabağ və Şərqi Zəngəzur sürətlə bərpa olunur, bu torpaqlarda həyat yenidən canlanır. Eyni zamanda bu səfər zamanı yeni istifadəyə verilən obyektlər, inzibati binalar, o cümlədən Ağdamın yenidən qurulan Kəngərli kəndinin sakinlərinə evlərinin açarlarının təqdim edilməsi növbəti dəfə dövlətimizin gücünün, quruculuq əzminin nümayişi oldu.**



Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və quruculuq işləri getdikcə daha böyük miqyas alır, həyatın bütün sahələrini əhatə edir. Həm infrastrukturlar yaradılır, həm yeni istehsal sahələri fəaliyyətə başlayır, həm məşğulluq təmin olunur, həm də ermənilərin vandallığa məruz qoyduğu təbiətimiz bərpa edilir. Tədricən öz doğma ev-eşiyinə qayıdan keçmiş məcburi köçkünlərin sayı da artır. O cümlədən Qarabağın mədəni ənənələri də bərpa olunur.

Prezident İlham Əliyevin qətiyyətli siyasəti, dövlətimizin iqtisadi qüdrəti sayəsində Qarabağ və Şərqi Zəngəzur tam bərpa ediləcək, bütün keçmiş məcburi köçkünlər doğma yurdlarına qayıdacaqlar. Dövlətimizin başçısı Ağdam Muğam Mərkəzinin açılışında çıxışı zamanı azad edilmiş ərazilərimizin bərpası ilə bağlı təkcə Ağdam rayonunun timsalında çoxsaylı nümunələr göstərdi. Bütün Qarabağ və Şərqi Zəngəzuru əhatə etsək, bərpa və quruculuq layihələrinin sayı-hesabı bilinməz.

Olduqca qürurvericidir ki, bütün bunları həm də Birinci Qarabağ müharibəsində atəşkəsin elan olunmasının 31-ci ildönümündə bəyan edirik. Birinci Qarabağ müharibəsində atəşkəs 1994-cü il may ayının 12-də elan olunmuşdu. Hansı ki, həmin vaxt torpaqlarımız işğal altında idi. Bu gün isə Azərbaycan torpaqlarını işğaldan azad edən, Qarabağı separatçılardan təmizləyən qalib dövlətdir.

Prezident İlham Əliyev Ağdam Muğam Mərkəzinin açılışında çıxışı zamanı atəşkəsə də toxundu. Dövlətimizin başçısının qeyd etdiyi kimi, bu bizə imkan verdi ki, sabitlik bərpa edilsin, nizami ordu qurulsun, iqtisadi inkişaf üçün ilkin imkanlar yaransın: "O vaxt müharibəni dayandırmaq gənc dövləti xilas etmək üçün yeganə yol idi. Ağır bir qərar idi. Torpaqlarımızın böyük hissəsi işğal altında idi, bir milyondan çox insan evsiz-eşiksiz qalmışdı. Ancaq müharibə dayanmasaydı, biz daha böyük faciə ilə üz-üzə qala bilərdik. Bu, çox müdrik, amma çətin qərar idi. Bu, bizə imkan verdi ki, Azərbaycan inkişaf yoluna qədəm qoysun. İmkan verdi ki, sabitlik bərpa edilsin, nizami ordu qurulsun, iqtisadi inkişaf üçün ilkin imkanlar yaransın. Yəni biz bütün keçmiş tarixə nəzər salarkən, təbii ki, görürük, nə qədər məqsədyönlü, düşünülmüş addımlar atılmışdır. O addımlar ki, bugünkü Azərbaycan reallıqlarını təmin edir".

Xatırladaq ki, cəbhə xəttində atəşkəsin əldə edilməsi barədə imzalanmış "Bişkek protokolu" 1994-cü il may ayının 12-də qüvvəyə minmiş və həmin gündən Azərbaycanla Ermənistan arasında hərbi əməliyyatlar dayandırılmışdı. "Bişkek protokolu"na əsasən, atəşkəs rejimi real sülh addımları ilə müşayiət olunmalı, yaxın müddət ərzində işğal olunmuş ərazilər boşaldılmalı, köçkünlərin geri qaytarılmasını nəzərdə tutan sülh sazişi imzalanmalı idi. Lakin danışıqlar əvvəlcə aylar, sonra illərlə əvəzləndi. Məsələnin təəssüf doğuran tərəfi isə Ermənistanın nümayiş etdirdiyi ədalətsiz mövqenin Avropanın və dünyanın gözü qarşısında baş verməsi idi. Beynəlxalq təşkilatların, vasitəçilərin Azərbaycanın ərazi bütövlüyünün pozulmasına olan etinasız münasibəti, məsələyə yanaşmada ikili standartlardan çıxış etməsi, işğalçını öz adı ilə çağırmamaları atəşkəsdən sonrakı dövrün reallıqları idi.

O zaman atəşkəsə nail olunması Prezident İlham Əliyevin qeyd etdiyi kimi, çox müdrik qərar idi. Çünki atəşkəs rejimi Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın inkişafına, qarşıda dayanan ümummilli vəzifələrin həyata keçirilməsinə imkan verdi. Belə ki atəşkəs razılaşmasından sonra "Əsrin müqaviləsi" imzalandı, hüquqi dövlət quruculuğuna başlanıldı, iqtisadi və aqrar sferalarda islahatlar həyata keçirildi. Eyni zamanda atəşkəs dövründə Ümummilli Lider Heydər Əliyevin diqqət yetirdiyi əsas məsələlərdən biri ordu quruculuğu oldu. Məhz həmin dövrdən başlayaraq ordumuzun döyüş qabiliyyətinin müasir standartlara uyğunlaşdırılması, yeni qoşun növlərinin yaradılması istiqamətində təxirəsalınmaz addımlar atıldı. O cümlədən hərbi təhsil müasir tələblərə uyğunlaşdırıldı.

Ulu Öndərin siyasi kursunu davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın dinamik inkişafı, beynəlxalq birlikdə mövqelərini möhkəmləndirməsi qarşıda dayanan milli çağırışların da uğurla reallaşdırılmasına yol açdı. Bu sırada işğaldan azad edilmiş ərazilərin azad edilməsi ilə bağlı prioritetlərin həyata keçirilməsi istiqamətində böyük uğurlar əldə edildi. Ermənistan diplomatik küncə sıxışdırıldı, Azərbaycan Silahlı Qüvvələrinin döyüş imkanları ən müasir standartlar səviyyəsinə çatdırıldı.

2020-ci ilin Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi və bunun davamı kimi 2023-cü ildə Qarabağda erməni separatizminə son qoyulması Ulu Öndər Heydər Əliyevin başlatdığı, Prezident İlham Əliyevin layiqincə davam etdirdiyi siyasətin təntənəsinə çevrildi. Atəşkəsdən 44 günlük müharibəyə qədər keçdiyimiz tarixi yolun ən böyük hadisəsi Ermənistan üzərində qazandığımız zəfərdir. Həm Vətən müharibəsində, həm antiterror əməliyyatlarında sözdən anlamayan, Azərbaycanın haqlı tələblərinə məhəl qoymayan Ermənistan və separatçılar döyüş yolu ilə cəzalandırıldılar, hərb meydanında "dəmir yumruq"la məhv edildilər.

Artıq Qarabağ savaşı tarixə qovuşub. Elə "Bişkek protokolu"da keçmişdə qalıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



## "Böyük qayıdış" proqramı sürətlə icra olunur





# Qarabağın quruculuq zəfəri

**Ulu Öndər Heydər Əliyevin doğum günü - 2025-ci il mayın 10-u tarixində Azərbaycan xalqı olaraq qürurlu, fərəhli, sevinc göz yaşlarına boğulduğumuz çox müstəsna hadisələr yaşadıq. Qarabağın azad edilməsini, keçmiş məcburi köçkünlərin yurdlarına qayıdışını özünün həyat qayəsi hesab edən Ulu Öndərin dünyaya göz açdığı gündə Ağdamın Kəngərli kəndinə qayıdışın həyata keçirilməsi həm dahi şəxsiyyətin amallarının gerçəyə çevrilməsinin təzahürü, həm də ümumilikdə Ağdama, Qarabağa həyatın, milli ruhun qayıtmasının rəmzi mənasını daşıyırdı.**



## İlham Əliyevin müəllifliyi ilə işğaldan azad olunmuş ərazilərin yeni və möhtəşəm tarixi yazılır

O Ağdam ki, düşmən yerlə yeksan etmiş, görənləri vahimələndirən, xarabalıqlardan ibarət "ruhlar şəhəri"nə çevirmişdi...

Ötən 30 ildə yaralı Ağdamın halına necə yanıb-yaxıldığımıza, necə əzablar keçirdiyimizə bir Allah şahid idi...

Amma cəmi iki gün əvvəl Ağdamdan qulaqlarımızda ilahi musiqi kimi səslənən ecazkar muğamımızın yenidən azad Qarabağa, bütöv Azərbaycana dalğa-dalğa yayılması elə bil ruhumuza sığal çəkdi, yaralarımızın üzərinə su çilədi.

Açılışını Ulu Öndərin doğum günündə Qarabağın xilaskarı İlham Əliyevin etdiyi Ağdam Muğam Mərkəzinin səhnəsindən qanadlanan o musiqi, sözün əsl mənasında, hər birimizin ürəyinin ritminə qoşularaq nəbzimizlə birlikdə vurmağa başladı...

Bu muğamlar bizə Şuşa Zəfərini anlatdı, qürurlandıq...

Bu muğamlar bizə ana yurdumuz uğrunda canlarını qurban verən qəhrəman şəhidlərimizi xatırlatdı, qüssəli anlara köklədik...

Bu ilahi musiqi bizə torpağa qayıdışın, torpağa qovuşmağın, torpaqla bütövləşməyin necə müqəddəs hiss olduğunu yaşatdı...

### Qürurlu günlər

İşğaldan azad edilən torpaqlarda dünyada bənzərinə rastlanmayan şəkildə həyata keçirilən sürətli bərpa və quruculuq işləri bütövlükdə Azərbaycan xalqının əyilməz ruhunun, Vətən sevgisinin göstəricisidir. Qarabağ və Şərqi Zəngəzura yenidən həyatı qaytaran qurucu lider İlham Əliyevin mütəmadi o bölgələrə səfər etməsi isə xoş ənənə olmaqla yanaşı, torpağa bağlılığın ən ali ifadəsidir.

Əzmi, qətiyyəti, müdrik siyasəti ilə ərazilərimizi azadlığına qovuşduran qalib lider İlham Əliyev düşmənin viran qoyduğu kənd, qəsəbə və şəhərlərimizin təməllərini öz əlləri ilə qoyur, qayıdış həyata keçirilən yaşayış məntəqələrimizdə sakinlərə yeni evlərinin açarlarını şəxsən təqdim edir, onların əziz qonağı olur, onilliklər boyu məcburi köçkünlüyün maddi-mənəvi yükünü çəkmiş vətəndaşlarımızın sevinclərini bölüşür.

Onilliklər boyu mayın 8-ni Şuşanın, 18-ni Laçının işğalı günü kimi böyük əzabla qeyd edərdik. Ancaq təqvimlərimizdəki bu qara haşiyəli günlər artıq öz yerini Zəfərin al rənginə bürünmüş günlərə verib.

Eyni zamanda düz beş ildir ki, Azərbaycan xalqı İkinci Dünya müharibəsində alman faşizmi üzərində qələbə gününü Şuşa Zəfərimiz sayəsində erməni faşizminin başını əzməyimizin əlahiddə qüruru ilə qeyd edir.

Bu il mayın 9-da da Prezident İlham Əliyev möhtəşəm ənənəsinə sadiq qalaraq xalqımıza Qarabağdan quruculuq və qayıdış müjdələri çatdırdı. Bununla bir daha bütün düşmənlərimizə, Azərbaycanın zəfərlərini, beynəlxalq uğurlarını həzm etməyənlərə gözdağı verdi.

Sözügedən tarixdə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa rayonunun Daşaltı kənd məscidinin, Şuşa Müalicə-Sağlamlıq Mərkəzinin açılışında, eyni zamanda Şuşada inşa ediləcək dördüncü yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak ediblər.

Şuşa şəhərində dördüncü yaşayış kompleksinin layihəsi çərçivəsində 16 binanın inşası nəzərdə tutulub. İndiyədək Şuşada 450 mənzildən ibarət 23 bina sakinlərin istifadəsinə verilib. Növbəti mərhələdə daha üç layihənin icrası nəzərdə tutulur. Dövlət və özəl tərəfdaşlığı çərçivəsində şəhərin mərkəzi küçəsində 10 yaşayış kompleksi inşa edilir. Onların sırasına mehmanxana, ofis binaları və digər obyektlərin tikintisi daxildir.

Dövlətimizin başçısı İlham Əliyev mayın 9-da "Azərişıq" ASC-nin "Xocalı" yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin və "Qoç Ət" Kəndli Fermer Təsərrüfatı MMC-nin Xocalının Xanabad kəndindəki heyvandarlıq kompleksinin açılışında iştirak etdi.

### Ağdamın ağ günləri başlayıb

Mayın 10-da Prezident İlham Əliyev yolunu Ağdam rayonundan saldı. Erməni vandallarının xüsusi amansızlıqla divan tutduqları Ağdam şəhərinin təməl daşını hələ 2021-ci ildə - Müstəqillik Günündə Ağdam ictimaiyyətinin nümayəndələri ilə birgə qoyan Qarabağın xilaskarı İlham Əliyevin bu bölgəyə gəlişi xalqımızda əsl bayram ovqatı yaratdı. Çünki hamımız bilirdik ki, qurucu liderin bu ziyarətində düşmənin Ağdama vurduğu daha neçə-neçə yaralar sağaldılacaq, neçə-neçə intizarında, həsrətində olduğumuz xəbərlərlə şadlanacağıq.

Ulu Öndərin doğum günündə Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin, rayonun Kəngərli kəndinin birinci mərhələsinin açılışında iştirak edən Prezident İlham Əliyev Kəngərli kənd tam orta məktəbinin binasının, Kəngərli kəndində körpələr evi-uşaq bağçasının açılışında iştirak edib. Həmçinin Kəngərli kəndində yerli icra strukturları üçün inşa edilmiş çoxfunksiyalı inzibati binada, Kəngərli kəndində klub-icma mərkəzində, kənddə yeni inşa edilmiş fərdi evlərdə yaradılan şəraitlə tanış olub.

"Sizi təbrik edirəm, Kəngərliyə həyat qayıdır, Kəngərli sakinləri artıq qayıdır, böyük xoşbəxtlikdir, tarixi hadisədir. Uzun fasilədən sonra doğma dədə-baba torpağında yaşamaq, əlbəttə ki, böyük xoşbəxtlikdir". Bu təbrikləri isə Prezident İlham Əliyev Ağdamın Kəngərli kəndinə köçən sakinlərlə görüşüb, onlara evlərin açarlarını təqdim edən zaman səsləndirdi.

Nitqində bu vətəndaşlarımızın illərlə çəkdikləri əzablardan danışan dövlətimizin başçısı vurğuladı ki, bütün bu əzablı illər arxada qaldı: "Siz indi öz doğma torpağınıza qayıdırsınız və qayıtmısınız, sizin üçün gözəl şərait yaradılıb. Kəngərli kəndi göz oxşayır".

Ölkəmizin rəhbəri məlumat verdi ki, kəndin bərpasının, yenidən qurulmasının birinci mərhələsidir, 292 ev hazırdır, sizin ixtiyarınıza verilir. İkinci mərhələdə daha çox evlər tikiləcək: "Hər cür şərait var. Gözəl evlər, işıq, qaz, su, kanalizasiya sistemləri, məktəb, uşaq bağçası, market, tibb məntəqəsi, hətta bazar kompleksi - hər şey var. Əkin üçün yerlər ayrılacaq. İndi bəzi torpaqlarda artıq minatəmizləmə işləri başa çatıb. Mən göstəriş vermişəm, sakinlərə torpaq sahələri də veriləcək. Həyətyanı sahə də 12 sotdur. Orada da əkib-becərmək mümkündür. Yəni həyat qayıdır, ədalət zəfər çalıb, ədalətin təntənəsidir. Biz bunun şahidiyik".

O gün yurda qayıdış sevinci yaşayan kəngərlilərin qalib lider İlham Əliyevə minnətdarlıq hisslərini səmimi sözləri, duaları ilə izhar etmələri isə ümumilikdə keçmiş məcburi köçkünlərimizin bağrından qopub gələn sonsuz təşəkkür hisslərinin təcəssümü oldu: "Mən bir ana məhəbbəti ilə, müəllim şəfqəti ilə bu doğru yolun yolçusuna, bu günümüzün qəhrəmanına Dədə Qorqud qopuzundan qopub gələn bir el alqışı diləmək istəyirəm. Arxanızda el dayansın, "El gücü, sel gücü" deyiblər. Nəsibiniz el alqışı olsun. El alqışı kəsərli olar və bir də qüdrətli Allahın gözəl kəlamı ilə salam olsun doğru yolun yolçusuna".

### Muğamımız Ağdama - öz beşiyinə qayıtdı

Tarixən Ağdam xalqımızın milli ruhunun təzahürü olan qədim muğam sənətimizin beşiyi sayılıb. Buna görədir ki, 30 illik işğal dövründə Qarabağ muğam məktəbi də öz yurd-yuvasından didərgin salınmışdı. Düzdür, ötən müddətdə Qarabağ muğam ənənələri görkəmli sənətkarlarımız tərəfindən yaşadılır, qarabağlı gənc muğam ifaçıları yetişdirilirdi. Amma Qarabağ torpağından ruh almayan, o yerlərin suyu, havası, milli aurası ilə cilalanmayan muğamlar da sanki qulaqlarımızda bir ayrı səslənirdi. Hansı ritmə köklənməsindən asılı olmayaraq, o muğamlardan qalxan fəryad nidaları qəlblərimizi titrədirdi. Könlümüz keçirdi Qarabağdan...

Ancaq 2025-ci il mayın 10-da muğamlarımızın da öz beşiyinə, Qarabağa Ağdam şəhərinə qayıdışı ilə milli musiqilərimizin üzərinə çökmüş kədər səsi də birdəfəlik dağıldı.

Kəngərliyə köçən sakinlərlə görüşü zamanı Prezident İlham Əliyev vurğuladı ki, Muğam Mərkəzini Ağdamda ilk layihələrdən biri kimi inşa etməyimiz bizim mənəvi köklərə bağlı olduğumuzu göstərir: "Yəni bizi millət kimi, xalq kimi saxlayan bizim musiqimiz, dilimiz və əyilməz ruhumuz olub".

Birinci xanım Mehriban Əliyeva ilə Ağdam Muğam Mərkəzinin açılışında iştirak edən Prezident İlham Əliyev söylədi ki, bu gün ölkəmizin tarixində çox gözəl bir gündür. Dirçələn Ağdam şəhərində Muğam Mərkəzinin açılışı tarixi bir gündür: "Belə gözəl mədəniyyət ocaqları yaradırıq və bu gün burada məndən sonra çıxış edəcək bizim tanınmış ifaçılar öz məharətlərini göstərəcəklər. İstərdim ki, artıq bu gözəl salonda müntəzəm olaraq gözəl muğam bayramları, o cümlədən muğam müsabiqələrinin tədbirləri keçirilsin. Əminəm ki, belə də olacaq".

Dövlətimizin başçısının çıxışından sonra Ağdam Muğam Mərkəzinin səhnəsində görkəmli xanəndələrimizin ifasında muğamlarımız dinlənildi. Bununla da Ulu Öndər Heydər Əliyevin doğum günündə qədim muğamımızın sədalarının, xanəndələrimizin şaqraq zəngulələrinin bu torpaqlardan əbədi yüksələcəyinin rəmzi mesajı verildi.

Tam mübaliğəsiz deyərdim ki, bütün Azərbaycan xalqı o gün Ağdamda səslənən həmin muğamları ilk dəfə eşidirmişcəsinə dinlədi, bu muğamların sehrinə, cazibəsinə qapılıb keçmişinə, özünə bir daha qayıtdı, Qarabağı başdan-başa gəzdi, mənəvi dinclik tapdı, o torpağın ətrini duydu, ruhunu hiss etdi...

Torpaqlarımızı qarış-qarış azadlığına qovuşduran, bu xalqa zəfər yaşadan, adını zirvələrə qaldıran qalib lider İlham Əliyevin muğamlarımızı dinləyərkən kövrək, duyğulu anlar yaşaması, göz yaşlarına hakim ola bilməməsi isə hər kəsi dərindən riqqətləndirdi.

Bəli, xalq olaraq biz tariximizdəki ən qürurlu, ən xoşbəxt anları yaşayırıq.

Biz illərlə bu günlərin həsrətini çox çəkdik, amma sonda arzularımıza, amallarımıza qovuşduq.

İndi Qarabağda, Şərqi Zəngəzurda quruculuq, qayıdış zəfərləri yaşanır, tarixi, milli, mənəvi dəyərlərimiz dirçəldilir.

Bütün bunlar isə xoşbəxtliyin özü deməkdir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Ağdam yenidən dirçəlir



**Böyük əzm, iradə və qətiyyət nümayiş etdirərək Qarabağı 30 illik işğaldan azad edən Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə indi bu tarixi bölgəmizin bərpası və quruculuğu istiqamətində mühüm layihələr həyata keçirilir.**

Azadlığından sonra həmin bölgələrə səfər edən və o yerlərin barbar düşmən tərəfindən necə viran qoyulduğuna şahidlik edən biri olaraq deyirəm ki, ötən beş il yarımlıq müddət ərzində Qarabağ və Şərqi Zəngəzur dünya tarixində görünməmiş formada dəyişib.

"Ağıllı" kənd və şəhərlərin, nəhəng tunellərin, yolların salındığı, beynəlxalq hava limanlarının tikilib istifadəyə verildiyi bu ərazilərdə dövlətimiz tərəfindən kompleks işlər gerçəkləşdirilir. Həyatın sürətlə axara düşdüyü bu torpaqlara davamlı olaraq qayıdış həyata keçirilir. Yeni müstəqil Azərbaycanın təməllərini yaradan və ölkəmizi qurtuluş yoluna çıxaran Ulu Öndərimiz Heydər Əliyevin 102-ci doğum günündə isə Ağdamın Kəngərli kəndi qayıdışın növbəti ünvanı oldu. Dövlətimiz tərəfindən bu kənddə də sakinlərə gözəl evlər tikilib, güzəranlarının xoş keçməsi üçün hərtərəfli şərait yaradılıb. Həmin gün cənab Prezident İlham Əliyev Kəngərli kəndinə köçən sakinlərlə görüşüb, onlara evlərin açarlarını təqdim edib.

Hələ Vətən müharibəsindəki zəfərə qədər dövlətimizin başçısı çıxışlarında vurğulayırdı ki, Qarabağ və Şərqi Zəngəzur mütləq işğaldan azad ediləcək və keçmiş məcburi köçkünlər üçün doğma torpaqlarında gözəl evlər tikiləcək. İndi cənab Prezident İlham Əliyevin vaxtilə dediyi həmin sözlərin reallığa çevrildiyini gözlərimizlə görürük. Sözü imzası olan Prezident İlham Əliyev kəngərlilərlə görüşü zamanı məhz bu məqama toxunaraq dedi ki, bugünkü mərasim o sözlərin, necə deyərlər, möhürüdür: "Bilirəm, sizdə də, bizdə də - bütün Azərbaycan xalqında heç vaxt şübhə olmayıb ki, biz öz torpaqlarımıza qayıdacağıq. Amma çox möhtəşəm qayıtdıq. 44 gün ərzində düşməni böyrü üstə qoyduq. Ondan sonra da 23 saat ərzində, bəlkə də daha da tez separatçıların kökünü tamamilə kəsdik".

İşğal dövründə düşmən Ağdamı xüsusi qəddarlıq, vəhşiliklə dağıtmış, hətta qəbiristanlıqlarımızı belə şumlamışdı. Ağdam şəhərində bir tək Ağdam Cümə məscidinin divarları salamat saxlanmışdı, o da mənfur niyyətlərə görə idi.

Azadlığından sonra ilk dəfə 2021-ci il mayın 28-i Müstəqillik Günündə Prezident İlham Əliyevin Ağdama səfəri zamanı biz də getmişdik. Təsəvvür edin ki, şəhərdə qarşılaşdığımız dəhşətli mənzərələrdən şoka düşmüşdüm, bir anlıq elə düşünmüşdüm ki, bu talandan, dağıntıdan sonra Ağdam çətin bir də özünə gələr. Ancaq elə həmin gün cənab dövlət başçımızın öz əlləri ilə Qarabağın təməl daşını Ağdamda atması ilə içimdəki inamsızlıq hissi də yoxa çıxdı. Ağdamda ağdamlı ziyalıların, ictimaiyyət nümayəndələrinin iştirakı ilə təməlqoyma mərasimi oldu, işğaldan azad edilən yurdlardan birinci baş plan da məhz Ağdamda təsdiqləndi. Cənab Prezident Ağdamda həyata keçiriləcək bütün işlərlə bağlı orada olan Ağdam ziyalılarının, ictimaiyyət nümayəndələrinin hər birinin fikrini öyrəndi. Ən xırda detalın belə gözdən qaçırılmamasına, mükəmməl şəkildə həyata keçirilməsinə çalışdı.

Budur, artıq gündən-günə dirçəldilən Ağdamda genişmiqyaslı quruculuq işləri aparılır. Qısa müddətdə çox əhəmiyyətli infrastruktur obyektlər istifadəyə verilib.

Ağdam rayonuna ilk köç isə bu il martın 27-də Sarıcalı kəndinə olub. Bu kəndə köçən sakinlərə də yeni evlərinin açarlarını dövlətimizin başçısı İlham Əliyev şəxsən təqdim etdi, sarıcalıların yurda dönüşlərinin sevincini onlarla birlikdə yaşadı. Ağdam şəhərinin sıfırdan qurulduğunu və ölkəmizin ən gözəl şəhərlərindən birinə çevriləcəyini söyləyən cənab Prezident dedi ki, biz Ağdamı yenidən qururuq və quracağıq.

Ağdamın tarixi, dini, mədəni ruhu da dirçəldilir, mənəvi ruhu özünə qaytarılır. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu tərəfindən Ağdamda bu istiqamətdə mühüm işlər görülür. Bu baxımdan, ötən ilin aprelində fond tərəfindən müvəffəqiyyətlə bərpaolunan Ağdam Cümə məscidinin Prezident İlham Əliyev və Qırğız Prezidenti Sadır Japarov tərəfindən açılışının edilməsinin özünəməxsus əhəmiyyəti oldu.

Ağdam həm də Azərbaycanın muğam mərkəzi sayılır. Bu il mayın 10-da Ulu Öndərimiz Heydər Əliyevin doğum günündə Prezident İlham Əliyev Ağdam Muğam Mərkəzinin açılışını etməklə bütün muğamsevərlərə bayram hədiyyəsi etdi. Qarabağda, Ağdamda yenidən doğma muğamlarımızın eşidilməsi həm bu yerlərin milli ruhunun qayıdışı, həm də Xan Şuşinskinin, Seyid Şuşinskinin, Zülfi Adıgözəlovun, Sara Qədimovanın, Səxavət Məmmədovun, Qədir Rüstəmovun və neçə-neçə muğam ustadlarımızın ruhlarının şad olması demək idi.

Cənab Prezident İlham Əliyevin şəxsi diqqəti və səyləri ilə Ağdamda da həyata keçirilən unikal quruculuq və bərpa işləri onu deməyə əsas verir ki, çox tezliklə Qarabağın bu qədim şəhəri də öz şan-şöhrətli günlərinə qovuşacaq.

*Natiq CAVADOV,*
*Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyinin baş direktoru*

Konstitusiya və Suverenlik İli 2025

# Yeni siyasi konfiqurasiya:
## *Konstitusiya və suverenliyin etibarlı təminatçısı*

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 5 il öncə əldə edilən böyük Zəfərin yaratdığı reallıqlar Azərbaycanın tarixində dönüş mərhələsi olduğu kimi, yeni hədəflərin müəyyənləşdirilməsini də zərurətə çevirir. Ümumiyyətlə, postmüharibə dövrü Azərbaycanın yeni tarixi mərhələyə keçidini şərtləndirir. Ölkədə bütün sahələrdə aparılan islahatlar daha geniş miqyas və yeni format almış, dövlət quruculuğu prosesində müasir metod və təkmil nümunələrdən istifadə olunmuşdur. Əldə edilən effektiv və səmərəli nəticələr dövlətin qüdrətinə, xalqın rifahına, vətəndaşın inam və güvəninə müsbət təsir göstərmişdir.



### Heydər Əliyev siyasi arxitekturası

Respublikamızda böyük çətinliklə qazanılan sabitlik sonradan möhtəşəm iqtisadi sıçrayışın və sosial inkişafın təməli, bu nailiyyətlər isə tarixin ən qüdrətli Azərbaycanının və ən böyük Zəfərinin təminatçıları oldular. Bu gün respublikamız Prezident İlham Əliyevin liderliyi ilə Avrasiya məkanının ən əsas enerji, təhlükəsizlik, nəqliyyat-logistika aktorlarından birinə çevrilərək, etibarlı qlobal əməkdaşlıq platforması kimi qəbul edilir.

Prezidentin demokratikləşmə siyasəti çərçivəsində son illərdə yeni mərhələyə qədəm qoyan siyasi konfiqurasiya prosesi də tək lokal mahiyyətdə deyil, eləcə də beynəlxalq miqyasda xüsusi əhəmiyyət daşıyır. Cənab İlham Əliyevin tövsiyələri ilə bu istiqamətdə həyata keçirilən tədbirlər ölkədə siyasi islahatların daha səmərəli nəticələr verməsini, milli birliyin və vətəndaş həmrəyliyinin möhkəmlənməsini, siyasi partiya və təşkilatların milli platformaya keçərək, Azərbaycanyönümlü təsisatlar kimi fəaliyyətini təmin edib.

Son beş ildə siyasi partiyaların antimilli, antidövlət fəaliyyəti yürütmələrinin ötən onilliklərdəki ağır və faciəli fəsadları aradan tam qaldırılıb, onlar (iki partiya istisna olmaqla) acı təcrübələrindən dərs alaraq, Azərbaycan naminə səfərbər olublar. Ölkədə mövcud olan və tam təmin edilən azadlıq və hüquqlardan yetərincə bəhrələnərək, maneəsiz fəaliyyətə malik olan siyasi qurumlar cəmiyyət və dövlət həyatının bütün sferalarında təmsilçilik qazanıblar.

Siyasi sistemdə keyfiyyət və milli məram faktorunda bu novator ənənələr, ümumiyyətlə, başlanğıc məqamı sayılır. Belə ki, Azərbaycan müstəqillik qazandıqda artıq mürəkkəb siyasi sistemə malik idi. Xalqından uzaq düşən hakimiyyət və ona qarşı çıxan çoxsaylı müxalifət təşkilatları tarixinin ən ağır günlərini yaşayan Azərbaycanın siyasi mənzərəsini təşkil edirdi. Ölkənin problemlərini həll etmək bacarığında olmayan iqtidara qarşı duran müxalif düşərgəyə isə avantürist mahiyyətli, heç bir siyasi və dövlətçilik təcrübəsi olmayan, xarici dairələrin təsiri altına düşən şəxslər və partiyalar aid idi.

Siyasi sistemin belə faciəli mənzərəsini yaradan iki əsas amili var idi: xalqın heç bir siyasi qrupa inam, etimad göstərməməsi və ölkədə güclü hakimiyyətin olmaması. Bu acı reallıq tarix səhnəsinə böyük sürətlə Ulu Öndər Heydər Əliyevi və onun rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasını çıxartdı.

Azərbaycanın müasir siyasi konfiqurasiyasının təməli məhz Heydər Əliyev tərəfindən yaradıldı. Güclü icraedici, təkmil qanunverici, ədalətli məhkəmə sistemləri timsalında ölkədə dövlət idarəetməsinin mükəmməl nümunəsi formalaşdırıldı ki, bunun nəticəsi olaraq, siyasi sistemin sağlamlaşdırılması prosesi başladı. Konstitusiyanın və modern hüquqi bazanın, həmçinin plüralizmin, hüquq və azadlıqların bərqərar olması nəticə etibarilə normal siyasi institutların yaradılmasına, siyasi partiyaların milli mənafelərə köklənən fəaliyyətə tədricən keçidinə, siyasi sabitliyin və vətəndaş sülhünün möhkəmliyinə əsas verdi.

Demokratik seçki ənənələrinin yaradılması ilə tam ədalətli, şəffaf şəraitdə baş tutan prezident, parlament və bələdiyyə seçkilərində müxalifətin iştirakı üçün heç bir məhdudiyyət təşkil olunmadı, onlara genişmiqyaslı fəaliyyət zəmini təsis edildi. Parlamentdə, bələdiyyələrdə iştirakçılıq qazanan müxalifət partiyaları qərargahlarla təmin edildilər və sərbəst fəaliyyətləri üçün heç vaxt olmadığı qədər şəraitləri oldu. Senzuranın ləğvi, mühakimə sisteminə yeni hüquqi qaydaların gətirilməsi müxalifət KİV-inin maneəsiz fəaliyyətinə təminat yaratdı.

### Siyasi islahatlarda yeni prioritet: siyasi konfiqurasiyanın modernləşməsi

Prezident kimi səlahiyyətlərinin icrasına başladığı gündən Ulu Öndərin dövlətçilik kursunu əsas fəaliyyət məramı elan edən cənab İlham Əliyev bütün sahələrdə olduğu kimi, siyasi sistemin təkmilləşməsinə də xüsusi diqqət ayırdı. Ötən 22 ildə ölkənin güclü dövlətçilik, davamlı inkişaf, səmərəli idarəetmə modelini formalaşdıran, onları dövrün yeni çağırışlarına uyğunlaşdıran Prezident İlham Əliyev siyasi sabitliyi və milli birliyi möhkəmləndirməklə yanaşı, siyasi islahatlar çərçivəsində siyasi konfiqurasiyanın bir neçə mərhələdə modernləşməsini də həyata keçirtdi.

Bir mühüm məqama nəzər salaq ki, hələ 2003-cü ilin oktyabrında prezident seçkilərinin nəticələri elan olunmamış bir qrup radikal müxalifət partiyasının paytaxtda iğtişaş yaratması, dövlət çevrilişinə cəhd göstərməsi məhz xalqın mövcud hakimiyyəti birmənalı dəstəkləməsi və düzgün yol tutan siyasi partiyaların prinsipial və sağlam mövqeyi ilə iflasa uğradı.

Bu hadisə sistemin siyasi elementləri olan bəzi partiyaların hələ də xarici qüvvələrin təsiri altında olduqlarını, bu "marionetlərin" xaos daşıyıcısı əməllərindən əl çəkmədiklərini bir daha təsdiqlədi. Siyasi münasibətlər sistemində hələ də hökm sürən köhnəlmiş təfəkkür, radikal mübarizə üsullarından əl çəkməmək, maddi maraqları milli mənafedən üstün tutmaq, qlobal siyasi çağırış və trendlərlə uzlaşa bilməmək ümumilikdə siyasi sistemin əsas problemi kimi özünü göstərirdi.

İqtisadi, sosial, hərbi, regional inkişafdakı modernləşmə siyasi sistemin də müasirləşməsini zəruri edirdi. 2020-ci ildən etibarən parlament və bələdiyyələrdə təmsil olunan siyasi partiyaların əksəriyyəti həm cəmiyyətin sosial sifarişini, həm də yeni dövrün çağırışlarını nəzərə alaraq, konstruktiv mövqedə dayandıqlarını bildirdilər və milli məsələlərdə hakimiyyətlə vahid mövqedən çıxış etməyə başladılar. Böyük rəqabətlilik şəratində keçirilən prezident, parlament və bələdiyyə seçkiləri cəmiyyətdə siyasi fəallığı da yüksəltdi və siyasi partiyaların fəaliyyətində keyfiyyət dəyişikliyi yaratdı.

Bu proseslərin fonunda özlərini cəmiyyətdən tam təcrid edərək, başda AXCP və Müsavat olmaqla, "marginallaşan" müxalifətin radikal qaragüruhu birmənalı olaraq, xarici qüvvələrin nəzarətinə keçərək, antiazərbaycançı şəbəkənin və dünya erməniliyinin siyasi alətinə çevrildilər. Yalnız siyasi proseslərdə deyil, ümumiyyətlə, ölkə həyatında süni gərginlik ocaqları yaratmağa uğursuz cəhdlər edən bu qrupların himayədarı olan xarici təsisatlar, beynəlxalq təşkilatlar da ölkəmizdə destruktiv fəaliyyətlərini genişləndirməyə çalışırdılar.

Xalq dəstəyindən, vətəndaş etimadından tam məhrum olan bu qaragüruh dəstəsi və böyük ictimai qınaqla qarşılanan onların xarici havadarları çoxsaylı "siyasi eksperiment"lərlə özlərini zorla Azərbaycanın siyasi mühitinə daxil etməyi arzulayırdılar. "Siyasi əməkdaşlıq" adı ilə aparılan qanunsuz maliyyələşmə, "qrant layihələri" çərçivəsində törədilən saxtakarlıq və ciddi hüquq pozuntuları "dialoq təşəbbüsləri" ilə də davam edirdi. Prezident İlham Əliyevin bu hallara reaksiyası, əslində, xalqın rəyini tam ifadə edir: "1990-cı illərdə, hətta indi mənim dövrümdə də bəziləri xaricdən gəlirdilər ki, burada siyasi dialoqu bizim üçün təşkil etsinlər. Bu, bizim üçün təhqir idi. Siz kimsiniz, gedin öz işinizlə məşğul olun. Sizin ölkənizdə indi siyasi dialoqa daha böyük ehtiyac var, nəinki Azərbaycanda".

### Siyasi dialoq lüzumu

Siyasi konfiqurasiyanın yeni mərhələsinin yaranması və siyasi dialoq təşəbbüsləri mövzusunda təhlillər aparakən, bir neçə mühüm sual meydana çıxır:

- Əslində, siyasi dialoqa ehtiyac vardımı?

- Güclü iqtidarın zəif müxalifətlə əməkdaşlığına nə lüzum vardı?

- Bütün seçkilərdə birmənalı qalib gələn hakimiyyət və onun təmsilçiləri bütün seçkilərin məğlubu olan partiyalarla nəyi müzakirə edəcək ki?

- Xalqın üz çevirdiyi partiyaları tərəfdaş səviyyəsinə qaldırmaqla hakimiyyət özünə niyə əlavə qayğılar yaradır?

Bu sualların siyasi konyunktura baxımından əlbəttə ki, əsası var. Ancaq Prezident İlham Əliyevin dövlətçilik fəlsəfəsi, strateji baxışları, Azərbaycanın sabahı ilə bağlı hədəf və məramları kontekstində bu suallar öz əhəmiyyətini tam itirir.

Çünki cənab İlham Əliyev dövlətinin və xalqının sabahını yalnız sədr olduğu partiyanın və lideri olduğu iqtidarın maraqları baxımından dəyərləndirmir.

Cənab Prezident əsl milli lider, böyük vətənpərvər, tarix yaradan və yazan rəhbər kimi Azərbaycan dövlətini və xalqını dünyanın ən güclüləri, ən müasirləri sırasına çıxarmağı qarşısında məqsəd seçib.

Prezident İlham Əliyev Azərbaycanın qarşıdakı beş ilini, on ilini düşünmür, onun hədəfləri əsrləri əhatə edir. Bu gün təməlini atdığı və artıq nəticələrini gördüyü enerji layihələri, nəqliyyat-logistik təşəbbüsləri, iqtisadi planları, sosial məqsədləri necə ki əsrlər sonra da Azərbaycanı qüdrətli və rifahlı edəcək, eləcə də onun siyasi islahatları, yaratdığı yeni siyasi konfiqurasiya respublikamızı onilliklər sonra da dünyanın ən modern, demokratik ölkələri sırasında qərarlaşdıracaq.

Siyasi sistemdə islahatlar Prezident İlham Əliyevin yaratdığı tarixin ən qüdrətli Azərbaycanında yeni siyasi münasibətləri formalaşdıran, ölkədə vətəndaş həmrəyliyini və milli birliyi davamlı möhkəmləndirən əsas amillərdəndir.

2018-ci il prezident seçkilərindən sonra cənab İlham Əliyevin elan etdiyi yeni islahatlar kursu artıq dövlət və cəmiyyət həyatında istisnasız olaraq bütün istiqamətlərdə köklü dəyişiklikliyi, təkmilləşməyi və səmərəli nəticəyə hesablanan fəaliyyəti zərurətə çevirdi. Bu günün prizmasından baxanda, 7 il öncəki dövlət quruculuğu ilə bağlı yeni çağırışın, əslində, Prezidentin Zəfər Manifesti olması təsdiqini tapır.

Bəli, Müzəffər Ali Baş Komandan böyük Zəfər üçün bütün qüvvələri - ölkənin iqtisadi gücünü, sosial rifahını, hərbi qüdrətini, milli birliyin monolitliyini, o cümlədən Azərbaycanın yeniləşən siyasi sistemini səfərbərliyə, qəti qələbəyə hazırlayırdı.

### Prezidentin təşəbbüsü böyük fədakarlıq və prinsipiallıqla icra olundu

Xatırladaq ki, Prezidentin islahatlar strategiyasında siyasi konfiqurasiyasının yeni mərhələdə təşəkkülü əsas məqsədlərdən biri kimi qəbul olunmuşdu. Bu sahədə Prezident təşəbbüslərinin mühüm icraçısı və proseslərin əsas koordinatoru olaraq Prezident Administrasiyasında 2019-cu ildə Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi yaradıldı.

Bu şöbə fəaliyyətinin ilk günlərindən etibarən Prezident İlham Əliyevin yeni siyasi konfiqurasiya vizyonunun tətbiqinə əzmkarlıqla, qətiyyətlə başladı. Öncə siyasi sistemin bütün tərəfləri, elementləri, üzvləri açıq görüşlərə dəvət edildi, onlar dinlənildi, fikirləri öyrənildi, həmçinin ölkədə yeni siyasi münasibətlərin formalaşması ilə bağlı ölkə rəhbərinin düşüncələri, təklifləri, tövsiyələri diqqətə çatdırıldı.

Siyasi mühitdə uzun illər hökm sürən qarşılıqlı inamsızlıq, əlbəttə ki, tərəflər arasında münasibətlərin sağlamlaşdırılmasına ilk vaxtlar maneə yaradırdı. Yeni siyasi konfiqurasiyaya keçid mərhələsinə dövlət tərəfindən çox həssas yanaşılması, qarşı tərəfə səmimi münasibət bəslənilməsi, onların fikirlərinə və rəylərinə önəm verilməsi adekvat müsbət nəticə verdi.

Artıq dialoq tərəfləri bir-birilərini düşmən, rəqib kimi yox, sadəcə siyasi rəqabət aparan və ümummilli məsələlərdə həmrəylik nümayiş etdirməyi bacaran müstəqil mövqe sahibləri kimi qəbul edirlər. Digər mühüm məsələ isə ölkədə siyasi ritorikanın dəyişməsi, radikal, barışmaz, güzəştsiz münasibətin konstruktiv, loyal və səmimi ovqata köklənməsi idi. Yeni siyasi mədəniyyət ənənələri formalaşır, siyasi əməkdaşlıq, tərəfdaşlıq formatları yaranırdı.

Yeni dialoq modeli ilə iqtidar-müxalifət münasibətlərində uzun müddət davam edən ətalət dövrü bitdi, siyasi sistemdə böyük canlanma yarandı. Müxalifət partiyaları anladılar ki, yeni siyasi konfiqurasiyada onlardan tələb olunan şərt heç də iqtidarın nəzarətinə keçmək yox, yalnız və yalnız ümummilli məsələlərdə vahid mövqe nümayiş etdirməkdir. "Milli Şura" adlı antimilli cəfəng qurumda toplaşan qaragüruh istisna olmaqla, siyasi spektrin bütün çalarları Prezidentin dialoq təşəbbüsünə müsbət cavab verdilər.

Bu prosesi fikrimizcə, möhtərəm Prezidentin bu sitatı ilə daha dolğun açıqlamaq olar. Belə ki, cənab İlham Əliyev dialoqda iştirakçılıq məsələsini belə səciyyələndirir: "İndi biz yeni dövrə qədəm qoyuruq. Biz yeni dövrdə siyasi dialoqu daha da dərinləşdirməliyik. Bu prosesə müharibədən əvvəl start verildi və hesab edirəm ki, qısa müddət ərzində yaxşı nəticələr əldə olundu. Demək olar ki, bütün partiyalar, - əgər biz özünü siyasi qurum adlandıran antimilli şuranı istisna etsək, bütün siyasi qüvvələr dialoqa meyil göstərmişlər, bizim təşəbbüsümüzü alqışlamışlar və artıq bu dialoq baş tutub. Bunu mən tam əminliklə deyə bilərəm və heç bir kənar müdaxilə olmadan".

Bunlar yeni siyasi konfiqurasiyanın ilkin mənzərəsi, böyük Zəfərə doğru gedilən yolda qazanılan ilk siyasi həmrəylik nümunələri idi. Prezident İlham Əliyevin Azərbaycanda yeni siyasi konfiqurasiyanın yaradılmasının ilkin təməli olacaq siyasi dialoqun formalaşması ilə bağlı təşəbbüsü Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi tərəfindən fədakarlıqla, prinsipiallıqla icra olundu və qısa müddətdə uğurlu nəticələr verdi.

Bir məqamı da vurğulayaq ki, məhz Prezidentin ölkəmizdə yeni siyasi konfiqurasiyanın formalaşması təşəbbüsündən sonra siyasi dialoq mühiti inkişaf etdi, yeni formalaşan Milli Məclisdə parlament sədrinin müavini, komitə sədri və müavin postları ilk dəfə olaraq müxalifət partiyalarının təmsilçilərinə ayrıldı. Bu proses bələdiyyələr timsalında da davam etdi.

### Siyasi sistem möhkəmlənməklə yanaşı, tam müstəqilliyini də qoruyur

Dövlət tərəfindən, o cümlədən Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin xəttilə davamlı olaraq irəli sürülən siyasi və ictimai təşəbbüslər siyasi konfiqurasiyanın təkmilləşməsinə mühüm töhfə verir. Tərəflər arasında etimad mühiti möhkəmlənir, yalnız iqtidarla-müxalifət arasında yox, elə müxalifət düşərgəsinin öz içində də fəal əməkdaşlıq yaranır.

Bu prosesdə cənab İlham Əliyevin rəhbəri olduğu Yeni Azərbaycan Partiyasının fəaliyyəti xüsusilə diqqəti cəlb edir. Tək Azərbaycanın deyil, ümumiyyətlə, Cənubi Qafqazın ən güclü siyasi təşkilatı olan YAP siyasi sistemin modernləşməsində əlahiddə mövqeyə sahibdir. Ölkənin ən əsas aparıcı siyasi qüvvəsi olmasına baxmayaraq, digər siyasi təşkilatlarla bərabərtərəfli, bərabərhüquqlu münasibətlər qurur və bu əməkdaşlığı qarşılıqlı etimad əsasında inkişaf etdirir.

YAP-ın 2021-ci ilin mart ayında keçirilən VII Qurultayından sonra partiya həyatında mühüm dəyişikliklər baş vermiş, yerli təşkilatlardan Mərkəzi Aparata qədər bütün strukturlarda fəaliyyətin səmərəliliyinin artırılması istiqamətində əsaslı nəticələr əldə olunmuşdur. YAP artıq yalnız iqtidar partiyası statusuna və üzvlərinin kəmiyyət göstəricilərinə görə deyil, həm də keyfiyyətli fəaliyyətinə görə Azərbaycanın alternativsiz siyasi lideridir.

Prezident İlham Əliyevin siyasi kursunu dəstəkləməklə yanaşı, müxalif mövqedə dayanan, yaxud da tam müxalifət partiyası olan siyasi təşkilatlar yeni siyasi konfiqurasiyada dialoq və siyasi etimad şəraitində fəaliyyət göstərirlər.

Siyasi partiyaların dövlət büdcəsindən maliyyələşmənin həcminin hər il artırılması dövlətin siyasi sistemin möhkəmlənməsi ilə yanaşı, müstəqilliyini də qorumasını, təşviq etməsini təsdiqləyir. Yeni siyasi partiyaların, vətəndaş cəmiyyəti institutlarının qeydiyyatında heç bir maneənin olmaması, müvafiq qaydaların qorunması şərtilə ən asan və operativ prosedurlarla qısa müddətdə real fəaliyyətə başlamaları da siyasi islahatların uğurlu təzahürlərindəndir.

Azərbaycanda formalaşan yeni siyasi konfiqurasiyadan bəhs edərkən, siyasi partiyaların fəaliyyətini tənzimləyən hüquqi bazanın təkmilləşməsi prosesi xüsusi önəm daşıyır. Gərgin siyasi münasibətlərin fonunda - 1992-ci ildə qəbul edilən "Siyasi partiyalar haqqında" qanun sonrakı dövrdə dəfələrlə dəyişiklik və düzəlişlərə məruz qalsa da, mahiyyətcə köhnəlmişdi və yeni dövrün çağırışları ilə əsla uzlaşmırdı.

Yeni qanunun qəbulu ilə bağlı cəmiyyətdə, xüsusən də siyasi partiyaların özləri tərəfindən mütəmadi olaraq təkliflər, çağırışlar səslənirdi. Siyasi dialoq çərçivəsində bu mövzuda təşəbbüslər irəli sürüldü, hakimiyyət də siyasi partiyaların təkliflərini nəzərə aldı. 2022-ci ildə Milli Məclisdə təmsil olunan bütün siyasi partiyalar parlament sədrinə müraciət edərək, "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanmasını zəruri saydılar.

Yeni layihə genişmiqyaslı siyasi müzakirə predmeti oldu. O zaman ölkədə fəaliyyət göstərən 47 siyasi partiya tərəfindən Milli Məclisə 250-dən çox təklif, o cümlədən parlamentdə komitə və plenar iclaslarda deputatlar tərəfindən 100-dən çox təklif təqdim edildi. Həmçinin inkişaf etmiş 24 ölkənin təcrübəsi və Venesiya Komissiyasının 132 tövsiyəsindən 112-si layihədə nəzərə alındı. Milli Məclisin tarixində ilk dəfə olaraq komitə iclasına çıxarılmazdan əvvəl siyasi partiyaların iştirakı ilə 2 ictimai dinləmə təşkil olundu.

Demokratik müzakirələr şəraitində qəbul edilən və müasir çağırışları tam ehtiva edən qanun ölkənin ictimai-siyasi həyatında mühüm hadisəyə çevrildi. Yeni siyasi münasibətlər sistemində faydalı, şəffaf əməkdaşlığın, açıq və effektiv dialoqun davamlılığı üçün möhkəm zəmin formalaşdıran qanun siyasi partiyaların daha məhsuldar fəaliyyəti üçün yeni imkanlar açdı.

Hazırda Azərbaycanda qeydiyyatdan keçərək fəaliyyət göstərən 26 siyasi partiya mövcuddur. AXCP və Müsavat Partiyası istisna olmaqla, onların hamısı yeni siyasi konfiqurasiyanın təminatçısı kimi mühüm fəaliyyət göstərir, siyasi tariximizin yazılmasında fəal iştirak edirlər. Onlar cəmiyyətdə mövcud olan problemləri, nöqsanları, çətinlikləri aşkar şəkildə diqqətə çatdırır, təkliflərini verirlər.

Yeni tarixi dövrdə əsas milli ideyalardan biri kimi müəyyənləşən Qərbi Azərbaycana qayıdış prosesində də siyasi partiyaların fədakar iştirakı xüsusən əhəmiyyətlidir. Respublika daxilində, xarici ölkələrdə siyasi partiya təmsilçilərinin fəal iştirakı, yeni təşəbbüsləri tarixi torpaqlara qayıdışın ümummilli məsələyə çevrildiyini bir daha təsdiqləyir və yeni siyasi sistemin tarixi çağırışlara da adekvat cavab verdiyini nümayiş etdirir.

### Yeni siyasi konfiqurasiya antiazərbaycançı şəbəkəyə ən böyük zərbələrdəndir

AXCP və "Milli Şura" adlı amorf qurumda toplaşan bir ovuc "ziyalı" isə özünü bu proseslərdən məhrum, yeni siyasi konfiqurasiyadan təcrid edib, nəticədə tam marginallaşıb. Əslində, bu, tam məntiqəuyğundur. Azərbaycana qənim kəsilən bu adamlar Azərbaycan naminə fəaliyyətdə iştirak edə bilərlərmi?

Prezident İlham Əliyev bu qaragüruhla dialoq ehtimalını konkret olaraq belə ifadə edib: "Bizim ölkə daxilində heç bir siyasi qurumla heç bir problemimiz yoxdur. Antimilli ünsürlərlə, əlbəttə ki, biz heç vaxt bir masa arxasında otura bilmərik, çünki onlar satqınlardır, xaindirlər. Onlar təlimatları xaricdən alırlar. Onların emissarları xarici paytaxtlarda oturublar. Oradan pul alırlar bura göndərirlər, camaatı çaşdırmaq üçün, onlar bizim şanlı Qələbəmizə kölgə salmaq istəyirlər".

Xarici qrant, qanunsuz maliyyələşmə müqabilində milli maraqları hərraca çıxardan Əli Kərimli, Cəmil Həsənli və bu kimi digər antimilli ünsürlər milli məsələlərdə indiyədək heç bir təklif, təşəbbüs irəli sürməyiblər, heç bir fəaliyyət proqramı müzakirəyə çıxarmayıblar. Konstruktivlikdən uzaq, daim destruktiv, zorakı metodlara çağırış edən bu köhnə təfəkkürlü qaragüruh Vətən savaşı zamanı və antiterror tədbirlərində əsl mahiyyətini nümayiş etdirdilər.

Azərbaycan əsgərini "erməni vətəndaşlara qarşı mərhəmət göstərməyə çağıran" tarixçi "alim" Cəmil Həsənli o qədər nadanlaşdı ki, tədqiqatçısı olduğu sahənin - tarixin həqiqətlərini qulaqardına vurdu. İndi o, ermənipərəst xarici "ekspertlərlə" birgə fəaliyyət göstərmir, artıq özü birbaşa ermənipərəst mövqe nümayiş etdirir. Erməni lobbisinin maliyyələşdirdiyi "mərkəz"lərdə Azərbaycanın siyasi reallıqlarını təhrif edən çıxışlar edir, dünya erməniliyinin iftiralarını, yalanlarını dilə gətirir.

Prezident İlham Əliyev bu milli nadanların Vətən müharibəsi və sonrakı dövrlərdə antimilli fəaliyyətlərinin məqsədini çox doğru izah edir: "Məqsəd nə idi? Məqsəd Azərbaycanı qarışdırmaq, Azərbaycanı çökdürmək, Azərbaycan rəhbərliyini hörmətdən salmaq, çirkin uydurmalar, iftiralar, yalançı məqalələr yazdırmaq - hamısı bizim gözümüzün qabağındadır. Biz bunları unutmamışıq. Bizi əsas vəzifəmizdən çəkindirmək istəyirdilər ki, başımız qarışsın daxili çəkişmələrə, başımız qarışsın əsassız ittihamları yalanlamağa, əsas vəzifədən bizi çəkindirsinlər ki, işğal edilmiş torpaqlar ermənilərin əlində əbədi qalsın. Bu idi məqsəd. Bu gün antimilli şurada cəmləşən milli satqınlar da bu məqsədi güdür. Bizim şanlı ordumuzun Qələbəsinə kölgə salmaq istəyənlər də bu məqsədi güdür. Azərbaycan tarixində bəlkə də onlar kimi iyrənc insanlar olmayıb".

AXCP-də, antimilli şurada toplaşan məlum ünsürlər təbii ki, yeni siyasi konfiqurasiyanı da davamlı hədəfə götürür, proses iştirakçıları barədə yalanlar, böhtanlar söyləyirlər. Bu məkrli xəyanətkarların qərəzlərini təkzib etmək üçün fakt, arqument söyləmək, əslində, lüzumsuzdur. Axı indiyədək onların hansı fikri, tənqidi reallığı əks etdirib? İndiyədək Əli Kərimlinin, Cəmil Həsənlinin hansı mülahizəsi ermənipərəst mövqedən fərqlənib? Heç biri!

Onların siyasi sistem və onun təşəbbüskarları, iştirakçıları barədə dedikləri də məhz dünya erməniliyinin bu prosesə münasibətini ifadə edir və Azərbaycanın bu istiqamətdə də düzgün mövqedə olduğunu təntənəli şəkildə təsdiqləyir. Yeni siyasi konfiqurasiyanın antiazərbaycançı şəbəkəyə ən böyük zərbələrdən biri olduğu həqiqətini də unutmayaq.

Ərazi bütövlüyü, konstitusiya quruluşu və suverenliyi tam təmin olunan respublikamızda siyasi sistemin modernləşməsi, siyasi konfiqurasiyanın yenilənməsi həm də bu Zəfər nailiyyətlərinin etibarlı təminatlarından biridir. Dövlət başçısının bu istiqamətdəki fəaliyyəti isə yalnız siyasi anlam daşımır, əslində, Azərbaycanın gələcəkdəki daha uğurlu nailiyyətlərinin milli etimad zəminidir.

Prezident cənab İlham Əliyev gələcəyin siyasətini hamıdan daha dəqiq, daha düzgün bilir və fəaliyyətini də məhz bu aspektdə qurur. Gələcəyin siyasəti isə sabahın Azərbaycanını daha qüdrətli, daha rifahlı, daha çiçəklənən səviyyəyə yüksəltməkdir.

***Arzu ABDULLAYEV,***
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədr müavini,***
***tarix üzrə fəlsəfə doktoru, dosent***

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Mayası ikili standartlardan yoğrulmuş təsisat

**"Mayası ikili standartlardan yoğrulmuş AŞPA Azərbaycana qarşı bu "standart"ları tətbiq etməkdən yorulmur. Bu usanmazlığın növbəti təzahürüdür ki, sözügedən təsisat Azərbaycana qarşı davamlı qərəzçilik mövqeyi sərgiləyir".**



Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Azər Badamov deyib. O bildirib ki, bu günü analiz etməmişdən əvvəl çox uzağa da getmədən COP29 ərəfəsini xatırlamaq kifayətdir. Bu önəmli tədbir ərəfəsində də bütövlükdə səs-səsə, avaz-avaza verilərək Qərb təsisatları tərəfindən Azərbaycan əleyhinə silsilə məqalələr yazıldı, böhtan xarakterli fikirlər səsləndirildi. "Məsələn, Avropa Parlamenti Natali Loiseau tərəfindən irəli sürülən "Azərbaycanda vəziyyət, insan hüquqlarının və beynəlxalq hüququn pozulması və Ermənistanla münasibətlər" adlı böhtan xarakterli qətnaməni Azərbaycana qarşı qəbul etməklə dünya ermənilərinin mənafeyinə oynanıldı. Hətta Natali bildirirdi ki, o, Avropa Parlamenti üzvlərinin böyük əksəriyyətini Azərbaycanla bağlı COP29 ərəfəsində onlara təqdim etdiyi qətnamənin lehinə səs verməyə inandırmaqdan qürur duyur. Qürurun səbəbinə baxın. Azərbaycan deyir dünya birliyi olaraq bəşəriyyətin ümumi problemlərinə qarşı birlikdə mübarizə aparaq, regionda sülh olsun, bölgə xalqları rifah içində yaşasın, bu "siyasətçi"lər nifaq salır, ikitərəflilik yaradırlar. Onu da nəzərə alaq ki, bu qadın Ermənistan ərazisinə Aİ-nin genişləndirilmiş missiyasının göndərilməsini də fəal şəkildə müdafiə edirdi", - deyə deputat əlavə edib.

O, Avropa diplomatiyasının keçmiş rəhbəri Cozep Boreli də xatırladıb. Borel canfəşanlıqla "münaqişələrin güc yolu ilə həllinin qadağan edilməsi ilə bağlı" təxribat xarakterli bəyanatlarını dövriyyəyə cəlb etmək üçün müxtəlif kürsülərdən, siyasi kluarlardan hər fürsətdə istifadə edirdi. Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı Maykl O'Flaherti "Azərbaycan: hakimiyyət həbsdə olan hüquq müdafiəçilərini, jurnalistləri və vətəndaş cəmiyyəti fəallarını azad etməlidir" başlıqlı reallıqdan tamamilə uzaq, absurd müraciət ünvanlamışdı.

A.Badamov vurğulayıb ki, AŞPA ilə münasibətlərdə yaranan dərin böhran və qırılan iplər məhz Frank Şvabenin "əməyi"nin nəticəsidir: "Şvabe münasibətləri yenə gərginləşdirmək yolunu tutaraq Azərbaycanda şəffaf seçkinin, real müxalifətin olmadığından, demokratiyanın yoxluğundan "bəhs edir". Cənab Şvabe unutmamalıdır ki, müxalifət deyərkən öz fikirlərindəki şəxsləri nəzərdə tutursa, reallıq sizə sosial bazası olmayan kəsləri göstərəcək. O kəsləri ki, Azərbaycan cəmiyyəti birmənalı qaydada əlinin tərsi ilə geri çevirib. Azərbaycana barmaq sallamaqla nəyəsə nail olmaq alınmayacaq. Münasibətlərin normal məcraya dönməsinin yolu ikili standartları dayandırmaqdan, bütün ali qanunları Azərbaycana da eynilə tətbiq etməkdən keçir".




Deputat qeyd edib ki, bu təsisatlar dildə insan faktorunun önəmini qabartsalar da, siyasətləri kimi əməlləri də nəinki Azərbaycana qarşıdır, dünya xalqları üçün də zəhər saçırlar. Belə ki, ötən il yayınlanmış bir hesabatda Avropanın çox təhlükəli hesab edilən məhsulları bütün dünyaya necə satdığı tənqid olunurdu. Bildirilirdi ki, "Amnesty International Greenpeace" 100-dən çox qeyri-hökumət təşkilatına qoşulur və Avropa İttifaqını AB-dəki şirkətlərə Avropada qadağan olunmuş məhsulların dünyanın digər hissələrinə ixracını qadağan etməyə, insanlara, ətraf mühitə daha çox zərər vurmağı dayandırmağa çağırır. Aİ-də qadağan edilmiş müşahidə və digər zərərli texnologiyaların ixracına icazə verilməsi, bir tərəfdən Aİ-ni "təhlükəsiz, etibarlı və etik Süni İntellektin" təşviqində qlobal lider kimi təqdim edən, digər tərəfdən isə Aİ şirkətlərinin dünyanın qalan hissəsinə Aİ sistemlərini satmasını dayandırmaqdan imtina edən Aİ qanunvericiləri tərəfindən açıq-aşkar ikili standartdır. Bunu biz yox, özləri deyir. Deməli, ikili standartlar bu təsisatların canına hopub.

A.Badamov bildirib ki, Azərbaycan otuz ilə yaxın zaman çərçivəsində qaçqın və məcburi köçkün problemindən əziyyət çəkəndə fəaliyyətinin ana xəttini insan haqları üzərində quran AŞPA bir milyon insanı necə görməzdən gələ bilib? Onlar rahat yolu tutaraq, bu insanlıq dramına məhəl qoymamağı seçdilər. Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü tam bərpa edən kimi bizi dərhal "etnik təmizləmə" aparmaqda ittiham edirlər. Bir amilin üzərində hər zaman dayanmalıyıq ki, Azərbaycan beynəlxalq hüququn bir bəndini belə pozmadan öz suverenliyini və ərazi bütövlüyünü bərpa edib. Azərbaycana gələndə bu təsisatlar çox yox, ikicə anlayışı obyektivlik və reallıqdan uzaq məfhumlarını sanki beyinlərindən silirlər. Halbuki AŞPA siyasiləşmədən uzaq durmalıdır. Təəssüf ki, AŞPA hər keçən gün öz ideallarından bir addım daha uzaq düşür. İmkan yaranan kimi Azərbaycana qarşı növbəti, bitib-tükənməyən siyasi avantüranın həyata keçirilməsi düyməsinə basılır. Ünvanlarını ədalətin ünvanı deyə müəyyənləşdirsələr də, əslində, AŞPA-nı lobbi qruplarının kiçik məntəqəsinə çevirməklə təsisatı cılızlaşdırırlar.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## AŞPA prezidentinin fikirləri siyasi mədəniyyətsizlikdən irəli gəlir

**"AŞPA regionda ən böyük insan hüquqları pozuntusuna - bir milyondan çox azərbaycanlının Ermənistan tərəfindən etnik təmizləməyə məruz qalmasına illərlə biganə qaldı. Qurum özünün anti-Azərbaycan mahiyyətini və Azərbaycan xalqına qarşı irqçi yanaşmasını dövlətimiz öz ərazilərini Ermənistanın işğalından azad etməsindən sonra da açıq şəkildə ortaya qoydu".**



Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Vüqar Rəhimzadə deyib. O bildirib ki, ölkəmizin tarixi Zəfər qazanaraq ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsi, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı, azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri anti-Azərbaycan dairələrin, o cümlədən Avropa Şurası Parlament Assambleyasının prezidenti Teodoros Rusopulos, Şvabe kimilərin yuxusunu ərşə çəkib. İnsan hüquqlarına hörmət etməyən bu şəxslərin AŞPA-da təmsil olunmaları fundamental insan hüquqları anlayışına ləkədir. "Teodoros Rusopulosun "Alpha News" qəzetinə müsahibəsi zamanı ölkəmizin əleyhinə səsləndirdiyi yalan, cəfəng dolu fikirlər qəbuledilməzdir. Azərbaycan Xarici İşlər Nazirliyinin bildirdiyi kimi, Avropa Şurası nizamnaməsinin pozulması, AŞPA tərəfindən səlahiyyətlərin aşılması nəticəsində Azərbaycan əleyhinə addımdan sonra belə, Azərbaycan tərəfinin dialoqa açıqlığını nümayiş etdirməsinə baxmayaraq, Rusopulos, Şvabe və onlar kimi bir sıra şəxslərin davamlı şəkildə ölkəmizin beynəlxalq hüquqa və ədalətə söykənən mövqeyinə kölgə salmağa çalışdıqları məlumdur. AŞPA bu illər ərzində ikili standartlar əsasında apardığı anti-Azərbaycan siyasəti ilə xalqımızın haqlı nifrətini qazanıb. AŞPA prezidenti Teodoros Rusopulosun ölkəmizin əleyhinə səsləndirdiyi yalan dolu fikirlər, onun qərəzliliyi siyasi mədəniyyətsizlik, tərbiyəsizlik və nadanlıqdır. Bu, diktator Rusopulosun rəhbərlik etdiyi qurumda hökm sürən acınacaqlı vəziyyətin göstəricisidir. Frank Şvabe də ondan geri qalmır", - deyə Vüqar Rəhimzadə əlavə edib.

Deputat qeyd edib ki, bu şəxsin fəaliyyəti korrupsiya, rüşvət qalmaqalları, islamofob çıxışlarla zəngindir. Frank Şvabenin ənənəsinə uyğun olaraq qeyri-ciddi, yalan, cəfəng fikirlərlə gündəmə gəlməsi onun sifarişli fəaliyyətini təsdiq edir. Azərbaycanı qaralamaq üçün erməni lobbisindən və anti-Azərbaycan dairələrdən aldığı sifarişləri yerinə yetirən Şvabenin bu cəhdləri heç bir fayda verməyəcək.

V.Rəhimzadə vurğulayıb ki, Qərbin bəzi dairələrinin riyakar, ikili siyasətinin bariz nümunəsi olan bu kimi hallar güclü, qüdrətli dövlət olan Azərbaycanın müstəqil siyasətinə təsir göstərmək iqtidarında deyil: "Şübhəsiz, mayası ölkəmizə qarşı qərəzdən yoğrulan belə çirkin təbliğatlara tutarlı cavab Azərbaycanın bugünkü reallıqlarıdır".

*Əsmər QABİLQIZI,*
*"Azərbaycan"*



## Fransa Afrika və Asiyada törətdiyi hadisələri demokratiyanı yaymaq hesab edirsə, Azərbaycana belə demokratiya lazım deyil

**XX əsrin ikinci yarısında Afrika dövlətləri Fransa kolonializminə son verərək müstəqil olsalar da, iqtisadi asılılıqdan canlarını tam qurtara bilmədilər. 1960-cı ildən başlayaraq, Fransa Afrikada yeni siyasi xəttini müəyyənləşdirdi. Rəsmi Parisin Afrikaya qarşı yürütdüyü yeni siyasətin əsasında iqtisadi əlaqələrin davamını təmin etmək və yeni təsir vasitələri yaratmaq dayanırdı. Yeni siyasət həmin dövrün Fransa mətbuatında Frans-Afrika (France-Afrique) adlandırılırdı.**




Fransanın Afrika siyasəti dünya birliyi tərəfindən kəskin tənqid edildikdən sonra 2020-2023-cü illər ərzində bir sıra dövlətlərdə iğtişaşlar başladı və Fransanın hərbi hissələri ölkələrdən çıxarıldı. 2022-ci ildə Prezident Emmanuel Makron keçmiş koloniyalara səfər edərək əhalini sakitləşdirməyə çalışsa da, qovularaq Fransaya qayıtdı və rəsmi Parisin neytrallığını elan etdi. Guya iğtişaşlar həmin dövlətlərin daxili işidir və Fransa heç bir dövlətin daxili işinə "qarışmır". Neytrallığını elan edən Fransa iqtisadi nəzarəti qətiyyən əldən vermək niyyətində deyil. Məsələnin mahiyyəti ondan ibarətdir ki, koloniya dövründə 14 Afrika dövlətinin 85 faiz qızıl və valyuta ehtiyatı Fransa Mərkəzi Bankında saxlanılır və dövlət büdcəsinə ildə 500 milyard dollar gəlir gətirir. Koloniya dövlətlərindən əldə edilən maliyyə vəsaiti Fransa dövlət büdcəsinin 40 faizini təşkil edir.

Bu gün Benin, Burkino-Faso, Qvinei-Bisau, Fil Dişi Sahili, Mali, Niger, Seneqal, Toqo, Kamerun, Çad, Qabon, Konqo və başqa dövlətlərin də ehtiyat maliyyə aktivləri Fransanın nəzarətindədir. Fransa Senatının qəbul etdiyi qanuna əsasən, adı yuxarıda çəkilən dövlətlər il ərzində öz ehtiyatlarının yalnız 15 faizindən istifadə edə bilərlər. Əsası 1950-ci illərdə yaradılmış bu sistem indi də davam edir. Bununla razılaşmayanlar isə çox pis nəticələrlə qarşılaşmalı olublar. Məsələn, 1958-ci ildə Qvineinin ilk Prezidenti Əhməd Seku Ture referendum keçirərək ölkənin Fransa koloniyasından çıxdığını və müstəqil siyasət yürüdəcəyini bəyan etdi. Ölkəni tərk edən fransalı iş adamları Parisin göstərişi ilə uşaq bağcasından tutmuş iri dövlət şirkətlərinə kimi bütün müəssisələri dağıtdılar. Hətta kənd yerlərində ev heyvanları da öldürülür, xəstəxanalarda dərman tapılmırdı. Bununla da ölkədə kütləvi etirazlar başladı ki, digər dövlətlər də qorxaraq müstəqilliyə doğru addım atmasınlar.

Toqo Prezidenti Silvanus Olimpio 1963-cü ildə şərtlərin ağırlığına görə Fransa Prezidenti Şarl de-Qoll ilə hərbi və iqtisadi sahələrdə əməkdaşlıq haqqında sənədə imza atmaqdan imtina etdi. Elə həmin ilin dekabrında Fransada təhsil alan Eten Qnassinq adlı zabit tərəfindən qətlə yetirildi.

1962-ci ildə Malinin Prezidenti Modibo Keyta Fransanın tətbiq etdiyi vahid valyutanı ölkəsində dövriyyəyə buraxmaqdan imtina etdiyi üçün Fransa legionunda xidmət etmiş Mussa Traora adlı zabit tərəfindən qətlə yetirildi. 1966-cı ildə Mərkəzi Afrika Respublikasında, Burkino-Fassoda, 1972-ci ildə Benində baş verən dövlət çevrilişləri Parisin planı əsasında Fransa legionunda xidmət edən zabitlər tərəfindən həyata keçirildi. 2008-ci ildə Afrika dövlətlərində baş verən iğtişaşlara münasibət bildirən Prezident Jak Şirak jurnalistlərin suallarına cavab verərək bildirdi ki, "Afrikasız Fransa dünyanın üçüncü dövlətləri sırasına düşəcək". 1957-ci ildə Prezident Fransua Mitteran yenə də jurnalistlərə bildirdi ki, "XXI əsrdə Afrikasız Fransa olmayacaq".

Bu gün Qərb mətbuatı Afrika dövlətlərinin rəhbərlərini diktatura rejimi qurmaqda və Avropa dövlətləri ilə korrupsiya əlaqələrində ittiham edirlər. Lakin məsələnin mahiyyəti ondan ibarətdir ki, 1960-cı illərdə Fransa müstəmləkəçiliyinə qarşı çıxaraq müstəqillik əldə edən Afrika dövlətləri Fransa ilə qarşılıqlı əməkdaşlıq haqqında müqaviləni imzalamağa məcbur ediliblər.

Seneqal Prezidenti Leopold Sedar Senqor 1958-ci ildə müstəqillik qazanmış digər Afrika dövlətlərinin başına gələnlərdən qorxaraq bəyan etdi ki, "Seneqal xalqı müstəqillik yolunu, yalnız Fransa ilə dostluq və əməkdaşlıq çərçivəsində seçir".

Fil Dişi Sahili isə müstəqillikdən sonra 450 hərbçinin ölkədə qalmasına razılıq verdi. Sonradan isə bu ölkədə daha böyük hərbi hissə yaradıldı. 2006-cı ildə Fil Dişi Sahilində Fransa istismarçılığına qarşı kütləvi aksiyalar keçiriləndə Fransa ordusunun zabitləri Abican şəhərində 65 nəfəri güllələyərək öldürdü, 1200 nəfər isə güllə yarası aldı.

2013-cü ildə Mali xalqı Fransanın oyuncağı olan hökumətə qarşı kütləvi aksiya keçirərkən ölkədəki Fransa hərbçilərinin müqaviməti ilə qarşılaşdılar. Fransanın hərbi hava qüvvələri ölkənin paytaxtı Bomoko ilə yanaşı, Sevare, Kona, Mopti şəhərlərini də bombardman etdilər. Nəticədə yüzlərlə qoca, qadın və uşaq həlak oldu. Beynəlxalq insan hüquqlarının müdafiəsi təşkilatı "Human Rights Watch" yalnız 10 nəfərin öldüyünü bildirdi. Haiti isə 1804-cü ildən 1947-ci ilə kimi Fransaya 21 milyard dollar həcmində vergi ödəməyə məcbur edildi.

Fransa koloniyasında olan Afrikada ölkələrinin dövlət və hökumət strukturlarına yerləşdirilən casusların fəaliyyətinin nəticəsində bu ölkələrdə asanlıqla dövlət çevrilişləri həyata keçirilirdi.

Fransa xüsusi xidmət orqanlarının 2010-2015-ci illər ərzində Afrikada həyata keçirdikləri "Barxan", "Sevral", "Harmattan", "Boali", "Sanqaris" kod adları altındakı əməliyyatlar barəsində Qərb mətbuatı vaxtilə çoxsaylı materiallar dərc edib.

Fransanın Hind-Çində törətdiyi hərbi cinayətlər isə tamamilə başqa bir mövzudur. Fransa ordusunun Hind-Çin regionundakı komandanının siyasi məsələlər üzrə müşaviri Paul Myus memuarlarında yazırdı ki, 1885-ci ildə Vyetnam tam olaraq Fransanın koloniyasına çevrildi və 3 yerə bölündü. Koxinxion bölgəsi Fransanın Ticarət və Koloniyalar Nazirliyinə, Annam və Tonkin isə Xarici İşlər Nazirliyinə tabe edildi. Bu bölgələrə müxtəlif hüquqi status verilmişdi. Ağır istismara dözməyən vyetnamlılar 1930-cu ildə üsyana qalxdılar. Üsyan Fransa ordusu tərəfindən çox qəddarlıqla yatırıldı. Hanoy şəhəri bombardman olundu, Koam kəndinin sakinləri üsyançılara dəstək verdiklərinə görə kənd yerlə yeksan edildi.

ABŞ tədqiqatçısı Stoun Tennessonun 2010-cu ildə Kaliforniya Universitetində nəşr etdirdiyi "Vyetnam 1946: Müharibə necə başladı" adlı kitabında Fransa ordusunun Vyetnamda törətdiyi vəhşiliklər faktlarla göstərilib. Kitabda qeyd olunub ki, koloniya dövründə Vyetnamda 300 min adam qətlə yetirilib.

İstismarçı bir tarixə malik olan Fransanın bu gün Azərbaycana qarşı tutduğu qeyri-konstruktiv mövqe heç də onun demokratik dəyərləri dünyaya yaymaq istəyindən irəli gəlmir. Fransanın Afrika və Asiyada törətdiyi hadisələr demokratiyanı yaymaq hesab edilirsə, Azərbaycana belə demokratiya lazım deyil.

*AZƏRTAC*

## Paşinyanın Koçaryan-Sarkisyan müttəfiqliyi ilə devrilməsi ehtimalı yoxdur

**"Nikol Paşinyanın küçə hərəkatları ilə devrilməsi ehtimalı hazırkı dövr üçün real görünmür. Əgər belə bir ehtimal olarsa, bu məsələ daha çox Qərblə Nikol Paşinyan münasibətlərinin dinamikası ilə izah edilməlidir".**



Bu sözləri qəzetimizə açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin əməkdaşı Aqşin Kərimov deyib. O bildirib ki, Nikol Paşinyan Qərbin ona qoyduğu tələb və şərtlər əsasında siyasət yürüdə bilmir. Ermənistan artıq Azərbaycanın sülh gündəmindəki tələblərin əsirinə çevrilib ki, bu da regionda Azərbaycan-Türkiyə strateji birliyinin dinamikasını gücləndirir. "Nikol Paşinyanın sülh gündəliyindəki mövqeyi Rusiyanın maraqları ilə dərin ziddiyyət təşkil etmir. Bununla belə, Rusiya üçün də Paşinyana yanaşmada ehtiyatlılıq dərəcələri qalmaqdadır. Deməli, nəticə olaraq, Paşinyanın devrilməsi son nəticədə Rusiya-Qərb sövdələşməsi ilə müəyyənləşə bilər. Hələlik isə Ermənistanda Rusiyameyilli qüvvələrlə Qərbə inteqrasiya tərəfdarları arasında rəqabət qızışır. Lakin Rusiyanın Ermənistandakı siyasi təsir rıçaqları zəifləyib, Moskva Paşinyana müxalif qüvvələrin mərkəzləşdirilməsini və onun böyük elektorat qazanmasını təşkil edə bilmir", - deyə ekspert əlavə edib.

Ekspert qeyd edib ki, üstəlik, Rusiya ilə yanaşı, Robert Koçaryanı və Serj Sarkisyanı Qərb də gizli dəstəkləyir. Nikol Paşinyanın necə devrilməsi ilə bağlı Koçaryanla Sarkisyan arasında böyüyən fikir ayrılıqları daha çox Rusiya-Qərb mübarizəsinin əlamətləri ilə əlaqədardır. Eyni zamanda Nikol Paşinyanın Koçaryan-Sarkisyan mümkün müttəfiqliyi ilə devrilməsi ehtimalları yoxdur, çünki erməni ictimaiyyətində onlara qarşı dərin bir nifrət var. Digər keçmiş prezident Levon Ter-Petrosyanın da elektorat cəhətdən ciddi problemləri var. Buna görə də, Paşinyanın hakimiyyətdən getməsi sabiqlərə ediləcək yatırımlar hesabına baş tutmayacaq.

A.Kərimov vurğulayıb ki, belə bir variant varsa, yeni kadrın elə Ermənistan hakimiyyətinin öz daxilində hazırlanacağı ehtimal olunur: Ancaq Paşinyanın iqtidardan uzaqlaşdırılması ehtimalları zəif olaraq qalmaqdadır. Səbəbindən asılı olmayaraq, siyasi qüvvələr nisbətində Rusiyanın Qərbə uduzduğu görünməkdədir. Lakin Moskvanın Ermənistanda hərbi və iqtisadi portfeli doludur ki, bu da İrəvana təzyiq aləti kimi tətbiq olunur".

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*



# Ermənistan ordusu tərəfindən Başlıbel kəndinin əhalisinin məhv edilməsinin şahidi olan şəxslər məhkəmədə ifadə veriblər

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası mayın 12-də davam etdirilib.





AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə məhkəmə heyətini, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Məhkəmədə Ermənistanın işğal siyasətinin tərkib hissəsi olaraq həmin ölkənin silahlı qüvvələri tərəfindən Kəlbəcər rayonunda, o cümlədən rayonun Başlıbel kəndində, "Tunel" adlanan ərazisində və digər ərazilərində azərbaycanlıların kütləvi şəkildə məhv edilməsi, azərbaycanlı olduğuna görə dinc sakinlərə qarşı xüsusilə ağır cinayətlərin törədilməsi ilə bağlı zərərçəkmiş şəxslər ifadə verib.

Zərərçəkmiş şəxs Elşad Alışov ifadəsində Kəlbəcər işğal olunandan sonra Başlıbeli tərk etmək məcburiyyətində qaldıqlarını, bu zaman anası, bacısı, balaca qardaşı, əmisi qızları və əmisi gəlini ilə birlikdə maşınla tunel istiqamətindən rayonu tərk etmək istədiklərini deyib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin sualına cavabında zərərçəkmiş şəxs deyib ki, müdafiə üçün heç bir silahı olmayıb, hadisə zamanı Ermənistan ordusu tərəfindən atılan güllələrdən biri anasının ayağına dəyib: "Onlar bütün tuneli mühasirəyə almışdılar. Oradan keçərkən maşınımızı atəşə tutdular. Nəticədə anam ayağından yaralandı, güllə bacımın ağzının içindən girib o biri tərəfdən çıxmışdı. Anamı kürəyimə alıb 300 metr apardım. Yusifgilin (qonşusu - red.) maşını da vurulmuşdu. Maşını yoxlamaq məqsədilə ora çatanda anamı yerə qoyub, Yusifgilin maşınına baxdım. Amma qardaşım istisna nə onu (anasını nəzərdə tutur - red.), nə də digərlərini çıxara bildim. Onlardan indiyədək xəbər yoxdur".

Yola qonşuları Yusiflə birgə çıxdıqlarını bildirən zərərçəkmiş şəxs onların olduğu maşının vurulduğunu da diqqətə çatdırıb. O, daha sonra deyib: "Yusif maşından 50-60 metr kənarda yaralı idi. Onun qardaşı ölmüşdü, həyat yoldaşı və bacısı qızı isə yaralı idi".

Digər zərərçəkmiş şəxs Elşad Əzizov Ermənistan silahlı qüvvələrinin Başlıbelə hücumu nəticəsində qolundan güllə yarası aldığını, hücum nəticəsində 12 nəfərin şəhid olduğunu diqqətə çatdırıb. Bildirib ki, Ermənistan ordusu kənd sakinlərinin evlərini talayır, mal-qaralarını aparırdılar.

O qeyd edib ki, Ermənistan silahlı qüvvələrinin hücumundan sonra Kəlbəcər, demək olar, bütün istiqamətlərdə mühasirədə olduğu üçün əhali Murov yolu ilə qaçmağa məcbur olub. E.Əzizov qaça bilməyənlərin isə dağlıq ərazidəki kahalarda məskunlaşdıqlarını və iyul ayına qədər Kəlbəcərdə qaldıqlarını vurğulayıb. Zərərçəkmiş şəxs vurğulayıb ki, kənd işğal olunanda Ermənistan silahlı qüvvələri mülki əhaliyə kəndi tərk etməyə imkan verməyib.

E.Əzizov bildirib ki, 113 gündən sonra gizli yolla Daşkəsən rayonuna gəlib çıxıblar. O, Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun sualına cavabında bildirib ki, ermənilərin Kəlbəcərə ərazi iddiası 1987-1988-ci ildən başlamışdı: "Ermənilər azərbaycanlılara evlərini tərk etməsi üçün təzyiq göstərirdi. Kəlbəcər işğal olunanadək rayonda müxtəlif faciələr törədilib. Kənd işğal edilənədək isə Başlıbelin 1500-dən çox sakini var idi".

Dövlət ittihamçısı Təranə Məmmədovanın sualını cavablandıran zərərçəkmiş şəxs deyib ki, Kəlbəcər işğal olunanda Ermənistan silahlı qüvvələri mülki əhalini 4 tərəfdən mühasirəyə alıb: "Məqsəd əhalini məhv etmək idi. Çünki çıxış üçün mülki azərbaycanlılara yol verilmədi. Əhalinin yeganə çıxışı Murov istiqamətində dağ yolu oldu".

İfadə verən zərərçəkmiş şəxs Habil Ələsgərov bildirib ki, aprelin 5-də Başlıbeldə güllə səsləri eşidilməyə başlayıb. "Kəndə hücum edən Ermənistan silahlı qüvvələrinin hərbçiləri evləri qarət edirdilər. Biz özümüzü müdafiə etmək məqsədilə kahalarda gizləndik. Onlar gizləndiyimiz yeri müəyyən etdikdən sonra bizi atəşə tutmağa başladılar. Gizləndiyimiz kahalara qazlı bombalar atdıqdan sonra içəridə qalmaq olmurdu. Çölə çıxıb içəridə hər kəsin öldüyünü desəm də, inanmadılar. Məndən tələb etdilər ki, kahada gizlənən insanları çağırıb çölə çıxarım", - deyə H.Ələsgərov vurğulayıb.

Zərərçəkmiş şəxs əlavə edib ki, Ermənistan ordusunun kahaya hücumu nəticəsində anası qolundan güllə yarası almışdı: "Anamı gətirməyə gedəndə onu güllələdilər. Yanımızda olanların çoxu yaşlı və qadınlar idi. Ermənistan silahlı qüvvələri mülki əhaliyə heç bir sual vermədən görən kimi öldürürdülər. Orada xarici ölkələrdən muzdlular da var idi. Girov düşməmək üçün qaçdım ki, bəlkə məni öldürərlər. Amma qaça bildim. Yaşlı bir kişini mədəniyyət evində yandırmışdılar, sadəcə, başı qalmışdı. Bir qadını suya atmışdılar, hava soyuq olduğu üçün donaraq ölmüşdü. Onlar hətta heyvanları belə amansızlıqla öldürürdülər.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin sualına cavab olaraq H.Ələsgərov deyib ki, Başlıbel üçün yeganə çıxış "Tunel" kimi tanınan yol olub. Lakin Ermənistan ordusu orada pusqu quraraq yolu bağlayıb. Ərazidə gizlənmək üçün meşə də olmadığından ümid kahalara qalıb. O, həmin kahalarda günlərlə ac-susuz, qaranlıqda qaldıqlarını deyib. Bildirib ki, onlar ya kahalarda acından ölməli, ya da həyatlarını təhlükəyə ataraq gecə gizli şəkildə kəndə ərzaq dalınca getməli idilər.

Sonra məhkəmədə dövlət ittihamını müdafiə edən prokurorlar tərəfindən Başlıbel əhalisinin müdafiə olunduqları kahaların və hadisə yerinin dronla çəkilmiş görüntüləri nümayiş etdirilib, zərərçəkmiş şəxslər məhkəmədə gizləndikləri kahanı tanıyıblar.

Dövlət ittihamını müdafiə edən prokurorun Ermənistan ordusunun hansı istiqamətlərdən hücum etdiyi barədə sualına cavabında H.Ələsgərov onların Ağdabandan və Basarkeçərdən hücuma keçdiyini deyib.

İfadə verən zərərçəkmiş şəxs Tacirə Ələsgərova aprelin 18-də Başlıbeldə yaşanan faciədə sol qolundan güllə yarası aldığını və 8 gün ailəsindən ayrı düşdüyünü deyib.

Zərərçəkmiş şəxs dövlət ittihamçısı Vüsal Abdullayevin sualına cavabında bildirib ki, onlar kahalarda 113 gün soyuqda, ac-susuz vəziyyətdə sanki cəhənnəmi yaşayıblar.

Şahid qismində dindirilmiş Ədalət Abbasov ifadəsində bildirib ki, 1993-cü ilin aprelində onlar mağaralarda gizləndikləri vaxt Ermənistan ordusunun hərbçiləri kənddə qalan sakinləri amansızlıqla öldürüblər.

"Hüseyn adlı sakini kəndin mədəniyyət evinin içərisində üzərinə yanacaq töküb yandırıblar. Biz kəndin içərisinə gizlincə ərzaq dalınca gedəndə meyitləri gördük", - deyə o bildirib.

Ə.Abbasov əlavə edib ki, 1993-cü il aprelin 18-də Ermənistan ordusunun silahlanmış 30-a yaxın hərbçisi onların olduğu mağaralara yaxınlaşıb 10 nəfər Başlıbel kənd sakinini, 1 nəfər Laçın rayon sakini Əhliman adlı şəxsi və xidmət yoldaşı Vüqar Abdullayevi öldürüblər.

Dövlət ittihamçısı Fuad Musayevin "kahalara nə vaxt getdiniz?", "neçə nəfər idiniz?" sualına cavab verən zərərçəkmiş deyib: "Biz aprelin 5-də kahalara sığınıb orada qaldıq. 7-8 kaha var idi, hərəsində təxminən 10 nəfər yerləşirdi".

İfadə verən zərərçəkmiş şəxs Rüstəm Ələsgərov Başlıbeldə yolun kənarında Qənaət adlı sakinin meyitini gördüklərini deyib. O, Ermənistan ordusunun bölmələrinin insanlara hər cür işgəncə verdiklərini diqqətə çatdırıb.

"Ermənistan ordusunun hərbçilərinin öldürdüklərinin hamısı yaşlılar, qocalar, uşaqlar, ümumilikdə isə mülki insanlar idi", - deyə o əlavə edib.

Zərərçəkmiş şəxslərin nümayəndələrinin suallarına cavabında R.Ələsgərov hücum edənlər arasında xarici ölkələrdən muzdluların da olduğunu deyib. "Girov götürülənlərin bəziləri sonradan dəyişdirilib. Həmin insanlara girovluqda dəhşətli işgəncələr verilib", - deyə o əlavə edib.

Zərərçəkmiş şəxs Əli Zeynalov "Tunel" adlanan yerdə Ermənistan ordusunun pusqusuna düşdüklərini, hadisə nəticəsində qohumlarını itirdiyini bildirib.

O vurğulayıb ki, Ermənistan silahlı qüvvələri heç kimə aman vermədən yaşlıları, qadınları, uşaqları güllələbaran edib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarına cavabında Ə.Zeynalov Kəlbəcəri iki günə Murov istiqamətindən tərk edə bildiklərini deyib.

Daha sonra məhkəmədə ifadə verən zərərçəkmiş şəxs Arif Süleymanov aprelin 1-də mühasirədə qalan ailə üzvlərinə kömək etmək üçün piyada yolla Murov dağını aşaraq Kəlbəcər istiqamətinə getmək istədiyini, lakin ərazinin Tərtər çayı boyunca Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduğu üçün gedə bilmədiyini deyib.

"Buna görə də Yanşaq kəndi ərazisindən geri qayıtmaq məcburiyyətində qaldıq. Bir gün əvvəl isə Kəlbəcərdən qalxan sonuncu vertolyot da Ermənistan ordusu tərəfindən vurulmuşdu. Ermənistan silahlı qüvvələri "Tunel" deyilən ərazidə azərbaycanlıları pusquya salmaq üçün mövqe tutub, tuneli keçməyə cəhd edən bütün avtomobilləri atəşə tuturdular. Ona görə də insanlar məcburən Murova doğru istiqamət götürdü. Həmin yolu isə şaxtalı, qarlı havada getmək olduqca çətin idi. Kəndi tərk edən əhalinin böyük əksəriyyəti yaşlı olduğundan irəliləyə bilmədi", - deyə o, diqqətə çatdırıb.

Zərərçəkən əlavə edib ki, Başlıbel kəndi işğal olunan zaman anasını itirib.

Məhkəmənin növbəti iclası mayın 15-nə təyin olunub.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə erməniəsilli 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

# Leyla Əliyevanın təşəbbüsü ilə uşaq və yeniyetmələrə velosipedlər hədiyyə olunub







**Mayın 11-də Xızı, Quba, Qax və Yevlax rayonlarında yaşayan uşaq və yeniyetmələr üçün Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə xüsusi sosial aksiya keçirilib.**

IDEA İctimai Birliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Azərbaycan Velosiped İdmanı Federasiyasının dəstəyi ilə keçirilən aksiya çərçivəsində hər rayondan 50 nəfər olmaqla, 6-18 yaşarası, ümumilikdə 200 uşaq və yeniyetməyə velosipedlər, onlara uyğun təhlükəsizlik ləvazimatları hədiyyə olunub.

Mütəmadi olaraq icra edilən bu təşəbbüsün əsas məqsədi regionlarda yaşayan uşaqların asudə vaxtlarını daha səmərəli şəkildə keçirmələrinə şərait yaratmaq, onların idmana və sağlam həyat tərzinə marağını artırmaq, fiziki aktivliyi təşviq etmək, eləcə də ekoloji nəqliyyat vasitəsi kimi velosiped istifadəsini təşviq etməkdir. Tədbirdə iştirak edən uşaqlar hədiyyələri böyük sevinclə qarşılayıb, təşəbbüsə görə təşkilatçılara minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həm ölkəmizin müxtəlif regionlarında, həm də dünyanın bir sıra ölkələrində humanitar, təhsil, səhiyyə, sosial, ekoloji və digər sahələri əhatə edən genişmiqyaslı layihələr mütəmadi olaraq həyata keçirilir. Müxtəlif hədəf və yaş qruplarını əhatə edən bu təşəbbüslər insanların sosial rifahının yaxşılaşdırılmasına, onların həyat keyfiyyətinin yüksəldilməsinə, təbiətin və biomüxtəlifliyin qorunmasına, ekoloji tarazlığın bərpasına mühüm töhfələr verir. Bu layihələr yüz minlərlə insanın həyatına bilavasitə müsbət təsir göstərərək, həm cəmiyyətin rifahına, həm də planetimizin davamlı inkişafına xidmət edir.

# Avropa Komissiyasının Qonşuluq və Genişlənmə Danışıqları üzrə baş direktoru ilə görüş keçirilib

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Avropa Komissiyasının Qonşuluq və Genişlənmə Danışıqları üzrə baş direktoru Gert Yan Koopman ilə görüşüb.**



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə müasir yanaşmaların tətbiqi, "yaşıl" və rəqəmsal inkişafa keçidin sürətləndirilməsinin önəmi qeyd olunub.

Müzakirələrdə həmçinin dayanıqlı həllər istiqamətində tərəfdaşlığın əhəmiyyəti vurğulanıb.

# Tanınmış avstraliyalı vəkil işğaldan azad olunmuş ərazilərə səfər edib

**Azərbaycan reallıqlarının təbliği istiqamətində fəallıq göstərən avstraliyalı vəkil Steven Blyth Şuşa şəhərinə səfər edib. Səfərdə məqsəd işğaldan azad olunmuş ərazilərdə Azərbaycanın qədim abidə və tikililəri ilə tanışlıq və erməni vandalizminin əyani şahidi olmaqdır.**



AZƏRTAC xəbər verir ki, əvvəlcə Cıdır düzünə gələn avstraliyalı vəkil oradan açılan gözəl mənzərəni seyr edib. Steven Blyth sonra Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi, Yuxarı Gövhər ağa məscidi, Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəllərinin qoyulduğu Şuşa şəhər mərkəzi meydanı, Xurşidbanu Natəvanın evi, Xan qızı bulağı, Xan sarayı, qala divarları ilə tanış olub.

Dövlət Qoruğu İdarəsinin əməkdaşı tərəfindən ona Şuşanın tarixi, şəhərdəki abidələr barədə məlumat verilib. Bildirilib ki, Şuşa şəhərindəki tarixi binalar, məscidlər, abidələr 30 ilə yaxın işğal dövründə erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra burada genişmiqyaslı bərpa-quruculuq işlərinə start verilib. İnfrastrukturun qurulması ilə yanaşı, Şuşada şəhərin əsl tarixi simasının, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılıb.

Avstraliyalı vəkil Qarabağa səfəri çərçivəsində Ağdam şəhərinə də gedib, Ermənistan silahlı qüvvələrinin Ağdamda törətdiyi vəhşiliklər, eləcə də şəhər işğaldan azad olunandan sonra Azərbaycan dövlətinin həyata keçirdiyi tikinti-quruculuq işləri ilə tanış olub.

Steven Blyth Avstraliyanın müxtəlif şəhərlərində keçirilən və Azərbaycanla bağlı təşkil olunan tədbirlərdə iştirak edir. Avstraliya-Azərbaycan Dostluq Cəmiyyətinin yaradılmasının təşəbbüskarlarından olan Steven Blyth eyni zamanda Avstraliyada erməni lobbisinin anti-Azərbaycan təbliğatına qarşı fəal şəkildə mübarizə aparır. Avstraliya-Azərbaycan Dostluq Cəmiyyətinin üzvləri Avstraliyanın müxtəlif şəhərlərində Xocalı soyqırımının anım günləri ilə bağlı tədbirlər keçirir, həmçinin bu ölkənin hökumət və parlament rəsmiləri ilə görüşlərdə ölkəmiz haqqında məlumatlar təqdim edirlər.

# REGİONLAR

## Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksi həm də Zəngəzur dəhlizinin səmərəli fəaliyyətinə hesablanıb

**Xəbər verildiyi kimi, Prezident İlham Əliyev bu günlər işğaldan azad olunan ərazilərdə bir çox obyektlərin, o sıradan Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin açılışında iştirak edib. Həmin obyekt yerli əhəmiyyətli olmaqla yanaşı, həm də Azərbaycanın dünya səviyyəsində tranzit ölkəsinə çevrilməsi siyasətinin bir parçasıdır.**



İşğaldan azad edilən ərazilərdə çəkilən dəmir yolu xətti və digər infrastrukturun bir məqsədi də gələcəkdə Zəngəzur dəhlizinin səmərəli fəaliyyətini təmin etməkdir. Dövlət başçısının dediyi kimi, Ermənistan istəsə də, istəməsə də, Zəngəzur dəhlizi açılacaq. Ona görə ki, dünyanın qüdrətli dövlətləri və biznes dairələrin məqsədi qlobal ticarətin genişlənməsinə nail olmaqdır. Zəngəzur dəhlizinin açılması da bu prosesin tərkib hissəsidir.

Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksi Bərdə-Ağdam dəmir yolu xətti layihəsinin 2-ci mərhələsi çərçivəsində inşa olunub. Ərazisi 8 hektara yaxın olan bu infrastruktur obyektində bütün zəruri otaqlar, həmçinin gözləmə zalları, bilet kassaları, kitabxana, mağazalar, əyləncə zonaları, restoran və istirahət guşələri yaradılıb, özü də dünya standartları səviyyəsində. Kompleksin ərazisində müxtəlif növ nəqliyyat vasitələrinin servis binaları və sərnişin platforması da tikilib. Azərbaycanda ilk qapalı dəmir yolu platforması məhz Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksində inşa olunub və uzunluğu 350 metrdir. Ərazidə fərdi, orta və iritutumlu nəqliyyat vasitələri üçün yerüstü avtodayanacaqlar, şəhərlərarası və rayondaxili marşrutlar da işləyəcək avtobuslar üçün perronlar, velosiped dayanacaqları, park və elektromobillər üçün elektrik doldurma məntəqəsi də yaradılıb.

Kompleksdə dəmir yolu vağzalı gündəlik 800-1000 nəfər sərnişinin daşınmasına imkan verəcək. Avtovağzal isə gündəlik 1300-1500 nəfər sərnişinə xidmət edəcək. Kompleks vahid nəqliyyat qovşağı kimi fəaliyyət göstərəcək.

İşğaldan azad olunan ərazilərdə icra edilən belə layihələr təbii ki, ilk növbədə, yerli tələbat nəzərə alınaraq icra olunur. Bu baxımdan, sözügedən kompleks Qarabağ iqtisadi rayonunda ictimai nəqliyyatın əlçatanlığını artıracaq, rayonun sosial-iqtisadi dirçəlişinə, Azərbaycanın nəqliyyat potensialının genişlənməsinə, bütövlükdə Böyük qayıdış proqramının icrasına mühüm töhfə verəcək. Ümumilikdə Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən Bərdə-Ağdam və Horadiz-Ağbənd dəmir yolu layihələri Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin inkişafına müsbət təsirlər göstərəcək. Yeni dəmiryol xətləri həm sərnişinlərin, həm də sənaye və kənd təsərrüfatı məhsullarının daha tez və sərfəli daşınmasını təmin etməklə bölgənin logistik potensialını əhəmiyyətli dərəcədə artıracaq.

Ölkəmizin "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşməsi bölgəni yük axınlarının toplanması, çeşidlənməsi və paylanması üçün əlverişli məkana çevirir. Ağdam Dəmir Yolu və Vağzal Kompleksi də müasir infrastruktur obyekti və logistik mərkəz kimi, həm də beynəlxalq ticarətin inkişafına təkan verəcək. Bu kompleks Qarabağ regionunun mühüm nəqliyyat mübadilə mərkəzinə çevriləcək.

Söz düşmüşkən, onu da qeyd edək ki, Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin (AZCON Holding) tərkibində fəaliyyət göstərən "Azərbaycan Dəmir Yolları" QSC (ADY) Çinin "CRRC Ziyang Co., Ltd" şirkətindən 7 lokomotiv və ehtiyat hissələri almaq üçün 26 milyon dollar dəyərində saziş imzalayıb. Ümumiyyətlə, ADY texniki bazanın inkişafına xüsusi əhəmiyyət verir, yeni lokomotivlərin alınması da bununla bağlıdır. Qabaqcıl texnologiyalarla, innovativ dartı sistemləri ilə təchiz olunan və yüksək texniki göstəricilərə malik müasir AC50 tipli magistral dizel lokomotivi yüksək dartı gücü, daha böyük yanacaq tutumu və etibarlığı ilə seçilir. AC50 modeli Beynəlxalq Dəmir Yolları İttifaqı (UIC) tərəfindən müəyyən edilmiş IIIA səviyyəli ekoloji standartlara cavab verir. Bu, lokomotivdən xüsusi emissiya tələbləri olan ərazilərdə istifadə etməyə imkan verir.

Lokomotivlərin xüsusən "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi üzrə, eləcə də digər istiqamətlərdə artan yükdaşımalara xidmət etmək üçün istifadəsi nəzərdə tutulur. Azərbaycan ərazisindən keçən beynəlxalq dəhlizlər üzrə tranzit yüklərin davamlı artmasını nəzərə alan ADY növbəti mərhələdə əlavə 14 magistral lokomotiv almağı planlaşdırır.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Aşırı yağışlar imkan versə...

### Tovuz əkinçiləri bol məhsul gözləyirlər

**Kəndlərdə təsərrüfat işlərinin qızğın çağıdır. Belə bir vaxtda tovuzlular da hər gün sabah obaşdan əkin sahələrinə çıxır, bir də gün batanda evlərinə dönürlər. Havaların yağmurlu keçməsinə baxmayaraq, əkinçilər payızda əlləri boş qalmamaq üçün var qüvvələri ilə çalışırlar.**

Tovuzun aqrar sektorunda əkinçilik və heyvandarlıq aparıcı sahələr sayılır. Rayonda ən çox diqqət taxıl istehsalına yönəldilmişdir. Ötən mövsüm hər hektardan 33,3 sentner məhsul götürən fermerlər bu il əkin sahələrini bir qədər də artırmışlar. 12054 hektarda payızlıq taxıl səpilmişdir ki, onun da 10070 hektarı payızlıq buğda, 1984 hektarı payızlıq arpadır. Əkilmiş taxıl sahələrinin 7461 hektarı suvarılan, 4593 hektarı dəmyədir. 7325 hektarda birinci, 4714 hektarda ikinci vegetasiya suvarması aparılmışdır. Hazırda sahələrin suvarılması davam edir. Taxılçılar yetişmiş məhsula yüksək səviyyədə qulluq edirlər. Bu məqsədlə 9210 hektara yemləmə gübrəsi verilmişdir. Taxılın ziyanvericilərdən qorunması üçün də mübarizə tədbirləri aparılır. İndiyəcən 5230 hektarda belə tədbirlər görülmüşdür.

Rayonda iqtisadi cəhətdən gəlirli olan üzümçülüyə də maraq az deyil. İlk növbədə yerli şəraitə uyğun, məhsuldar üzüm sortlarına üstünlük verilir. Hazırda rayonda 1150 hektar üzüm bağı vardır ki, onun da 1070 hektarı barverəndir. Bağbanlar keçən il həmin bağların hər hektarından 284 sentner məhsul götürmüşlər. Bu, əvvəlki ildəkindən xeyli çoxdur. Cari mövsüm üzüm sahələrinin 980 hektarında suvarma, 1020 hektarında cərgələrarası şum, 1105 hektarda xəstəlik və ziyanvericilərə qarşı mübarizə işləri aparılmışdır. Ümumiyyətlə, payız-qış mövsümündə bağlarda aparılan aqrotexniki tədbirlər onu deməyə əsas verir ki, bu il də tovuzlular yüksək məhsul əldə edə biləcəklər.

Son illər ölkəmizdə kartofçuluğa maraq xeyli çoxalıb. Görünür, bu, həm də kartofun qiymətindəki bahalaşma ilə bağlıdır. Bu baxımdan, ölkədə kartofçuluğun daha çox inkişaf etdiyi Tovuz da istisna deyil. Keçən il rayon üzrə 5496 hektarda kartof əkən rayon sakinləri orta hesabla hər hektardan 298 sentner məhsul götürmüşlər. Faraş kartof istehsalına da böyük maraq var. Yəqin ki, bu faraş kartofun baha satılması ilə əlaqədardır. Hazırda rayonda kartof səpini davam edir. İndiyədək 3850 hektarda kartof əkilmişdir.

"Tovuz Aqrokompleks" MMC keçən il 102,3 hektarda "Marabel", "Kolomba", "Silvana", "Orkestra" və "Arizona" sortları əkmiş və bol məhsul götürmüşdür. Yeri gəlmişkən, qeyd edək ki, Tovuzun iri fermer təsərrüfatları yetişdirilmiş kartofu saxlamaq üçün müasir soyuducu anbarlar tikmişlər.

Artıq 8-ci ildir ki, rayonda barama istehsal edilir. Bir neçə gündür ki, rayon sakinləri barama istehsalına başlamışlar. Artıq 20 kənddə 20 kümçüyə 40 qutu baramaqurdu paylanmışdır. Kümçülər deyirlər ki, yem sarıdan problemləri yoxdur.

Tovuz meyvə və giləmeyvəsinin özgə dadı olur. Bu sahə həm də gəlirlidir. Son məlumata görə, rayonda 1559,1 hektar bağ vardır. Həmin bağların hamısında budama aparılmış, 1279 hektarında suvarma, 1322,2 hektarında cərgələrarası şum və 1320,8 hektarında xəstəlik və zərərvericilərə qarşı mübarizə işləri görülmüşdür. Bütün bunlarsa bol məhsula hesablanıb, təbii ki, aşırı yağışlar imkan versə.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Lənkəranda 2 körpələr evi-uşaq bağçası əsaslı təmirdən sonra istifadəyə verilib

**Lənkəran şəhər 3 və 7 saylı körpələr evi-uşaq bağçaları əsaslı təmirdən sonra istifadəyə verilib. Bununla bağlı tədbir keçirilib.**

Çıxış edən şəhər icra hakimiyyətinin başçısı Taleh Qaraşov bildirib ki, bağçaların Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102 illiyi ərəfəsində istifadəyə verilməsi rəmzi məna daşıyır. Ulu Öndərin "Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır" fikirlərini xatırladan ŞİH-in başçısı qeyd edib ki, müstəqil Azərbaycanda uşaqlara diqqət və qayğının dövlət siyasətinin prioritet istiqaməti kimi formalaşması Ümummilli Liderin adı ilə bağlıdır. "Dövlət uşaq siyasətinin başlıca prinsipləri uşaqların keyfiyyətli təhsil və müasir tələblərə cavab verən tibbi xidmətlərlə təmin edilməsi, hərtərəfli qayğıkeşliklə əhatə olunması, yüksək mənəvi dəyər-



lərə əsaslanan sosial mühitdə böyüməsi üçün zəruri şərait yaradılması, uşaqların şəxsiyyət və layiqli vətəndaş kimi formalaşmasıdır. Ölkəmizdə uşaqların maraq və mənafelərinin qorunmasına, onlara diqqət və qayğının göstərilməsinə hər zaman həssas yanaşılıb və Ulu Öndərin başlatdığı bu siyasət Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir", - deyə T.Qaraşov bildirib.

Lənkəran-Astara Regional Təhsil İdarəsinin müdiri B. Mehdiyev ölkəmizdə təhsil sahəsində görülən işlər barədə məlumat verib, dövlətin bu sahəyə ayırdığı xüsusi diqqətdən danışıb, körpələr evi-uşaq bağçalarında aparılan əsaslı təmir işlərinin də məhz bunun təzahürü olduğunu vurğulayıb.

Lənkəran şəhər 3 saylı uşaq körpələr evi-uşaq bağçası 90, 7 saylı körpələr evi-uşaq bağçası 225 yerlikdir. Bağçalarda təhlükəsizlik məqsədilə müşahidə kameraları quraşdırılıb. Azyaşlı sakinlərin zövqünə uyğun dizayn edilən bağçalar körpələrin rahatlığını, istirahətini və ilkin biliklərə yiyələnməsini təmin etmək üçün əlvan rəngli inventarla təchiz olunub, müxtəlif yaş qrupları üçün məşğələ və yataq otaqları, rəsm, idman və musiqi zalları, yeməkxana əsaslı təmir edilib, balacaların təlim-tərbiyəsi ilə məşğul olmaq, həmçinin onlarda bacarıq və istedadları aşkarlamaq üçün hərtərəfli şərait yaradılıb.

*"Azərbaycan"*

## Ənənəyə sadiq, yeniliyə açıq

**Masallı əhalisinin sayına görə ölkəmizin böyük rayonlarından sayılır. 227,7 min əhalisi olan rayonda 1 kvadrat kilometrə 318 nəfər düşür ki, bu da dünya üzrə əhali sıxlığından 7 dəfə çoxdur.**

Elmi cəhətdən əsaslandırılan yazılı mənbələrə görə, rayon ərazisində qədim insanlar 15-20 min il əvvəl yaşayıblar. Toponim kimi Masallının adı daha çox "məsəlli" - məsəl çəkilən yer mənasında izah olunur. Amma Masallı sözünün mosullu sözündən yarandığı, "masal" nəslinə mənsub olduğu da ehtimallar sırasındadır. Hətta "Tomris əfsanəsi"ndə adı keçən Massaget çarlığı ilə bağlı olduğunu da düşünənlər də var. Bütün hallarda rayon ərazisindəki Çaxırlı və Ərkivan qalaları, Balacatəpə, Xanıştəpə kurqanları, daş qoç fiquru, Mollaoba və Boradigah məscidləri, Mir Heydər ağa ocağı, Boradigah hamamı və s. abidələr ərazinin qədimliyindən soraq verir.

İnzibati ərazi kimi 1930-cu ildə təsis edilən Masallı Azərbaycana 230-dan çox elmlər doktoru və elmlər namizədi, 6 general, 100-ə yaxın yazıçı və şair, müxtəlif sahələrdə çalışan nüfuzlu şəxslər bəxş edib. 50 nəfərdən çox rayon sakini keçmiş SSRİ-nin ən ali mükafatlarına - Sosialist Əməyi Qəhrəmanı fəxri adına və "Lenin" ordeninə layiq görülüb. Eyni zamanda Masallı yeraltı və yerüstü sərvətləri ilə də zəngindir. Onun İsti suyu min bir dərdin dərmanıdır. Bu su yel, oynaq, əsəb, bir çox dəri, habelə mədə-bağırsaq xəstəliklərinin müalicəsində ən yaxşı çarə hesab olunur. Rayon ərazisindəki Qızılağac qoruğu 248 növ quş və 54 növ balığın "ev sahibi"dir.

Bütün bunlar Masallını həm də turizm regionuna çevirib. "Gülüstan", "Baba bulağı", "İsti su", "Cənnət bağı", "Dəmirağac", "Dəştvənd", "Olimp", "Nağıl dünyası" və digər istirahət mərkəzləri hər il minlərlə turisti öz qoynuna alır. Qonaqlar bu yerlərin təbiətinə valeh olurlar. Çox yox, 3-4 ay sonra qayıdanda neçə-neçə yeniliyə şahidlik edirlər. Hər sahədə dirçəliş, tərəqqi diqqət çəkir. Seybətin döngəsindən şəhərə girib Heydər Əliyev prospekti ilə irəlilədikcə yolun hər iki tərəfindəki müasir, yaraşıqlı binalar, səliqə-sahman könül açır, göz oxşayır. Onu da qeyd edək ki, sovet quruluşunun mövcud olduğu 70 il ərzində də Masallı inkişafı ilə regionda seçilib. Bunu danmaq, inkar etmək insafsızlıq olardı. Lakin müstəqillik dövründə, xüsusən 2004-cü ildən başlayaraq, daha doğrusu, regional inkişaf proqramlarının icrasından sonra yığılıb qalan problemlərin həllinə start verildi. Yollar təmir edildi, yeniləri çəkildi, məktəblər, xəstəxanalar, mədəniyyət ocaqları tikildi, fəaliyyətini dayandırmış müəssisələrin çoxu işə salındı, təzələri tikilib istifadəyə verildi, minlərlə yeni iş yerləri açıldı, ən əsası, işıq, qaz, su problemləri həll olundu və s.

Dövlət başçısının sərəncamı ilə yaradılan Masallı Sənaye Məhəlləsində hazırda müxtəlif adda məhsullar istehsal edilir. Məhəllədə şəhid ailələrinin üzvləri, qazilər və arzusu olan başqa gənclər üçün peşə-ixtisas kursları təşkil olunub. Onlar kursu başa vurduqdan sonra məhəllədəki müəssisələrdə işlə təmin edilirlər.

Masallıda mebel sənayesi inkişaf edib. Bu sahə üzrə rayonda 10-a yaxın müəssisə, fabrik və sex fəaliyyət göstərir. "EMBAWOOD" mebel fabrikinin Bakıda və digər bölgələrdə geniş satış şəbəkələri var. Fabrikin istehsal etdiyi yüksəkkeyfiyyətli məhsullar bir çox xarici ölkələrə də ixrac edilir.

Masallı həm də iri kənd təsərrüfatı rayonudur. Dövlətin dəstəyi ilə buradakı istixanalarda pomidor, xiyar, bibər və s. tərəvəz məhsulları yetişdirilərək daxili bazarlarla bərabər, xaricə də göndərilir. Rayonda çayçılığın, sitrus meyvəçiliyinin, çəltikçiliyin, baramaçılığın, tərəvəz-



çiliyin, tütünçülüyün inkişafı üçün ardıcıl tədbirlər həyata keçirilir. Yaxşı gəlir gətirdiyindən fermerlər kartof, çiyələk yetişdirilməsinə də maraq göstərirlər.

Keçən ilin payızında 7 min 464 hektarda buğda, 2 min 967 hektarda arpa, 2 min 987 hektarda vələmir əkilmişdir. Əkinçilər hazırda taxıl biçininə hazırlaşırlar. Rayon üzrə 2 min 500 hektardan çox sahədə yazlıq bitkilərin əkini aparılmışdır ki, bunun da 800 hektarı kartof, 50 hektarı xiyar, 100 hektarı yemiş, 40 hektarı badımcan, 70 hektarı soğan, 80 hektarı sarımsaq, 200 hektarı dənli-paxlalı və digər bitkilərdir. Çəltik əkini aparılması nəzərdə tutulan 35 hektarda lazımi işlər görülür.

Heyvandarlığa gəldikdə, rayon ərazisində ayrı-ayrı fermerlər tərəfindən 73 min baş qaramal, 96 min baş davar və 532 min baş ev quşları saxlanılır. Keçən il süni mayalanma yolu ilə 1827, cari ilin birinci rübündə isə 401 baş sağlam buzov alınmışdır.

Barama istehsalı da ildən-ilə artır. Bunun üçün Çin Xalq Respublikasından 60 min tut tingi gətirilmişdir. Nəticədə, məsələn, əgər 2007-ci ildə rayonda 469 kiloqram barama istehsal olunmuşdusa, ötən il bu göstərici 3 min 886 kiloqrama çatmışdır.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Kümçülər iş başında

### Qazaxda cari ilin barama istehsalına başlanıb

**Ölkənin hər yerində olduğu kimi, Qazax rayonunda da baramaçılığın keçmiş şöhrətinin qaytarılması istiqamətində əməli işlər görülür, o cümlədən ipəkçiliyin müasir infrastrukturu yaradılır, yeni tut bağları salınır.**

Artıq bir neçə gündür ki, Qazax kümçüləri builki barama mövsümünə başlamışlar. Qazax Dövlət Aqrar İnkişaf Mərkəzi Qax Damazlıq İpəkçilik stansiyasından 30 qutu ipəkqurdu toxumu gətirərək kümçülərə paylamışdır.

Cari mövsüm qazaxlı kümçülər 1200 kiloqram yaş barama istehsal etməyi nəzərdə tutmuşlar. İkinci Şıxlı, Birinci Şıxlı, Yuxarı Salahlı, Aslanbəyli, Kəmərli, Aşağı Salahlı, Orta Salahlı, Kosalar, Hüseynbəyli, Çaylı, Daş Salahlı, Xanlıqlar, Alpout, Dəmirçilər, Cəfərli kəndlərində kümçülərə ipəkqurdu toxumu artıq təhvil verilmişdir. Onlar ipəkqurdu toxumunu yetişdirmək üçün əvvəlcədən tələb olunan bütün hazırlıq işlərini başa çatdırmışlar. Kümxanalarda xəstəlik və zərərvericilərə qarşı dezinfeksiya işləri aparılmış, otaqlar lazımi istiliklə, eləcə də yem bazası ilə təmin olunmuşdur.

*S.ƏLİYEV,*
*"Azərbaycan"*

### 200 qutu ipəkqurdu toxumu paylanıb

**Qədim ənənələrə malik, tarix və mədəniyyətimizin bir parçası olan ipəkçiliyin bərpasının kənd əhalisinin rifah halının yaxşılaşdırılmasında və məşğulluğunun təmin olunmasında xüsusi əhəmiyyəti var.**

"Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq, ölkədə ipəkçiliyin müasir infrastrukturunun yaradılması, baramaçılığın yem bazasının formalaşdırılması, barama toxumçuluğunun təşkili istiqamətində tədbirlər həyata keçirilir. Artıq baramaçılıq kənd təsərrüfatının iqtisadi cəhətdən səmərəli istehsal sahələrindən biri kimi inkişaf edir.

Bu günlər Lənkəran Dövlət Aqrar İnkişaf Mərkəzi tərəfindən kümçülərə ipəkqurdu sənaye toxumları paylanılıb. Qeyd edək ki, ötən il Lənkəranda 8 tondan çox yaş barama tədarük olunaraq təhvil verilib ki, bu da ölkə üzrə ən yüksək göstəricilərdən biridir.

Cari mövsümdə də baramaçılıq sahəsində qabaqcıl təcrübə və ənənələrə malik kümçülər müəyyənləşdirilib, tut ipəkqurdularının hər qutusundan məhsuldarlığın yüksəldilməsi hesabına barama istehsalının artımına nail olunması üçün bütün hazırlıq işləri tamamlanıb, kümxanalar aqrozootexniki tələblərə uyğun hazırlanıb, dezinfeksiya işləri aparılıb, ipəkqurduların düzgün bəslənməsi, xəstəliklərin qarşısının alınması istiqamətində qabaqlayıcı tədbirlərin görülməsi üçün məhsul istehsalçıları maarifləndirici təlimlərə cəlb olunublar.

1 şəhər, 7 qəsəbə və 33 kənddə 45 kümçüyə ümumilikdə 200 qutu ipəkqurdu sənaye toxumu paylanılıb.

*S.CAVADOV,*
*"Azərbaycan"*

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 19 may (Bazar ertəsi günü) tarixli 184-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Düşənbə, 18 şabanül-müəzzəm sənə 1337.
19 mayıs 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

## ELAN

1919 mayıs 19-da, bazar ertəsi saat 11-də Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan olunur.

## HÖKUMƏT TEATROSUNDA AXŞAM TAMAŞASI

Bu mövsümdə axırıncı olaraq
opera və operetta tamaşaları
Zülfüqar bəy və
Üzeyir bəy Hacıbəyli
Qardaşları Müdiriyyəti
Düşənbə günü şabanül-müəzzəm
ayının 18-ində (mayısın 19-unda)
1337 – 1919-cu ildə
**"Əsli və Kərəm" operası**
səşənbə günü şabanın 19-unda
(mayısın 20-sində) 1337-1919-cu ildə
**"O olmasın bu olsun" operettası**
mövqeyi-tamaşaya qoyulacaqdır.
Balet, qızlar və oğlanlar xoru
və hal-hazırımıza dair
**"Meyxana".**
Biletlər imdidən satılmaqdadır.
Tamaşa başlanacaqdır
axşam saat 8-in yarısında.

*Müdir:*
*Zülfüqar bəy Hacıbəyli*

## İNDİ BAŞA DÜŞÜRLƏR

İstiqlalımıza qarşı qurulmuş olan zabastovka [tətil] hökumət və millətimizin səy və hümməti ilə yatırıldı. İstiqlalımız düşmənləri olan zabastovkaçılar basıldılar. Özləri də biabırçılıqla basıldılar. Biizzü bədnam [hörmətsiz, xar, rüsvay] oldular. Hörmətdən və gözdən düşdülər və hər bir nüfuzlarını itirdilər. Deməli, xain və xasirlərə [uduzmuş, ziyana uğramışlara] layiq olan mənəvi cəzalarına çatdılar.

Bu biabırçılığın şiddətini azaltmaq və itmiş nüfuzlarını geri qaytarmaq kimi təşəbbüslərə girişməyin müvəffəqiyyət-pəzir ola bilməyəcəyini dərk etmiş olan zabastovkaçılar – "vahid cəbhə" qurulduqdan sonra – partiya-partiya olub, bir-birlərindən ayrılmağa tələsdilər. Tələsdilər ki, məğlubiyyətlərinin təqsirini bir-birlərinin üzərinə atmaqla hər kəs öz adını təmizə çıxartsın.

İştə, iki gün əvvəl yığılmış olan "Raboçi Konfrans"da [Fəhlə Konfransında] bu məğlubiyyət məsələsi müzakirə edilərkən, bolşeviklər menşevikləri və bunlar da onları ittiham etməyə başlamışdırlar.

Təqsirin ən böyüyünü və məsuliyyətin ən ağırını türk sosialistlər firqəsi olan "Hümmət" üzərinə yıxıbdırlar və deyibdirlər ki, əgər "Hümmət" hümmət eyləsəymiş, zabastovka yatırılmazmış.

"Hümmət"i müdafiə etmək üçün güc və bəla ilə söz ala bilmiş olan Əhməd Cövdət [Pepinov] əfəndinin "müdafiənamə"sindən görünür ki, daşnaklardan dönmə bolşeviklər tərəfindən qurulmuş olan bu zabastovka – necə ki, biz kərratla [dəfələrlə] demişik və necə ki, türk füqərayi-kasibəsi [proletariatı] özü də hiss və dərk etdi – məhz Azərbaycan türklərinin istiqlalına qarşı qurulan bir kələk imiş.

Safdərun [sadəlövh] "hümmət"çilər səy edirmişlər ki, zabastovkanı Azərbaycan Hökumətinə qarşı deyil, ingilis politikası əleyhinə çevirsinlər. Hökumətimizin vaxtilə demiş olduğu sözlərini – ki, lazım və mümkün olduğu halda Həştərxana neft göndərərik – əldə dəstaviz edib də Həştərxan ilə mal mübadiləsinə mane olanlar yalnız bir ingilislərdir deyə çalışırlarmış ki, zabastovka məhz siyasi bir rəngdə olub, ingilis siyasətinə qarşı bir protesto olsun.

Lakin hiyləgər daşnak bolşeviklərin əsl məqsədləri mal mübadiləsi məsələsi olmayıb da Azərbaycan Hökumətini dağıtmaq və Azərbaycan türklərinin istiqlalını məhv etmək olduğundan, safdərun sosialistlərimizin sözlərinə məhəlgüzar olmayıb öz dediklərində durubdurlar. Amma sonradan özlərinin basıldığını görüb, təqsiri genə müsəlman sosialistlərinin üzərinə atıb, onları "proletariya" dedikləri cəmiyyət gözündə bədnam etməklə bir güllə ilə iki dovşan vururlar. Əvvəla, biabırçılıqlarının təqsirini özlərindən götürür və saniyən [ikincisi] türk sosialistlərini "xəyanət"lə ittiham edirlər...

Daşnak bolşeviklərin və daşnak menşeviklərin bu cürə hiylələrini, ürəklərinin xainliklərini və ümum türklüyə – türk füqərayi-kasibəsi və türk sosialistləri də buraya daxil olmaq şərti ilə – düşmən kəsildiklərini biz çoxdan bilirdik. Mart və martdan sentyabra qədər davam edən faciələr bu əhvalatı ümum türklüyə və baxüsus Azərbaycan türklərinə açıb aşkar etdi. Təəccüb ediləcək hal burası idi ki, bu aşkar şeyi hamı görürdüsə də, safdərun sosialistlərimiz görə bilməyib, sosializm fikrinə də və istiqlalımıza da düşmən olan və "maska"lar altında işləyənlərə etibar edib, onlarla əlbir olmağı özlərinə rəva görürdülər.

Əlbəttə, əlbir olmaq, dilbir [həmfikir; ürəyi bir] olmaq deyildir və biz, haşa, türk sosialistlərini xainlərlə dilbir olmaqda məznun [şübhəli, müqəssir] görənlərdən deyilik. Parlamanımız güşadında [açılışında] [Əkbər ağa] Şeyxülislamov əfəndinin dili ilə, "Azərbaycan türklərinin istiqlalını müdafiə yolunda birinci cərgədə biz sosialistləri görərsiniz!" və bu zabastovka günləri Əhməd Cövdət [Pepinov] və [Səməd ağa] Ağamalıoğlu əfəndilərin ağzı ilə, "Biz istiqlalımızı sağdan və soldan da müdafiəyə hazırız" deyən sosialistlərimizi, bu, istiqlalımızı sarsıtmaq və məhv etmək istəyən daşnakdan dönmə "sosialist"lərlə dilbirlikdə ittiham etməyə haqqımız yoxdur.

Təəccübləndiyimiz əhval bunların onlarla əlbir olmağı və bu yalançılara inanmağı və sosializm maskası altında gizlənən xain sifətləri görməməkləri idi.

İndi şükür olsun ki, bu zabastovka xainlərin maskasını yırtdı və əsil sifətlərini bizim sosialistlərə göstərməklə bunları nifrətləndirdi və zənn edirik ki, gözlərini açdı.

Türk sosialistlərinin naşiri-əfkarı [fikirlərini yayan orqanı] olan "Zarya" qəzetəsi həman xainlər xüsusunda dünənki baş məqaləsində deyir ki:

*"Bu adamlar yalan deməyi, camaatı aldatmağı və iftiralara məşğul olmağı vicdanlarına rəva görürlər. Bu xüsusda nasional bolşeviklər (yəni daşnakdan dönmələr) və sosial bolşeviklər dilbirdirlər... Prezidium seçmək işində Mikoyan utanmaya-utanmaya kələklər qurub Əbilovu və Pepinovu rədd edib, firqənin başqa əzalarını da [üzvlərini də] işə qəbul etmədi... O adam ki, hələ dünənləri daşnak partiyası cərgəsində idi, bu gün üzünə kommunist (bolşevik) maskası geyib türk sosialist firqəsinin başçılarını fəhlələr qarşısında bədnam etmək istəyir. Bu yalançıların və maska geyənlərin hamısına bizim bir cavabımız var: Murdar əllərinizi geri çəkin! Siz, fəhlələr və fəhlə rəhbərləri arasında provokasiyalar düzəldə bilməzsiniz. Türk füqərayi-kasibəsi ağır ibrət dostları vasitəsilə öz maskalı "dost"larını yaxşıca tanıdı..."*

Bu əhvalatdan və bu sözlərdən sonra biz də ümidvar olmalıyıq ki, türk füqərayi-kasibəsinin martdan bəri gözəlcə tanımış olduğu "mehriban dost"larını türk sosialistləri gec də olsa bu gündən tanıyıb və tanıyanları da tanımayanlarına tanıdıb, xain və xasirlərlə daha bundan sonra əlbir olmaz və onların istiqlalımıza qarşı qurmaq istəyəcəkləri zabastovkaları yatırtmaqda türk füqərayi-kasibəsinə köməklər edərlər.

*Hacıbəyli Üzeyir*

## TELEQRAF XƏBƏRLƏRİ

*(Bolşevik bürosundan)*

**Romada inqilab gözlənir**

Mayın 11-ində Amerika simsiz teleqrafı [ilə] Liona xəbər verirlər ki, Romadan qayıtmış olan Amerika səfiri Vilsona demişdir ki, İtaliya əhvalı böhranlıdır. Məmləkət inqilab ərəfəsindədir.

**Rusiya məsələsi**

Mayın 10-unda Parisdən xəbər verirlər ki, qəti surətdə məlum olmuşdur ki, Sülh Konfransı Rusiya məsələsinə baxmayacaqdır. Rusiya məsələsinin həlli, hərgah ittifaq düşərsə, Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] vagüzar ediləcəkdir [tapşırılacaqdır].

**Bolşevik ordusundan qaçmaq**

Mayın 11-ində Xarkovdan xəbər verirlər ki, "Donskiye vedomosti" qəzetəsində Don ordusu komandanı general [İvan Daniloviç] Popovun bir məktubu dərc edilmişdir. Bu məktubda deyilir ki, zabitlərə və əsgərlikdən qaçanlara şiddətli tənbehlər ediləcəkdir. Çünki zabitlərin və əsgərlərin ordudan qaçması adi bir şey olmuşdur.

**Amerika Məclisi-Əyanında Rusiya məsələsi**

Vaşinqtondan xəbər verirlər ki, Məclisi-Əyanda Demokrat firqəsi nümayəndəsi Mak-Kumber ondan əvvəl danışan natiqə etiraz edib demişdir ki, Müttəfiqlərin və Amerikanın vəzifəsi adlarını bolşevik qoyan quldur dəstəsini dağıtmaqdan ötrü tezliklə Rusiyaya kifayət qədəri ordu göndərməkdir, tainki Rusiya xalqı özü üçün qanuni bir hökumət təşkil etsin.

**Çörçill və Pişon**

Cenevrədən teleqrafla xəbər verirlər ki, Çörçill Cənubi Rusiyada tədbirlər görülməsi üçün Pişon ilə teleqrafən müşavirədə bulunmuşdur.

## SÜLH ƏTRAFINDA

**Almaniya və sülh şərtnaməsi**

Berlin Şurasının 8 may tarixli iclasında bitərəf sosialistlər Versal sülh şəraiti layihəsini qeyri-məqbul görərək, ümumi sülhü qeyri-mümkün qılmaqla təhdid edən təcavüzkaranə sülhnaməni rədd etmək üçün bütün cahan füqərayi-kasibəsinin müavinətinə güvənir.

Almaniyanın hər bir tərəfindən protestolar gəlməkdədir. Ələlxüsus Şərqi və Qərbi Prussiya ilə Sileziya əhalisinin həyəcanı aşkara müşahidə edilməkdədir. Müstəmləkələrin və ticarət flotunun Almaniyadan alınması məsələsi münasibətilə Hamburqda şiddətli qələyan hökm-fərmadır [iğtişaş hökm sürməkdədir]. Fəhlələr arasında narazılıq artmaqdadır. İndiki hökumət istefa verərsə, ola bilər ki, bitərəflərin hökuməti iş başına keçib sülhü imza etsin. Çünki bu hökumət bütün cahan inqilabına ümidvardır.

Breslau Xalq Şurası Sileziya əhalisinə xitabən böylə bir müraciətnamə buraxmışdır:

*"Vətən ciddi təhlükə ilə təhdid edilməkdədir. Düşmənlər eşidilməmiş tələbat təqdim etmişlərdir. Onlar bunu bilməlidir ki, bu sülh möhkəm olmayıb Sileziyadan ötrü fəlakətlidir. Sileziya əhalisi gərəkdir ki, dostluq və mərdanəliklə var qüvvələri ilə hökuməti müdafiə edib, Almaniya hökumətinin vətənindən lazımi oblastlarının ayrılmasına imkan verməz. Kəndlərdə olan kişilər birləşiniz. Bütün dünyaya uca səslə bildiriniz ki, siz böylə sülh şəraitinə tabe olmayırsınız."*

Sileziya yuxarısında əhali arasında qələyan olduğuna görə sərhəd qaraqollarının vürudu [qarovulların gəlişi] münasibətilə böyük nümayişlər icra edilmişdir. Əhali tələb etmişdir ki, onları silahlandırsınlar. Çünki Sileziya əhalisi heç bir şərait üzrə məhv olmaq istəmir və sülh şəraitindən [şərtlərindən] imtina etməyi tələb edir.

Təhdid edən həlakət mövcibincə [məhv olmaq təhlükəsinə görə], alman xalqının həyəcanı gəldikcə şiddətlənməkdədir. Təcavüzata mümaniət [maneçilik] etmək qərarı o qədər müəyyəndir ki, həyəcan qalxacağını mümkün ədd [hesab] etməlidir.

Almaniyanın hər bir tərəfindən böylə bəyanat gəlməkdədir:

*"Hökumət Qərbi Prussiya əhalisinin əhvalından xəbərdar edilmişdir. Almaniya əhalisi bilməlidir ki, biz tezliklə həlak olarıq, amma özümüzü hakim və qisas axtaran polyakların əlinə verməri k."*

Hamı bəyannamələrdə bu cür sülhün imza edilməməsi tələbatı qoyulmuşdur.

Almaniya Milli Şurası iclasında bəyanat verilmişdir. Bu bəyanatın axırı bütün cahan füqərayi-kasibəsinə müraciətlə qurtarır. Burada deyilir ki, bütün cahan sosialist inqilabı vasitəsilə Rusiya Şura Cümhuriyyəti ilə bərabər hamı millətlərin birliyini vücuda gətirməlidir.

Prussiya Landtaqının [Parlamentinin] mayın 8-də vaqe olan iclasında sədarət edən Hirş sülh şəraitini müzakirə edərək demişdir ki:

*"Bu şəraitdə ağıl kəsən və ədalətli sülh nişanələri tapmaq mümkün deyildir. Bu cür sülh şəraiti vücuda gətirildiyi təqdirdə, bizim vətənimiz və bütün Yevropa üçün bu ancaq gözyaşı və qan dəryası olacaqdır."*

Sədrin müavini Kitsel vəkillərin bir çoxu namından [adından] böylə demişdir:

*"Sülh şəraitinə baxdıqda çətin inanmaq olar ki, ən şiddətli düşmənin intiqam atəşi bizim düşmənlərimiz tərəfindən təqdim edilən tələbat kimi olsun. Biz qəti protesto ilə bu şərait əleyhinəyiz. Çünki qoyulan tələbat sülhdən ötrü mütarikə əqd edildiyi [atəşkəs imzalandığı] zaman biz qəbul etdiyimiz əsaslardan nahəmvar və o əsaslardan imtina edici surətdə təcavüzkaranədir. Bu şərait düşmən hökumətləri nümayəndələrinin icbari və xələldar edilməz [pozulmaz] ədd [hesab] etdikləri əsaslara da həmçinin ziddir. Bu, ədalət qarşısına cinayətdir."*

**Almaniya Milli Şurası**

Almaniya Milli Şurası yekşənbə [bazar] günü vaqe olan iclasda bu qərara gəlmişdir ki, sülh şəraiti halhazırda Versalda təqdim edildiyi surətlə qəbul ediləmməz və əməl olunammaz bir haldadır.

Demokratiya firqəsi nəşr etdiyi [yaydığı] dəvətnaməsində kəskin bir surətdə o həqiqəti qeyd edir ki, bu sülh şəraiti mütarikə əqd edildiyi [atəşkəs imzalandığı] zaman verilən sözü xələldar edir [pozur]. Bu şəraitdə ticarət azadlığı üçün vəd edilən ixtiyarlar yoxdur və ədalət yoxdur.

Almaniya Ticarət İttifaqının məşhur başçısı Legin Versaldan Berlinə azim olmuşdur [yola düşmüşdür]. Məlumat vardır ki, vəzirlərdən Gisberts və Landsberq həmçinin Berlinə əzimət edib [gedib] müşavirələrdə iştirak edəcəklərdir.

- Berlindən alınan teleqrafların hamısında xəbər verilir ki, Almaniya hökuməti Müttəfiqlərə cavab vermək qərarını qəbul etmişdir. Berlində və Frankfurtda birja bağlanmışdır. Tamaşaxanalar məmnu [qadağan] edilib, teatrolar bir həftə müddətinə qapanmışdır. Şeydemanın və Ebertin tərzi-hərəkatı hamı üçün nümuneyi-ibrət olmuşdur. Şeydeman düşənbə [bazar ertəsi] günü Milli Şurada nitq irad edəcəkdir [nitq söyləyəcəkdir]. Gözlənir ki, hökumət üzvlərinin bir hissəsi Almaniya nəfinə [xeyrinə] olaraq başqa dövlətlərə icrayi-təsir [təsir göstərmək] üçün sülh şəraitinin qəbul edilməsi əleyhinə protesto etsinlər. Almanlar Sülh Konfransına özləri bir sülh şərtnaməsi təqdim edəcəklər.

**Sülh müahidənaməsi haqqında Almaniyanın notası**

Almaniyadan alınan notada deyilir ki, sülh müahidənaməsi [sazişi] Vilson məramnaməsinin 14 maddəsinə müxalifdir. Notada şifahi müzakirat həlli haqqında qəti tələblər və təkliflər vardır. Almaniya mətbuatı deyir ki, bu cür sülh imza ediləmməz. Mətbuat Almaniyaya təklif edir ki, bolşeviklərlə ittifaq bağlansın.

- Sülh müahidəsinə görə Almaniyanın Toqo və Kamerun müstəmləkəsi Fransaya keçir. Buna fransız və ingilislər arasında razılıq əmələ gəlmişdir. Bu etilaf [razılıq] ilə Fransa və İngiltərə sərhədi təyin edilmişdir. Toqo müstəmləkəsi xüsusunda hələlik danışıq qurtarmamışdır.

**Rantsaunun Klemansoya məktubu**

Almaniya sülh nümayəndəsi Brokdorf-Rantsau Klemansoya bir məktub yazmışdır ki, sülh şərtnaməsinin bəzi maddələri alman milləti tərəfindən qəbul edilə bilməz, mütarikə [atəşkəs] əsaslarına ziddir. Klemanso Müttəfiqlər namından bəyan etmişdir ki, bu məsələnin müzakirə edilməsinə heç bir vəchlə müsaidə verəmməzlər. Sülh Konfransı tərəfindən tərtib verilən şərtnamə öyləcə qalmalıdır. Sülh Konfransı da heç bir vaxtda mütarikə əsaslarını nəzərdən qaçırmamışdır. Brokdorf-Rantsau ikinci məktubunda təəccüblə deyir ki, Almaniyaya o sülh müahidəsini imzalamağı təklif edirlər ki, Cəmiyyəti-Əqvam məsələsi oraya daxil edildiyi halda Almaniyanın kəndisini Cəmiyyəti-Əqvama daxil etməmişlərdir. Nəhayət Rantsau Almaniyanın təklifini bildirmişdir. Klemanso demişdir ki, nemeslərin tələbatı xüsusi komissiyaya göndəriləcəkdir. Qaldı Cəmiyyəti-Əqvam məsələsinə, oraya yeni üzvlər qəbul edilir. Bu da layihədə qeyd edilmişdir.

- Beş nəfər Xariciyyə nazirləri Avstriya sərhədini təyin etmişlər.

## QƏZETƏLƏRDƏN

**Trabzonda Amerika əsgərləri**

Erməni "Aşxatavor" qəzetəsinin mövsuq [etibarlı] mənbədən aldığı xəbərlərə görə, italyanların Qafqaziyaya gəlmələri ilə bərabər, Amerika əsgərləri Trabzonda quruya çıxmışlardır.

**Təbriz-Tiflis arasında qatar**

İran ordusu komandanı Sipəhsalari-əzəmin istidasına [xahişinə] görə, İngiltərə konsulu hər həftə Təbrizdən Tiflisə bir ədəd dəmiryol qatarı yola salınmasına razı olmuşdur.

**Təbrizdə baş tutmayan bir üsyan**

"Aşxatavor" qəzetəsinin "Təbriz" qəzetəsindən aldığı məlumata görə, guya bir dəstə adam Təbrizdə üsyan qaldırmaq istəyirmiş. Mirzəbala Ağa nam [adlı] bir nəfər həbs edilmişdir. Bu adam yoldaşlarını ələ verməmək üçün siyahını udmaq istəmişdir. Candarmalar bu siyahını onun ağzından çıxarıb özünü də döymüşlər.

**Aleksandrovsk fortunun bolşeviklər tərəfindən alınması**

"Zarya" qəzetəsi yazır ki, müxbirimizin İngiltərə polkovniki Braundan aldığı məlumata görə, Xəzər dənizi kənarında olan Aleksandrovsk fortu bolşeviklər tərəfindən işğal edilmişdir. Quruya çıxan əsgərlərin miqdarı məlum deyildir, 8 minə qədər rəvayət olunur. Bu qərar üzrə Quryev yolu kəsilib, bolşevik əsgərlərinin hərəkat dairəsi genişlənmişdir.

**Suriya və Ermənistan mandatları**

"Caqatamart" erməni qəzetəsi mayın 2-sindən xəbər verir ki, "Tan" qəzetəsinin və Fransa mətbuatının verdiyi məlumata nəzərən, Fransa ilə Cəmahiri-Müttəfiqə [Birləşmiş Ştatlar] arasında mandatlar barəsində saziş əmələ gəlmişdir. Fransa Aleppo [Hələb] və İsgəndərun daxil edilməklə bərabər Suriya mandatını, Amerika isə Ermənistan mandatını götürəcəkdir.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

- Rəisi-vükəlanın [Baş nazirin] Ermənistana neft, darı, benzin və ammiak [ammonyak] aparmaq barəsindəki məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Ermənistan ehtiyacatından ötrü mübadiləsiz 10 vaqon neft, bir vaqon benzin buraxılsın. Darı məsələsi isə Ticarət və Sənaye Nəzarətinə verilsin.

- Maliyyə nazirinin Azərbaycan Kazyonnaya Palatası [Xəzinə Palatası] dəftərxanası təşkilindən ötrü 75 min manat buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

20 milyon fonddan istənilən məbləğ buraxılsın.

- Xariciyyə nazirinin Azərbaycanın məmaliki-əcnəbiyyədəki [xarici ölkələrdəki] siyasi nümayəndələri üçün 750 min manat buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Maliyyə Nəzarətinə tapşırılsın ki, Parlamana pişnihad [təqdim] ediləcək Xariciyyə Nəzarəti smetasının 1/12 hissəsini Xariciyyə Nəzarətinə buraxsın.

- Maliyyə nazirinin Azərbaycanın dəniz səvahilindəki [sahillərindəki] gəmilərdən vergi almaq haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə [bəyənilməklə], təsdiq üçün Məclisi-Məbusana idxalı tapşırılsın.

- Maliyyə nazirinin gömrükxanalar anbarlarında satılan malların vergisini artırmaq haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə, Məclisi-Məbusana idxalı tapşırılsın.

- Maliyyə nazirinin gömrükxanalar və dəftərxana vergisini artırmaq haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə, təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın.

- Daxiliyə nazirinin Fəhlə Tətil Komisyonu haqqındakı məruzəsindən sonra qət edilmişdir:

1) Fəhlələr tərəfindən elan edilmiş tətilin siyasi olduğunu təsdiq etməli.

2) Rəisi-vükəlaya [Baş nazirə] tətili təsviyə üçün tövqifat [həbslər] və Azərbaycan dairəsindən çıxarmağadək tam bir ixtiyar verilsin. Rəisi-vükəla Azərbaycan dövlətinin əsasına zərər yetirə biləcək hər kəslə böylə müamilədə [rəftarda] buluna biləcəkdir.

3) Tətil günləri üçün fəhlələrə məvacib verməməli.

4) Məsai Nəzarətinə [Əmək Nazirliyinə] tapşırılsın ki, müəssisədarlar və fəhlə nümayəndələri ilə bərabər fəhlələrin iqtisadi cəhətlərinin həqiqisini müzakirə etsin və nəticəni hökumətə məlum etsin.

5) Rəisi-vükəlaya fəhlələrə lazımi elanı elam etmək [bildirmək] tapşırılsın.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] naziri fəqir qaçqınlar üçün dəmiryollarında 50 faiz güzəşt etmək barəsində 10 mayısda Vükəla Şurasına [Nazirlər Kabinetinə] bir məruzə vermişdir. Məruzə qəbul edilmişdir. Biletlərin mabaqi [qalan] pulu hər ayın axırında Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti tərəfindən veriləcəkdir.

- Baş Fabrika müfəttişi Məsai Nəzarətinə [Əmək Nazirliyinə] məlum etmişdir ki, Tağıyev fabrikasının tətil etmiş 1500 fəhləsindən fəqət [ancaq] 524-ü işə başlamışdır. Mabaqi [qalan] 986 nəfəri tətildə davam edərək, həbs edilmiş Mahmud Mahmudov və Hüseynqulu Muxtar oğlunun buraxılmasını tələb edir.

- Pitoyev mədənlərinin fəhlələrindən 10 nəfəri Məsai Nəzarətinə müraciətlə məlum etmişdir ki, onlar tartalçı və maslyonçu olduqları halda, onlara bir mədəndən o biri mədənə dallarında ağır əşya daşımağı təklif etdikdə onlar imtina etmişlərdir. Bundan ötrü də onları xidmətlərindən çıxarmaq istəyirlər. Fəhlələr rica etmişlər ki, lazımi binagüzarlıqda bulunulsun [sərəncam verilsin].

- Qaçqınların əhvalını nəzərə alaraq Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] naziri Ərzaq Nəzarəti ilə etilafa [razılığa] girmişdir ki, qaçqınlar üçün təcili surətdə bez və ərzaq buraxılsın.

- Qazax qəzasında axır vaxtlaradək Ermənistana qaçaq taxıl satıldığından, ərzaq qiyməti ziyadəsincə qalxmışdır. Binaənileyh [ona görə], qaçqınlar üçün taxıl almaq mümkün deyildir. Halbuki Qazağın öz qaçqınları ərzaqsız qalmışlar. Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti həman qaçqınlar üçün Cavanşir qəzasının Bərdə dairəsindən taxıl almağa şüru etmişdir [başlamışdır].

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti tərəfindən 9-cu müfəttişlik dairəsindəki böyüklər üçün darüləcəzə [qocalar evi] nizamnaməsini təsdiq etmişdir.

## MÜSAHİBƏ

**- 2 -**

Keçən nömrəmizdə Ticarət və Sənaye Nəzarətində mühüm bir mövqe tutan bir zat ilə mühərririmizin müsahibəsini dərc etmişdik. Bu gün müsahibənin ən mühüm qismini təşkil edən 3-cü məsələdən [bəhs] edəlim.

Müsahibənin axırında Azərbaycanın başqa məmləkətlərlə alış-veriş etməsindən bəhs açılaraq, müsahib əfəndinin bəyanatından məlum olmuşdur:

Qarelərə [oxuculara] məlum olduğu üzrə, Gürcüstan ilə Azərbaycan arasında bağlanmış ticarət müqavilənaməsi kimi Ermənistan ilə Azərbaycan ticarəti haqqında da bir müqavilənamə hazırlanır. Yaxın zamanda həman müqavilənamə təsdiq üçün Məclisi-Məbusana təqdim ediləcəkdir.

Bundan əlavə, Azərbaycanın neftini, neft məhsulatı, pambıq, ipək və sairə kimi xammalını əcnəbi məmləkətlərə aparmaq və külliyyətli mal mübadiləsi hasil etmək üçün Sənaye Nəzarəti bir layihə hazırlayır. Həman layihəyə görə, başda Nəzarətin öz lazım bildiyi adamlar olmaq üzrə bir nəql-həml [yüklərin daşınması] əməliyyatı təşkil edilməlidir. Bir təşkilat Azərbaycanın mallarını əcnəbi məmləkətlərə, xüsusən Avropaya göndərərək, əvəzində bəzi mallar gətirməklə bərabər, ibtida [başlanğıcda] kiçik miqyasda olsa da kibrit (spiçka) və şüşə mal zavodlarına və yun parça toxuyan fabrikaya lazım olan malını və sair ləvazimat gətirəcəklərdir. Bu surətlə ticarət münasibatı nəticəsində Azərbaycanın daxilində bir çox zavodlar, fabrikalar açılmasına təşəbbüs ediləcəkdir ki, tainki camaatımız hər şeydə özgələrə möhtac olmayıb, lazım gələn şeylər mümkün qədər öz vətənimizdə istehsal və emal edilsin. Şübhəsiz ki, böylə olan surətdə, həm ticarət artar, həm mal çoxalmaqla rəqabət nəticəsində mal ucuzlar, həm də pulun kursu qalxar. Bunların həpsinin də məmləkətə nə qədər faydası olduğu aşkardır. Bunu da əlavə etməliyiz ki, Nəzarət əcnəbi məmləkətlərə göndərilən malların mümaniətsiz [maneəsiz] aparılması üçün tədbirlər görüb, nəql və həmli [mal daşınmasını] təmin edəcəkdir.

Yəqindir ki, bu işlərin həpsini hökumət öz əli ilə etməyib, ticarəti inhisar altına almayacaqdır. Ticarət işlərində xüsusi mütəşəbbislərə, camaatın özünə geniş sərbəstlik və hətta dövlət tərəfindən kömək veriləcəkdir. Böylə ki, məsələn, nəql və həml işlərində, ələlxüsus fabrika və zavod açmaqda camaat nə qədər təşəbbüsatda bulunsa, hökumət müzahirət [köməklik] göstərəcəkdir. Xüsusən böylə böyük işlər tək-tək adamların işi olmadığından, şirkətlər, səhmdaran [səhmdarlar] cəmiyyətləri və sairləri təsisinə çox səy ediləcəkdir. Camaatımız böylə şirkət və cəmiyyətlər təsisinə rəğbət göstərərsə, hökumət həmişə müzahirətdə bulunacaqdır.

Bunlardan əlavə, Azərbaycanın qənd zavoduna da əşəddi-ehtiyacı [şiddətli ehtiyacı] vardır. Binaənileyh [ona görə], hökumətimiz Ticarət və Sənaye Nəzarəti şəxsində bu xüsusda düşünməmiş deyildir.

Əlbəttə, qənd zavodu açmaq istəyən bir məmləkət biyan və çuğunduru xammal surəti ilə əcnəbi məmləkətlərdən də gətirə bilər, yeri müsaid olarsa, özü də əkdirə bilər. Şükürlər olsun, Azərbaycanın münbit, bərəkətli torpağı buna da müsaiddir. Ümuma məlumdur ki, Muğan və Mil səhrasında ildə yüz minlərcə pud əkilmədən biyan (solodkovı koren) hasil olur. Şimdi Nəzarətin müraciəti ilə mütəxəssislər bəyan etmişlər ki, Azərbaycan öz daxilində çuğundur və biyan əkdirə bilər. Bu xüsusda birinci mövqe tutan Muğan səhrasıdır, ikinci Gəncə vilayəti, üçüncü Quba qəzası. Bu surətdə məmləkətimiz bu cəhətdən də özünü təmin edə bilər.

İxracat və idxalat məsələsindən bəhs edərkən, səhmdarlar cəmiyyəti və müxtəlif şirkətlər kimi şübhəsiz ki, sığorta məsələsini də unutmaq olmaz. Ona görədir ki, hal-hazırda Azərbaycanda anormal bir vəziyyətdə bulunan sığorta (straxovaniye) məsələsindən də söhbət açılmışdır. Məlum olduğu üzrə, hal-hazırda Azərbaycandan kənara aparılan mallardan, xüsusən, dəniz təriqi [yolu] ilə göndərilən şeylərdən sığorta pulu alırlar vəhalonki [halbuki] Azərbaycanın özündə böylə bir sığorta cəmiyyəti yoxdur.

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 18 may (Bazar günü) tarixli 183-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Şöbəsi burada olan cəmiyyətlərin də mərkəzi idarələri Peterburq, Moskva və sair bu kimi əcnəbi şəhərlərdədir. Burası da məlumdur ki, burada sığorta haqqı verən bir şəxsin malı tələf olarsa, məhəlli [yerli] şöbələr mütləqa mərkəzi idarəyə, yəni Peterburq, Moskvaya və qeyrisinə müraciət etməyi təklif edəcəkdir. Bu isə yəqin bir nəticə verə bilməz (hal-hazırkı şərait altında). Bu surətlə hal-hazırda ticarət işləri sığorta cəhətindən bir növ təmin edilməmiş bir haldadır. Əlbəttə, böylə davam edə bilməz. Ələlxüsus ki, yuxarıda ərz olunduğu vəchlə, Azərbaycan geniş dairə və böyük miqyasda nəql-həml işlərinə başlamaq fikrindədir. Odur ki, həman ticarət məsələsi ilə əlaqədar olaraq Azərbaycanda, xüsusən Bakıda böyük bir sığorta cəmiyyəti təsisinə də əşəddi-ehtiyac hiss edilməkdədir. Sərvətdarlarımız böylə bir cəmiyyət təsis etsəydilər, həm ticarətə böyük tərəqqi vermiş, həm tacirlərimizi bir növ təmin etmiş və bu üzdən vətənə iqtisadi böyük bir xidmət göstərmiş olarlardı, həm də bu gün müqəddəratı da heç də məlum olmayan mərkəzi idarələrlə əsla əlaqədə bulunmayan yabançı cəmiyyətlərin apardığı milyonlarla fayda öz müəssisələrimizə, öz mütəşəbbislərimizə vüsul olardı [çatardı].

Yeni Kabinənin sair əzaları [üzvləri] kimi, anlaşıldığı vəchlə, Ticarət və Sənaye Nəzarəti dəxi gözəl təşəbbüslərə iqdam etməkdədir [girişməkdədir]. Cavan hökumətimizə hər təşəbbüsdə müvəffəqiyyət diləməklə bərabər, təəssüf etməlidir ki, sabiq Nəzarətlər bu xüsuslarda heç bir iş görməmiş və hətta bir çox nöqsan buraxmışlardır ki, o irsdən yeni heyət hələ də qurtara bilməyir. Fəqət ümidvarız ki, hökumətin səy və təşəbbüsü və camaatın hümmət və qeyrəti sayəsində cavan vətənimiz və zəngin məmləkətimiz parlaq bir istiqbala [gələcəyə] üz qoymaqdadır.

## İTALİYA ŞAHZADƏSİ AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

1919 mayıs 18-də saat 11-də təşrifinə müntəzir olduğumuz İtaliya şahzadəsi Savoyski məiyyətində bir polkovnik olduğu halda, Azərbaycan Məclisi-Məbusan rəisi Həsən bəy Ağazadə həzrətlərinin görüşünə təşrif gətirmişlərdir.

Şahzadə həzrətləri Divani-Rəyasət qapısı önündə Məclisi-Məbusan katibi Mehdi bəy Hacızadə tərəfindən istiqbal olunub [qarşılanıb], Divani-Rəyasətə daxil oldular.

Şahzadə həzrətləri bir çox gözəl və məhəbbətli söhbətlərdən sonra İtaliya qoşunu komandanlığının izhari-məhəbbətini Azərbaycana ərz etdi və əvvəlinci sözü bu oldu ki: *"Sizə gəlmişiz sizi təbrik etməyə ki, siz kəndi ürəyiniz istədiyi kimi yaşayacaqsınız və yaşamağa haqqınız olduğu kimi, müqtədir olduğunuzu da biliriz. İtaliya var qüvvəsi ilə sizin azadə yaşamağınıza çalışacaq. Biz italiyalılar hürriyyət və istiqlalı[mız] üçün çox qanlar tökmüşük. Ona görə də bunların qədrini bilir və bu kimi işlərdə özgələrinə dəxi hörmət ediriz. İnşallah ümid edirəm ki, siz asudə olduğunuz halda dostunuz İtaliyaya dəxi gələrsiniz və bizim Parlaman rəisi ilə görüşüb o vaxt biz italiyalıların sizə olan məhəbbətini təsdiq edərsiniz."* – buyurdular.

## MAVƏRAYİ-BƏHRİ XƏZƏR HÖKUMƏTİ NÜMAYƏNDƏLƏRİ ŞƏHƏRİMİZDƏ

Srağagün Aşqabaddan Mavərayi-Bəhri-Xəzər [Zakaspiysk] Hökuməti tərəfindən göndərilən siyasi nümayəndələr heyəti şəhərimizə varid olmuşdur [gəlmişdir]. Heyət 6 nəfərdən ibarət olub, 3 nəfəri müsəlman türkman – Xanmurad Səhhətmuradov, Məhəmməd Niyaz xan və Muradəli xan və 3 nəfəri də rusdur. Hal-hazırda Mavərayi-Bəhri-Xəzər mahalında 5 nəfərdən ibarət "Müdafieyi-İctimaiyyə" komitəsi adında bir hökuməti-təşriiyyə [qanunverici hökumət] və 7 nəfərdən ibarət bir hökuməti-icraiyyə [icraedici hökumət] vardır. Hökuməti-təşriiyyəyə türkmanlardan Uraz Sərdar Eyvazbəyov və Seyid Murad Urazbəyov, hökuməti-icraiyyəyə isə Daxiliyyə naziri müavinliyinə Kokacan Berdıyev və Maarif naziri müavinliyinə Əliəkbər Tahirov daxil olmuşlardır. Uraz Sərdar hal-hazırda Ravnino mövqifi [stansiyası] yanında olan cəbhədə bolşevik qüvvələri ilə mübarizə və müharibədə bulunan Könüllü ordu və türkman qoşunlarının Baş komandanıdır.

Heyətin Bakıya gəlməsində məqsəd, Azərbaycan Hökuməti ilə sıxı əlaqə və münasibat peyda etməklə bərabər, hər iki hökumətin dostanə və müttəfiqanə bir tərzdə hərəkət etmələrinə zəmin hazırlamaqdır. Böylə münasibat ilə məzkur [adı çəkilən] məmləkətlərin arasında mal mübadiləsi və qeyri müzakirat başlanacaqdır. Heyət əzaları [üzvləri] türkmanlar Azərbaycan Cümhuriyyətinin böylə hal və idarəsindən nümayəndə-şad olub [sevindiklərini büruzə verib], gələcəkdə özlərinin dəxi səadəti və hər cəhətdən tərəqqilərini ondan gözləyir və ümid edir ki, Azərbaycanlı qardaşlar onlara yardım və müavinət etməkdən çəkinməzlər.

Maarif və mədəniyyət cəhətindən türkmanlar çox geridədirlər. Fəqət indi türkman cavanları bu yolda çalışmağa başlamış və çox çətinliklə işləyirlər. Aprel ayının axırlarında Aşqabadda ümum müsəlman müəllimlərinin qurultayı vaqe olub, qərar qonulmuşdur ki, bütün rus-müsəlman məktəbləri milliləşib, bu il payızdan Mərv, Aşqabad və Tazəşəhərdə [Türkmənbaşı] bir darülmüəllimin [seminariya] açılsın. Hələlik Aşqabadda üç aylıq müəllim kursları açılacaqdır. Bu kurslarda tədrisdə bulunmaq üçün heyət Azərbaycan hökumətindən və firqələrdən müəllimlər xahiş edəcəkdir. Ələlümum Mavərayi-Bəhri-Xəzərdə ziyalılara, maarifpərvər şəxslərə artıq dərəcə ehtiyac hiss edildiyindən, Azərbaycandan bu cəhətdə yardım diləyirlər.

Cəbhədə hərdənbir şiddətli vuruşmalar olursa da, qəti nəticələr hasil olmayır.

Azuqə cəhətindən Mavərayi-Bəhri-Xəzərin halı fəna deyildir. Taxıl və qeyri zəruri şeylər başqa yerlərə nisbət ucuzdur.

Heyət bir neçə gün şəhərimizdə mehman qalacaqdır.

## ERMƏNİSTAN HÖKUMƏT RƏİSİNİN TELEQRAFI

Ermənistan siyasi nümayəndəsi [Tiqran] Bekzadyan böylə bir teleqraf almışdır:

*"Alınan məlumata görə, Azərbaycan əsgərləri Novosaratovkaya varid olub [çatıb], möhkəmləşməkdədirlər. Novosaratovka rayonu Ermənistan torpağındadır. Buna görə, Azərbaycan Hökumətinin vəzifəsidir ki, müəssif [təəssüf doğuracaq] hadisələr olmamaq üçün Azərbaycan müsəlləh [silahlı] qüvvələrinin Ermənistan torpağına gəlmələrini buraxmasın.*

*Xariciyyə naziri əvəzinə*
*Hökumət rəisi: Xatisov"*

## BAKI XƏBƏRLƏRİ

**İdarədən**

Qarelərimizin [oxucularımızın] gördükləri vəchlə, neçə müddətdir ki, qəzetəmiz gündə bir qitədə [ölçüdə] və bəzən səliqəsiz belə çıxmaqdadır. Səbəbi budur ki, mayısın 6-sından etibarən rusca "Azərbaycan" qəzetəsinin mürəttib və sair əmələləri tətil etdiklərindən, türkcə "Azərbaycan"ın adamları iki qəzetədə çalışmaq məcburiyyətində qalır. Ümumi tətil adı ilə elan edilmiş tətil qurtardıqdan sonra kantorumuz hökumətin qərarına istinadən əmələlərin [işçilərin] işləmədikləri günlərin haqqını verməmişdir. Ona görə əmələlər yenidən tətil elan etmişlərdir. Şimdi yenə bizim əmələlərimiz onların da işlərini görürlər. Bundan dolayı da rusca qəzetənin əmələləri işə şüru edənədək [başlayanadək] müvəqqət qəzetəmiz kiçik qitədə çıxacaqdır.

**Qaçqınlara yardım**

Daxiliyyə Nəzarəti Bakı qubernatoruna müraciətən rica etmişdir ki, Şamaxı şəhərində kəlisada [kilsədə] saxlanmaqda olan sahibsiz mallar qaçqınlar arasında təqsim edilmək [bölünmək] üçün Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] təslim edilsin.

**Müsəlman Zəhmətkeş Ziyalıları İttifaqında**

Çaharşənbə [çərşənbə] günü mayın 14-ündə Ağa Axundovun sədarəti altında Müsəlman Zəhmətkeş Ziyalıları İttifaqının iclası vaqe olmuşdur. Bu iclasda əzcümlə [o cümlədən] Maarif Nəzarətinin sabiq müdiri Həmid bəy Şahtaxtinskinin bir neçə məmurla bərabər Nəzarətdən [Nazirlikdən] çıxmaları məsələsi müzakirə edilmişdir. Məzkur [deyilən] heyətin Nəzarətdən istefa verməleri səbəblərini müzakirədən sərf-nəzər, İttifaq idarəsi qət etmişdir ki, böylə bir zamanda bu tövr sadiq ziyalıların iş başından çəkilmələrinin xalq maarifi işlərinə yaxşı nəticəsi olmadığını etirafla, Həmid bəyin öz yoldaşları ilə bərabər istefa verməsinə səbəb olan hadisəni bərtərəf etməkdən [aradan qaldırmaqdan] ötrü tezliklə lazımi tədbirlər görülməsi üçün Parlaman fraksiyaları qarşısında məsələ qaldırsın. Parlaman fraksiyaları ilə bu barədə müzakirədə bulunmaqdan ötrü Ağa Axundov ilə Səməd bəy Hacıəliyev vəkil edilmişlərdir.

**İtaliya ilə mal mübadiləsi**

Aldığımız məlumata görə, Bakıya varid olmuş [gəlmiş] İtaliya heyəti Azərbaycan Hökuməti ilə İtaliyaya neft göndərmək barəsində müzakirata başlayacaqdır.

**Qafqaziyada Lehistan nümayəndəsi**

Lehistan [Polşa] Hökuməti Xariciyyə naziri tərəfindən edilən binagüzarlığa [sərəncama] görə, Qafqaziyada Lehistan Hökuməti nümayəndəliyi təsis edilmişdir. Məzkur [deyilən] nümayəndəlik Qafqaziyada yaşayan polyaklara elam edir [bildirir] ki, Lehistana gedənlər nümayəndədən icazə və şəhadətnamə almalıdırlar. Şəhadətnaməleri olmayanlar heç bir vəchlə Lehistan torpağına buraxılmayacaqlardır.

## AZƏRBAYCANDA

**Qarabağda**

Qarabağ ermənilərinin 5-ci ictimasının [yığıncağının] köçəri məsələsi haqqında qətnamə[si]:

*"Qarabağ ermənilərinin 5-ci ictiması köçərilərin Qarabağın ermənilərlə məskun yerlərindən yaylağa hərəkət etmələri məsələsini müzakirə edib və bu məsələnin iki qonşu millət arasında mehriban qonşuluq münasibatı saxlamaq üçün əhəmiyyətini nəzərə alıb, İngiltərə komandanının təminatı və İngiltərə əsgəri dəstələrinin mühafizəsi altında köçərilərin yaylağa keçib getmələrini lazım görür. İngiltərə komandanlığı və əsgərləri hər iki tərəfdən üz verə biləcək hadisələrin qabağını almaq üçün tədbirlər görməlidir. Bunlardan əlavə, köçərilər silahsız olmaq şərti ilə köçüb getməlidirlər. Hər iki tərəfdən varid olacaq [əmələ gələcək] xəsarəti aşkar edib əvəzini almaqdan ötrü erməni kəndlilərindən və müsəlman köçərilərindən ibarət bir beynəlmiləl komitə vücuda gətirilməsi lazımdır. Xəsarətin əvəzi üçün bu komitə məhkəməsiz və istintaqsız qərar çıxaracaqdır."*

**Qazaxdan**

Aprelin 27[-si] gecəsində saat iki radələrində Qazax vergi məmuru Mehdi ağa Qiyasbəyov klubdan evinə getdiyi yerdə bir neçə xain və zalım canilər tərəfindən ağır yaralanmışdı. Yazıq, yaraya davam gətirə bilməyib bir həftədən sonra vəfat eylədi. Tanrı haqqını versin!

Adam öldürmək, qan içmək, quldurluq, qaçaqçılıq, bir-biri ilə ədavət edib düşmənçilik sürmək Qazax əhalisi üçün istər xas, istər alim olsun, adi bir həyatdır. Bunsuz bunların ömrü batil və naqis olarmış.

Mehdi ağanın öldürülməsi biz Qazax ürəfasını [ziyalılarını] gərək fikrə salsın. Çünki o fəqir öz xüsusi düşmənindən ölməyibdir. Onun heç kəslə xüsusi işi yox idi. Mehdi ağa ölübdürsə, ölübdür ancaq ümumun uğrunda, öz haqq sözü, haqq dolanacağı üstündə.

Yazıq payızdan bəri məmləkətin və camaatın nəf [mənfəət] və rahatlığına zidd gedən, bir çox nahaq işlərlə – ki bunları törədən altdan-altdan vurunan bir para xain şəxslərdi ki ancaq öz nəfslərini, öz qarınlarını güdürdülər – bunlarla çarpışıb, vuruşub bir neçə pərdəli işlərinin üstünü açdı. Təbiidir, Mehdi ağanın bu müdarası onlara xoş gəlməyəcəkdi. Odur ki, o xainlər gecə qaranlıqda çəpər dibində bu "zərərli" şəxsdən xilas oldular.

Fəqət bunu bilməlidir ki, Mehdi ağaya vurulan zərbə bizim hamımıza vurulmuşdur. Binaənileyh [ona görə] də biz bu hadisəyə kəmetina [laqeyd] ola bilmərik. Canilər Qazaxda olan ürəfanı büsbütün sıxışdırmaq, ağızlarına kilid vurmaq istəyirlər. Odur ki, sabiqdə kontrabanda məsələsinə görə yığılan ürəfanın bir də yığılmağını, həman zalım, xunxar [qaniçən], dilazar [insafsız] canilər təhdid etmişlərdir. Fəqət pusquda durub qaranlıqda iş görən bu bədəfkarlar [canilər] zehinlərində bərk-bərk tutmalıdırlar ki, onların təhdidi bizi haqq sözü danışmaqdan, camaatın xeyrinə çalışmaqdan çəkindirməyəcəkdir. Bərəks [əksinə], bizim inadımızı dəxi də artacaq.

Canilərdən hələ birisi dustaq olunmuşdur, ikisi isə qaçmışdır. Fəqət birinci məsələ varsa, o da canilərin təhris [şirnikləndiricisini] və təşviqçisini tapmaqdır. Hər halda, hökumətin qəti tədbirləri lazımdır.

**Ərəş uyezdində**

Buralarda əcnəbi qaçqınların olduğu məlumdur və Nuxu uyezdi [Şəki qəzası] ilə Ərəş uyezdlərində [Ağdaş qəzalarında] olan, Nuxu uyezdinin 3-cü çastı [bölməsi] adlanan Vartaşen qəryəsinə [kəndinə] və Calut qəryəsinə və 4-cü çastı adlanan Nij qəryəsinə qaçqınlar toplanmışdır və bu qaçqınlar qaçarkən özlərində mövcud olan silahlarını və fişənglərini yol içərisində, bağlar içində, qəbiristan içərisində basdırmışlar. İndi bu qaçqınlar hökumətimiz tərəfindən qoyulan qanunlar sayəsində rahat yaşayıb, vaxtında istifadə edib də həman qəbiristan içərisində, yollar içərisində basırdıqları silahları və fişəngləri çıxarıb, daşıyıb məzkur [adı çəkilən] köylərə götürməkdədirlər və Ərəş uyezdinin Hacıəli uçastokunun Söyüdlü qəryəsinin qaçqınları bir neçə vaxt gün bundan əqdəm [qabaq] Söyüdlü qəryəsinin qəbiristanından iki yeşik silah və dörd yeşik fişəng çıxardıb Nuxu uyezdinin 4-cü uçastoku olan Nij qəryəsinə aparmışlardır. Bu köylərdə hökumətimiz tərəfindən axtarış əmri olsa, nə qədər silah toplarlar! Və türklər Nij qəryəsini mühasirə edib onlardan silah istəyəndə mən özüm orada idim. Onlardan cüzi silah toplanıb gəldi. Yəni olardı 200, artıq olmazdı. Amma Nij qəryəsi nüfusca [əhali baxımından] 1000 evdən ibarət bir kənddir. Onlarda daha 2000-dən ziyadə silah vardır. Hətta yaxın islam köylərini hədə altına almaqdadırlar. Hətta onlar Nij qəryəsində əsgər təlim olunan zamanlarda gecə ikən 2 nəfər əsgər öldürdülər və hələ bunlarda silah olmağı da hökumət xadimlərinə də məlumdur.

Əlbəttə, böylə silahlı, ehtiyatlı bir [əhali], milləti-islam içərisində yaşayıb da silahlarını hökumətə təslim etməyəndə, bunların hər vaxtda məxfi surətdə əllərinə kim düşərsə, yəqin ki, kəsib itirəcəklər. Millətim, dini islam dini [olan] şəxs borcludur ki, hökumətimizə olan sui-qəsdi dörd gözlə bilib, hökumət xadimlərini xəbərdar etsinlər və bu yolda var qüvvə ilə çal[ış]malıdır. Əlbəttə, gözlərimizi açmalı və qeyrət etməliyik.

Nuxu uyezdinin 4-cü uçastokunda, Nij qəryəsinin islam məhəllələrindən Abdallı məhəlləsində Molla Sadəddin Əsəd əfəndi oğlu, İdris Hacı Mustafa oğlu və bunların əmisi oğlu İsgəndər – neçə həftələrdən bəri bunlar Bakıya getmək üçün alverdən ötrü pul toplayırmış. Türk pulu və Nikolay pulu. Nəhayət bunlar 35 min manat türk, [2 min manat] Nikolay pulu, 14 min 400 manat da Bakı pulu, cümlətanı 51400 manat toplayıb işbu nisan [aprel] ayının 24-cü şənbə günü Bakıya getmək üçün yola düşürlər. Bu adamlar sübhdən durub yola qədəm qoyurlar. Bunlar Nij qəryəsindən Ağdaşa gələcəklər. Gələrkən Nijdən 20 verst aşağı, Ağdaşa 20 verst qalmış Savalan qəryəsinin iki verstliyində quldurlar tərəfindən dərdəst olunurlar [ələ keçirilirlər]. Əvvəla yuxarıda yazılan pullarını tamamilə alırlar, sonra iki ədəd tapançalarını alırlar, sonra özlərini tamamilə soyundururlar. Papaq, palto, pencək, çəkmə, bir tumanla köynəkdən maəda [başqa] nələri varsa cümləsini alırlar. Sonra bunları bir-bir güllələyib, cidalayıb [soyuq silahla deşib] öldürürlər. Sabahı şeyləri araba ilə gətirib gəlir qohum-əqrəbaları kəndlərinə. Bu qədər quldurlardan heç birisi dərdəst olunmayıb [ələ keçməyib] və hələ bilinməyir bədəfkarlar islamdırmı və ya xarici. Ümidvaram ki, hökumətimiz tərəfindən tezliklə bu işlərə yol verilməyəcəkdir. Canilər və quldurlar dərdəst olmaq üçün tədbirlər ittixaz olunacaqdır [tədbirlər görüləcəkdir]. İstiqlalımızı müdafiə və mühafizə yolunda dördgöz olub da xarici və daxili düşmənlərimizi aradan qaldırmaq üçün var qüvvə ilə çalışmalıyız. Allah cümləmizi açıqfikirli, doğru ürəkli eyləsin.

*M. M.*

**Naxçıvanda**

Mayın 5-ində general Devi Naxçıvana varid olub [gəlib], Naxçıvan və Şərur müsəlmanlarını yığıb elan etmişdir ki, onlar Ermənistan hökumətinə tabe olmalıdırlar. Çünki Naxçıvan və Şərur uyezdləri Ermənistan Cümhuriyyəti dairəsindədir. General Devinin bu təklifi ətraflıca müzakirə edildikdən sonra müsəlmanlar ictiması [yığıncağı] ermənilər tərəfindən zəbt edilən yerlərdə müsəlmanların ağır olan maddi və mənəvi hallarını nəzərə alıb, general Devinin təklifini qəbul etməməyi təhti-qərara almışdır. Çünki yuxarıda göstərilən uyezdlərin müsəlmanları özlərini Azərbaycan təbəəsi və yaşadıqları yerləri Azərbaycan torpağı hesab edirlər və bunu da anlayırlar ki, general Devinin bu təklifi yuxarıda göstərilən uyezdlərin müsəlmanlarına maddi zərər vurmasa da, yəqin ki, mənəvi həlakətə [məhvə] bais olacaqdır. Bu qəbul edilən qərarı əmələ gətirməkdən ötrü müsəlmanların müsəlləh [silahlı] dəstələri Volçi Varotanı zəbt edib erməni müsəlləh dəstələrini Naxçıvan uyezdinə buraxmamağı təhti-qərara almışlardır. Fövqəladə ağır əhval vücuda gəlmişdir. Bu hal ancaq hökumətin təcili tədbirləri ilə bərtərəf edilə [aradan qaldırıla] bilər.

## ERMƏNİSTANDA

*Xüsusi*

"Joxovrdi dzayn" qəzetəsi yazır:

Bu günlərdə Təbrizdən varid olmuş [gəlmiş] bir mötəbər şəxs Şahtaxtı mövqifinin [stansiyasının] səmtində İrəvandan Naxçıvana Dronun təhti-komandası ilə [komandanlığı altında] hərəkətdə bulunan bir əsgəri ordusu görmüşdür. Bu hərəkətdən məqsəd bütün Ermənistan hüdudunu istila edib, məmləkətdə qayda və qanun bərpa etməklə belə, qaçqınlara öz yerlərinə qayıdıb işlərinə məşğul olmağa imkan verməkdir.

Şahtaxtıda Naxçıvan müsəlmanlarının və erməni hökumətinin nümayəndələrinin görüşüyü vaqe olacaqmış.

——

*"Aryo" yazır:*

General Tomsonun təvəqqesinə görə, erməni qoşununun Naxçıvana tərəf hərəkəti müvəqqəti surətdə dayandırılmışdır. Bu məsələ texnik cəhətincə ehdas edilən mümaniətlərlə mərbutdur [yaradılan maneçiliklərlə bağlıdır]. Həmin mümaniətləri rəf etmək [maneçilikləri aradan qaldırmaq] üçün ciddi tədbirlər ittixaz edilir [tədbirlər görülür].

Tomsonun binagüzarlığından [sərəncamından] qabaq məhəlli [yerli] əhali erməni qoşununu xoşhallıqla istiqbal edirdi [qarşılayırdı].

- İrəvanda Məclisi-Məbusan intixabatına şüru edilmişdir [seçkilərinə başlanmışdır]. Təyin edilmiş gün İctimaiyyuni-inqilabiyyun firqəsi [Sosialist-inqilabçılar partiyası] 35 namizəd siyahısı təqdim etmişdir.

- Qars dairəsi mürur ilə [zamanla] təmizlənib sakitləşməkdədir. Gürcüstan qoşunu Ərda[ha]nı istila etdikdən sonra Merdinik denilən yeri də tutmuşlardır. İngilislərin tələbinə görə, onlar həman yeri boşaldıb Ərdahanın səmtində dayandılar. Ondan sonra erməni qoşunu Ərdahanı işğal edib Oltu tərəfinə hərəkət başladı.

- Amerikada əmələ gəlmiş Ermənistan İstiqlalı Komitəsi teleqraf ilə Ermənistanı öz tarixi hüdudu dairəsində diriltməyi Vilsondan tələb etmişdir. Ona cavab olaraq Vilson böylə bir teleqraf göndərmişdir:

*"Sizin teleqrafınız ürəyimdə döyünmə əmələ gətirdi. Komitəni inandırıram ki, Ermənistan nəfinə [xeyrinə] olaraq artıq dərəcədə səy edib mümkün olan hər bir vasitəyə müraciəti müzayiqə eyləməyəcəyəm [əsirgəməyəcəyəm]."*

- Nyu-Yorkda sakin [yaşayan] erməni, yəhudi və yunan camaatlarının müttəfiq ictima [iclas] nümayəndələri Venizelosa böylə bir teleqram göndərmişlərdir:

*"Uzun müddət Türkiyə boyunduruğu altında yaşayan üç tayfa yek-digərinə [bir-birinə] hüsnrəğbət və məhəbbət bağlayıb, hürriyyəti-milli və kəndi müqəddəratını hər bir millət təyin eyləmək ixtiyaratını nəzərə alıb, bizi intixab edən [seçən] əhali bizim vasitəmizlə bilavasitə Parisdə cəm olmuş düvəli-müəzzəmə [böyük dövlətlər] nümayəndələrində[n] atidəki [aşağıdakı] maddələri tələb etməyi qərara vermişdir:*

*1) Kiçik Asiyada yaşayan yunan tayfasının əsil vətənləri olan Yunanıstan ilə mülhəq olmaq [birləşmək] məsələsini bitirib təmin etmək;*

*2) Ermənistanı müstəqil bir hökumət sayağında öz yerində dikəltmək;*

*3) Fələstində ingilis təhti-himayəsində [himayəsi altında] yəhudilər üçün bir mərkəz müəyyən eyləmək."*

## ŞİKAYƏT

Müdiri-möhtərəm!

Qəzetənizin sütunlarında mənim bu aciz olan tămənna və sözümü dərc etməyinizi istirham [xahiş] edirəm.

1919-cu ilin aprel ayının 25-ci günündə mən, Azərbaycan dəmiryolunun Mingəçevir stansiyasından əmələ işlədən astarçı Əli Abbasqulu oğlu yazıb cənabınıza məlum edirəm, aprel ayının 25-ci günündə Gəncə uyezdi Goranboy-Əhmədli yüzbaşısı Cavad Əhmədxan oğlu, yanında 6 atlı gəldi, məndən 1000 manat pul istədi. Mən də dedim sənə nə verəcəyim var, oğru deyiləm, qaçaq deyiləm. Sonra məni çox döydülər və məndən və mənim 10 nəfər fəhləmdən 250 manat pul aldı, getdi. Mən də heç kəsə şikayət eyləmədim. Qorxuram şikayətə baxan olmaya, yüzbaşı eşidə, mənə böyük cəfa eyləyə.

Üzümü çevirib möhtərəm olan hökumətimizə müraciət edirəm, böylə işlərin qabağını alasınız, vəilla [yoxsa] dəmiryolunda işləmək çətin olacaq. Baqi ehtiram.

*Gəncə uyezdinin*
*Mingəçevir vağzalında əmələ işlədən astarçı*
*Əli Abbasqulu oğlu*

## İDARƏYƏ MƏKTUB

Möhtərəm müdir əfəndidən bu bir neçə kəlmənin "Azərbaycan" ruznaməsində [qəzetində] dərcinə müsaidə buyurmaların təmənna ediriz.

"Azərbaycan" qəzetəsinin 181-ci nömrəsində Məşqət [Maştağa] qəzasından camaat tərəfindən "Müsavat" firqəsi vasitəsilə qubernatora polis nəfəratından [nəfərlərindən] şikayət dərc edilmişdi.

"Müsavat" firqəsi fəaliyyəti sayəsində bəzi cüzi qüsuratlar sərəncam edilməkdən naşi [yoluna qoyulduğuna görə], hal-hazırda polis nəfəratı layiqincə fəaliyyətə girişmişdir. Binaənileyh [ona görə], firqənin Məşqət şöbəsi bir ay yarım bundan əqdəm [qabaq] verilən raporun şimdi qəzetəyə dərcini yersiz bilib bəyani-həqiqət eyləyir.

*Sədr: M. Hüseynzadə*
*Katib: S. B. Axundzadə*

## İDARƏDƏN CAVAB

"Gəncədə şəhər məktəbləri müəllimlərindən biri" əfəndiyə:

Zatınızı idarəyə bildirmək istəmədiyinizdən, məqalənizi çap edə bilmədik. Yazdıqlarınız haqqında Gəncə Müəllimlər İttifaqı vasitəsilə məlumat versəniz, daha gözəl olar.

**Doktor M. B. Şaxnazarov**

Dəri və əmrazı-cərrahiyyə [cərrahi xəstəliklər] naxoşluqlarını qəbul etməyə başlamışdır. "606" və "914" müalicəsi. Qəbul edir: səhər saat 9-dan 12-yədək; axşam saat 4-dən 7-yədək. Ünvan: Armyanski küçə nömrə 3. Qubernskinin küncündə. Telefon nömrə 45-28.

*8748*

**Diş həkimi E. S. Karşteynbaumun**

Diş müalicəxanası və süni diş laboratoriyası. Adres: Sisyanovski (Ləzginski) və Çadrovı küçələrin küncündə nömrə 41. Telefon 22-07. Qəbul edir səhər saat 6-dan 8-ədək; səhər saat 11-dən 2-yədək; axşam saat 4-dən 8-ədək. Dişlər ağrısız çəkilir və qızıl dişlər qayırılır.

*8779*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

**Diş həkimi M. B. Şternin**

Vorontsovski küçə, nömrə 22, Karantinni küçənin küncündə. Süni dişlər qayırır. Qızıl ənglər və damaqlar qayırır. Dişləri ağrısız çəkir.

*8757*

Doktor **M. M. Kərimov** göz naxoşlarını və diş həkimi **A.Əmirov** naxoşları qəbul edirlər saat 4-dən 7-yədək. Ünvan: Suraxanski və Spasski küçələrin [küncündə] 102 nömrəli evdə. Telefon nömrə 40-91.

*8754*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**"Azərbaycan" qəzetəsi idarəsindən**

Kağız bahalanması və mətbəə əmələlərinin muzdları artması münasibətilə qəzetə nəşriyyatının xərci artdığından, "Azərbaycan" qəzetəsi və sair qəzetələr müvəqqəti olaraq işbu mayın 18-dən qəzetənin qiymətini artırmağa məcbur olmuşdur.

Mayın 18-indən "Azərbaycan" qəzetəsinin tək nüsxəsi 1 manat 50 qəpik təyin edilmişdir.

**Elan**

Məşixəti-İslamiyyə [Şeyxülislamlıq] İdarəsində kargüzarlıq və dəftərdarlıq (registrator) vəzifələrində istixdam [xidmətə qəbul edilmək] üçün türkcəsi kamil olmaq şərti ilə rusca dəxi bilən iki nəfər adam lazımdır. Arzu edənlər Bakıda Nijni Priyutski caddədə 66 nömrəli evdə Məşixət İdarəsinə müraciət buyursunlar.

**Zəhmət (məsai) bürosu**

Bakı Şəfqət Bacıları İttifaqı şəfqət bacılarını gecə işlərinə, iynə vurmağa, masaj etməyə müərriflik [tövsiyə] edir. İttifaq öz işçilərinin işlərinə cavabdehdir. Xahiş edənlər bu adresə müraciət edə bilərlər: Budaqovski və Malakanski küçələrin küncündə nömrə 16/22, mənzil 6. Konkanın mənzili. Telefon nömrə 14-08. Büro bütün gün açıqdır.

*8755*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***İndi başa düşürlər***

"biizzü bədnam": qəzetdə "biəzmü bədnam" getmişdir.

"ağır ibrət dostları": qəzetdə "ağır ibrət rusları" getmişdir.

***Teleqraf xəbərləri***

"Donskiye vedomosti": 1919-cu ildə Novoçerkasskda rus dilində nəşr edilmiş qəzet.

"Məclisi-Əyan" ABŞ-da ikipalatalı qanunverici hakimiyyət orqanı olan ABŞ Konqresinin yuxarı palatası (Senat).

***Sülh ətrafında***

"Hirş": qəzetdə "Qirş" kimi verilmişdir.

"Almaniya Ticarət ittifaqının məşhur başçısı Legin": əslində Almaniya Həmkarlar İttifaqları Federasiyasının prezidenti Karl Legin nəzərdə tutulur. Qəzetdə Leginin soyadı da təhrif edilmişdir.

***Qəzetələrdən***

"Aleksandrovsk fortu": İndiki Qazaxıstanın Mangistau (Manqışlaq) vilayətində yerləşən Fort-Şevçenko şəhəri 1857-1924-cü illərdə Aleksandrovsk (Fort-Alek- sandrovsk) adlanmışdır.

"Quryev": Qazaxıstanda indiki Atırau şəhəri.

"Tan": 1861-1942-ci illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik "Le Temps" qəzeti nəzərdə tutulur.

***Mavərayi-Bəhri-Xəzər Hökuməti nümayəndələri şəhərimizdə***

"Ravnino": Türkmənistanda Marı-Türkmənabad arasında dəmiryol xətti yaxınlığında şəhərtipli qəsəbə; hal-hazırda Bərqərar adlanır.

***Azərbaycanda***

"Təbiidir, Mehdi ağanın müdarası onlara xoş gəlməyəcəkdi.": "müdara" sözü "üzə gülmək, nifrətini büruzə verməyərək üzdə dostluq göstərmək" mənasına gəlir; mümkündür ki, burada "xalqın dərdinə qalmaq" mənasında işlənmişdir.

"Millətim, dini islam dini [olan] şəxs borcludur ki…": bu cümlə xətalı idi; mümkün qədər düzəltdik.

***Ermənistanda***

"Təyin edilmiş gün": qəzetdə "təyin" yerinə "təəyyün" getmişdir.

"Mərdinik": Türkiyənin Ərdahan ilinin Gölə ilçəsi.

***Elan***

"Nijni-Priyutski": Bakıda, indiki Süleyman Rəhimov küçəsi.





# Mədəniyyət





İncəsənət xadimlərimiz

**Onun müəllifi olduğu təsviri sənət nümunələri daha çox düşündürücü və tünd çalarlarla zəngindir. Bəlkə də bu xüsusiyyət həyatın onu lap kiçik yaşlarından taleyin əzabları ilə üz-üzə qoymasından irəli gəlir. Söhbət Azərbaycan təsviri sənət tarixində öz yaradıcılığı ilə seçilən, bu il 100 illik yubileyi tamam olan, istedadlı rəssam Nadir Axundovdan gedir.**

# "Siz zəhmətinizə mükafat ummadan işləmisiniz"

## Bu istedadlı qrafika rəssamı Nadir Axundovun yaradıcılığına verilən ən doğru qiymətdir



Nadir Səfərəli oğlu Axundov Naxçıvan şəhərində anadan olmuşdur. 3 yaşından ata-ana nəvazişindən məhrum olan balaca Nadir xalası Münəvvər xanımın himayəsində böyümüşdür. Onun lap kiçik yaşlarından rəssamlığa xüsusi marağı olmuşdur. Bu maraqla o, 1938-ci ildə Bakıya rəssamlıq təhsili almağa gəlmiş, bir neçə ay paytaxtda qaldıqdan sonra Leninqrad (indiki Sankt-Peterburq) şəhərinə getmiş və Leninqrad Orta Rəssamlıq Məktəbinə daxil olmuşdur. 1941-ci ildə müharibənin başlaması ilə əlaqədar N.Axundov təhsilini yarımçıq qoyaraq cəbhəyə yollanmışdır. 1945-ci ildə ordudan tərxis olunan Nadir doğma şəhəri Naxçıvana qayıtmış, orada yaradıcılıq fəaliyyətini davam etdirmişdir. Rəssam daha geniş yaradıcılıq mühitinə qovuşmaq üçün 1946-cı ildə yenidən Bakıya gələrək ömrünün sonuna kimi burada bədii yaradıcılıq fəaliyyəti ilə məşğul olmuş, təsviri sənətin qrafika və rəngkarlıq sahəsində uğurlu təsviri sənət nümunələri ərsəyə gətirmişdir.

N.Axundov uğurlu pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. O, 1950-ci illərin ikinci yarısından 1960-cı illərin sonunadək Yuri Qaqarin adına Bakı Pionerlər Sarayında rəsm dərnəyinin rəhbəri olmuş və təsviri sənəti gənc nəslin nümayəndələrinə sevə-sevə tədris etmişdir. Rəssamın tələbələri arasından bir sıra tanınmış istedadlı rəssamlar yetişmişdir. Xalq rəssamı Arif Hüseynovla söhbətimiz zamanı o, müəllimi N.Axundovu böyük hörmətlə xatırlamışdır.

N.Axundovun sağlığında Bakı, Gəncə və doğulub boya-başa çatdığı Naxçıvan şəhərində əsərlərindən ibarət fərdi yaradıcılıq sərgiləri təşkil olunmuşdur. İstedadlı rəssamın "Kitab oxuyan qız" (1952), "Qarpız yeyən oğlan" (1955), "Mühəndisin portreti" (1970), "Birinci kurs tələbəsi" (1972) adlı rəngkarlıq, "Görüş" (1958), "Rəfiqələr" (1959), "Ana sevinci" (1959), "Suvaqçılar" (1960), "Arx kənarında" (1961), "Kitabxanada" (1963), "Təhsil" (1964), "Tələbə qız" (1964), "Düşüncələr" (1965), "Şlyapalı avtoportret" (1966), "Bakı qalası" (1966), "Fasilə" (1966), "Çadralı qadınlar" (1967), "Qədim kənd" (1967), "Kənd musiqiçiləri" (1967), "Qız portreti" (1970), "Qədim Bakı" (1973), "Azadlıq" (1975), "Dəniz kənarında" (1976), "M.Füzuli" (1976) adlı qrafika əsərləri rəssama böyük şöhrət qazandırmışdır. Onun əsərlərinə tamaşa edən seyrçidə xoş duyğularla yanaşı, həzinlik, düşündürücülük hissləri yaranır.

Əzim Əzimzadə satirik, Ələkbər Rzaquliyev romantik, Nadir Axundov isə realistik prinsiplərlə öz yaradıcılıq dünyalarını təcəssüm etdirmişlər.

Rəssamın yaradıcılığında bədii estetk təsir qüvvəsi maarifçi xətlə ahəngdar aparılmışdır. Bu xüsusiyyət rəssamın özünəməxsus yaradıcılıq üslubunu formalaşdırmışdır. N.Axundovun həyat və yaradıcılığı haqqında 1994-cü ildə nəşr olunmuş albom kitabda sənətşünaslıq namizədi Nadir Zamanov yazırdı: "Nadir Axundovun əsərlərində xalqının mədəniyyətini sevən, onun sənət irsi ilə fəxr edən rəssam ürəyinin çırpıntıları hiss olunur".

Müxtəlif vaxtlarda Leninqrad, Daşkənd və Tbilisidə təşkil olunmuş sərgilərdə rəssamın "Çay süfrəsi" (1961), "Çoban qız" (1961), "Kənd musiqiçiləri" (1966), "Dəniz kənarında qala" (1966), "Köhnə Bakı" (1967), "Dənizdə neft buruqları" (1969), "İçərişəhər" (1971), "Dəniz kənarında" (1976) və digər əsərləri nümayiş olunaraq yüksək tamaşaçı rəğbəti qazanmışdır. Onun əsərləri həmçinin Fransa, İtaliya, Almaniya, Finlandiya, Macarıstan, Kuba, Əlcəzairdə təşkil olunmuş sərgilərdə uğurla nümayiş etdirilmişdir. Rəssam kitab qrafikası sahəsində də diqqəti cəlb edən yaradıcılıq fəaliyyəti göstərmişdir O, T.Ş.Simurqun "Qayçı" (1966), S.S.Axundovun "Qaraca qız" (1966) hekayələrinə illüstrasiyalar çəkmişdir.







N.Axundovun əsərlərinin reproduksiyaları və yaradıcılığı haqqında Azərbaycan incəsənət tarixi ilə bağlı nəşr olunmuş albom, kitab və monoqrafiyalarda dəfələrlə dərc edilmiş, tədqiqatçı sənətşünas alimlər tərəfindən yüksək qiymətləndirilmişdir. 2007-ci ildə Azərbaycan dəzgah qrafikası mövzusunda müdafiə olunmuş dissertasiya işində rəssamın yaradıcılığı haqqında yazılır: "Nadir Axundov əsərlərində sadə kompozisiyalar qurmuş, istədiyi fikri, məqsədi dolğun vermək üçün canlı xətlər, ştrixlər tapmış, bunların vasitəsilə müxtəlif formalarda sənətkarlıq nümunələri göstərmişdir. Birinci növbədə rəssam həyat həqiqətlərinə sadiq qalmışdır, reallığa, təbiiliyə geniş yer vermişdir".

İstedadlı rəssam N.Axundovun 1978-ci ildə Bakıda təşkil olunmuş fərdi sərgisinə tamaşa edən Xalq şairi Bəxtiyar Vahabzadə rəy kitabında qeyd etmişdir: "Siz zəhmətinizə mükafat ummadan işləmisiniz. Xırda, cılız təriflərə ehtiyacınız olmayıb. Buna görə də siz əsl sənət örnəkləri yarada bilmisiniz... Qoy sizin qiymətinizi zamanın özü versin". Bu dəyərləndirmə rəssam haqqında vaxtında deyilmiş ən doğru və layiq fikirlərdir. Bəli, zaman o zamandır ki, rəssamın yaradıcılıq dünyası və yaratdığı sənət nümunələri müasirdir, öz bədii dəyəri ilə sənət adamlarının diqqətini cəlb edir, marağına səbəb olur və dəyərləndirilir. Bir sözlə, Nadir Axundov özünün bədii yaradıcılıq fəaliyyəti və yaratmış olduğu təsviri sənət nümunələri ilə Azərbaycan təsviri sənət tarixində həmişə yaşayacaq istedadlı rəssamdır.

*Əsəd QULİYEV,*
*Azərbaycan Rəssamlar İttifaqının üzvü, sənətşünas*

Gənc aktyorlarımız

# "Nə yaxşı ki, Azərbaycanda doğulmuşam"





**Aktyorluq fəaliyyətinə Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında başlasa da, tamaşaçılar onu daha çox rejissor Rövşən İsaqın çəkdiyi "Vicdan haqqı" serialındakı Fuad obrazı ilə tanıyıblar. Aktyor özü bu barədə belə deyir:**

- İnsan aktyorluq sənətini nə üçün seçir? Məşhur, populyar olmaq üçün. Bütün aktyorların içində bir populyar olmaq arzusu var. Mən də aktyor sənətini seçmişəm, çox şadam ki, aktyor kimi populyaram. Bu gün hara getsəm hamı mənə hörmətlə yanaşır, məni tərifləyir, evinə qonaq dəvət edir. Deməli, mən dürüst həyat yaşayıram ki, insanlar məni evinə dəvət edib, ailəsinə təqdim etmək istəyir. Sevinirəm ki, düzgün yoldayam. Bir fikir verin. Olur ki, yolda yüngül qayda pozuram. Məni yol polisi saxlayıb deyir ki, sizə böyük hörmətimiz var. Məni tanıyandan sonra məndən sənədlərimi yox, çəkildiyim serialdakı hadisənin axırının necə olacağını soruşurlar. Bütün bunları görəndə özümə sual verirəm: Elşad, 37 yaşlı aktyor üçün başqa nə olmalıdır? Hörməti, diqqəti pul ilə, vəzifə ilə qazanmaq mümkün deyil. Yaxşı sənətkar olmaq üçün istedaddan başqa, insanda yaxşı əxlaq olmalıdır. Bu məqamda rejissor Rovşən İsaqın adını xüsusi olaraq qeyd etmək istəyirəm. Allahımdan çox razıyam ki, mənim qarşıma belə bir rejissor çıxardı. Bu hər aktyora qismət olan xoşbəxtlik deyil. "Vicdan haqqı" serialına dəvət etdi. Sonra ardı gəldi, "Yuxu kimi" serialına çəkildim. Sonra Rüfət Şahbazovun çəkdiyi Xəzər TV-də yayımlanan "Bir ailəm var mənim" seriallarına çəkildim.

Həmsöhbətimiz Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının aktyoru Elşad Süleymandır. O, 2009-cu ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Teatr və kino aktyorluğu fakültəsini bitirib. 2007-ci il sentyabrın 1-dən indi işlədiyi teatrda çalışır. Deyir ki, bu yaxınlarda Şəkiyə getmişdim: "Adamlar məni görən kimi başıma yığılıb məni söhbətə tutdular. Şəkil çəkdirdilər. Mənə dedilər ki, biz səni teatrda oynadığın tamaşalarla tanıyırıq. Hətta mənim yaratdığım obrazların adını çəkdilər. Teatrda oynadığım rollara görə tamaşaçıların məni tanımasına çox sevindim".

Xatırladaq ki, Elşad Süleyman çalışdığı teatrın səhnəsində 35-dən çox rəngarəng obraza səhnə həyatı verib. Aktyorla onun ömür yolunun geridə qalan səhifələrini vərəqləyirik:

- Tələbəlik illərində Gənc Tamaşaçılar Teatrına dəvət aldım. Böyük səhnədə ilk debütüm orada oldu. "Nənəmin kələyi" tamaşasında Namiq obrazını, "Tık-Tık xanımın nağılı"nda siçan bəyi oynadım. Teatra dəvət almağımla teatrın təmirə dayanması bir oldu. Nə məni ştata götürdülər, nə də maaşım oldu. Xoşbəxtlikdən çox gözləmədim, Rus Dövlət Dram Teatrından dəvət aldım. Orta məktəbi rus dilində oxumuşdum. İncəsənət Universitetində də Azərbaycan bölməsi olmadığı üçün ali təhsilimi rus dilində davam etdirirdim. Dil ilə bağlı bir problem olmayacağını düşünüb dəvəti qəbul etdim. Belə deyək ki, bununla da mənim səhnə həyatım başladı. 19 ildir ki, teatrda 12-ci kateqoriyalı aktyoram.

Söhbət zamanı Elşad Süleyman çox maraqlı bir məqama toxundu: "Qəribədir, bu gün istedadı olmayan, cəmiyyətdə öz yerini tuta, sənəti, peşəsi ilə nüfuz, mövqe qazana bilməyən insanlar problem axtarırlar. Özlərini hər şeyi bilən, bacaran, üzərilərinə düşən hər işin öhdəsindən gələn adamlar kimi göstərib yaxşı-pis hər nə var tənqid etməyə çalışırlar. İnanın, işləmək, özünü təsdiq etmək, istedadını büruzə vermək üçün bu gün ən gözəl məkan Azərbaycandır. Öz işini bilən savadlı kadrlara hər yerdə ehtiyac var. O cümlədən yaxşı aktyora da. Yaxşı aktyor yorğanına bürünüb evdə yatmır. Yaxşı aktyor tək maaşla dolanmır. Yaxşı aktyorun dublyajı var, serialı var, filmi var, tədbirləri var, aparıcı kimi fəaliyyət göstərir. Çox şükür, qazanmışam, ev almışam, evlənmişəm. Mən teatra gəldiyim iki il idi, teatrımız təmirə bağlandı. Biz Dənizçilər Mədəniyyət Evində oynayırdıq. Mən universitetə qəbul olan ili müstəqilliyimizin 14-cü ili idi. Universiteti qırmızı diplomla bitirmişəm. 90 manat tələbə təqaüdü, eyni zamanda teatrda da işləyib 80 manata yaxın oradan maaş alırdım. Tələbə üçün daha nə lazım idi? Bu hamısı Prezidentin bizim mədəniyyətimizə, təhsilimizə, gənclərə olan diqqətinin nəticəsində mümkün olmuşdu. Tələbə təqaüdü, maaşlar qalxmışdı. 2008-ci ildə bizim üçün tam təmir olunmuş yüksək standartlara cavab verən teatr binası hədiyyə olundu. Aktyor kimi düzgün səhnəyə çıxıb nəfəs almaq şəraitimiz var. Düzgün işıq var, istilik var. İsti olanda düzgün sərinlik sistemi var. Belə şeylər bayaqdan yox idi. Bizim teatrda belə şeylər olmayıb. Bu gün bizim üçün bu şərait yaradılıb. Bir sözlə, həyatımdan çox razıyam. Nə yaxşı ki, bu ölkədə doğulmuşam. Nə yaxşı ki, mən bu sənəti seçmişəm.

Sənətdə olan problemlərdən söz açan aktyor deyir: "Bu gün Azərbaycanda yaxşı aktyor çoxdur. Bu gün daha çox yaxşı rejissorlara ehtiyac var. Oxumaqla yaxşı rejissor olmaq mümkün deyil. Yaxşı rejissor olmaq üçün anadan rejissor doğulmaq lazımdır. Rejissorun yaxşı fantaziyası, düzgün əsər seçmək qabiliyyəti olmalı, düzgün quruluş verməyi bacarmalıdır. Anlamaq lazımdır ki, teatrda təsadüf olmur. Teatr, kollektiv sənətdir. Yaxşı, peşəkar bir aktyorun və ya aktyorların olması ilə teatr uğur qazana bilməz. Ona görə də bəzi seriallar uğursuz alınır, tamaşalar uğursuz olub yaddan çıxır. Bunun üçün yaxşı rejissora ehtiyac var. Yaxşı rejissor yaxşı da prodüsserdir. Rejissor yaxşı, aktual əsəri də tapır, gündəmi də tuta bilir. Tamaşaçıya nə lazımdır, nəyə ehtiyacı var, tamaşaçı nə istəyir onu bilən, hiss edən rejissora ehtiyac var. Bu gün bizim sənətkarlarımız mövzu kasadlığından əziyyət çəkirlər. Mövzu olmalıdır. Yaxşı rejissor mövzunu tapmalıdır. Mən aktyor kimi gedib rejissora deməli deyiləm ki, bu mövzunu götür, bu yaxşıdır".



2020-ci ildə Vətən müharibəsindəki qələbəmizin səhnə təcəssümündən danışarkən Elşad Süleyman dedi: "44 günlük müharibə bizim şərəf, ləyaqət savaşımızdır. Zəfər bizə başucalığı gətirdi. Bu, bizim dövlət başçısının uğurlu siyasəti, Ali Baş Komandan kimi vaxtında qəti qərar qəbul etməsi nəticəsində mümkün oldu. 27 sentyabra kimi bizim ağlımızdan belə keçməzdi ki, biz noyabrın 8-də torpaqlarımızın azad olmasını bayram edəcəyik. Amma müharibə çətin mövzudur, onun dərinliklərini bilmək, duymaq lazımdır. Biz müstəqillik dövrünün qəhrəmanlıq filmlərini çəkməyin əlifbasını bilmirik. Onu bilmədiyimizə görə də qələbəni bədiiləşdirib, qəhrəmanlarımızın bədii obrazını səhnələşdirə bilmirik. Bu o demək deyil ki, mövzu yoxdur, çəkən yoxdur. O deməkdir ki, mövzunu yaxşı öyrənmək, yaxşı bilmək lazımdır. Bunun mütəxəssisi olmalıdır. Deyəndə ki, bizim ölkədə rejissor kasadçılığı var, elə mən həm də bunu nəzərdə tutub deyirdim. Yaxşı rejissor üçün çətin mövzu olmur. Bu, ağır işdir. Hə getdik, avtomat götürək icarəyə, filan yerdə paltar tikdirək, gedək o, ordan atsın, bu buradan. Ermənini dəli kimi, gücsüz göstərək... Var da, çəkiblər... Ermənini zəif, ağılsız kimi göstəriblər. Belə çıxır ki, biz 30 il ağılsız, sadəlövh bir düşmənlə mübarizə aparırdıq? Təbii ki, yox. Erməni hiyləgərdir, gücsüzün ağası, güclünün quludur. Ona görə də bunun əlifbasını bilməyən adam yaxşı əsər yazıb ərsəyə gətirə bilməz. Problemin kökü budur".

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## Mədəni irsimiz Aşqabadda beynəlxalq festivalda təqdim olunub



**Aşqabad Beynəlxalq Məktəbində keçirilən "Beynəlxalq mətbəx festivalı"nda Azərbaycan zəngin mədəni irsi və turizm potensialı ilə təmsil olunub.**

Azərbaycanın Türkmənistandakı səfirliyindən bildiriblər ki, səfirlik tərəfindən qurulmuş guşədə Azərbaycanın tarixi, mədəniyyəti, incəsənəti, xalçaçılıq ənənələri, milli geyimləri, memarlıq üslubu və turizm imkanlarını əks etdirən təqdimatlar nümayiş etdirilib.

Guşədə "azerbaijan.travel" turizm portalı və "Made in Azerbaijan" brendinə dair bannerlər quraşdırılıb, milli məhsullar və sənətkarlıq nümunələri nümayiş olunub. Azərbaycanın milli mətbəxinə məxsus yeməklər və şirniyyatlar da festival iştirakçıları tərəfindən maraqla qarşılanıb.

## Azərbaycanın Əməkdar artisti Türkiyədəki fəlakət zonasında konsert verib

**Azərbaycanın Əməkdar artisti, pianoçu Turan Manafzadə "Yeddi gözəl" musiqi qrupu ilə birlikdə 2023-cü ilin fevralında baş verən zəlzələlərdən ən çox zərər çəkən Türkiyənin Hatay vilayətində çıxış edib.**



T.Manafzadənin iştirakı ilə konsert proqramı Antakya rayonundakı "EXPO Kesicik" qədim amfiteatrının ərazisində olub. Azərbaycanın Əməkdar artisti konsertdən əvvəl Türkiyədə baş verən zəlzələdə həlak olanların ailələrinə və yaxınlarına başsağlığı verib. Genişmiqyaslı təbii fəlakətin nəticələrinin aradan qaldırılması istiqamətində tədbirlərin davam etdirildiyi vilayətin sakinləri T.Manafzadəyə mənəvi dəstəyə görə təşəkkür edib, onun çıxışını sürəkli alqışlarla qarşılayıblar.

Turan Manafzadə təbii fəlakət bölgəsinə səfəri çərçivəsində Hatayın Payas rayon Təbiət Elmləri Liseyində də olub. Azərbaycanın Əməkdar artisti bu liseyin musiqi sinfini lazım olan ləvazimatla, o cümlədən musiqi alətləri ilə təmin edib.

Əməkdar artist "Yeddi gözəl" musiqi qrupunun üzvləri ilə birlikdə onun adını daşıyan sinif otağının açılışında da iştirak edib.

## Ölkəmiz Qazaxıstanda beynəlxalq teatr festivalında təmsil olunacaq

**Mayın 12-dən 19-dək Qazaxıstanın Kostanay şəhərində "MONOFEST" Beynəlxalq Teatr Festivalı keçiriləcək.**



Festivalda ölkəmizi Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrı Patrik Züskindin "Kontrabas" monotamaşası ilə təmsil edəcək.

Teatrdan bildirilib ki, mayın 16-da nümayiş olunacaq "Kontrabas" tamaşasının quruluşçu rejissoru Xalq artisti İrina Perlova, ifaçısı Əməkdar artist Şövqi Hüseynovdur. Uzun illərdir teatrın repertuarında olan və bir çox festivallarda uğurla nümayiş etdirilən səhnə işi ensiklopedik biliklərə malik qəhrəmanı, onun həyata baxışını ehtiva edir. Opera "ulduzuna" vurulan bu şəxs həmin xanıma etiraf etmək istəyir ki, sakit otaqlarda belə onun səsini eşidir, məşhur ariyaları ifa edən gözəl səsi ilə dialoqa girir.

Sarkazm və yumoristik məqamlarla zəngin olan tamaşada qəhrəmanımızın yeganə ünsiyyət vasitəsi isə kontrabasdır. Bu xoş ünsiyyətin ən maraqlı mesajı bundan ibarətdir ki, insan öncə özü-özünə sədaqətli olmalıdır.

# İstanbul dünyanın diqqət mərkəzində

## Rusiya-Ukrayna müharibəsinə son qoyulacaqmı?

**Xəbər verildiyi kimi, mayın 11-nə keçən gecə Rusiya Prezidenti Vladimir Putin Ukrayna hakimiyyətinə İstanbulda sülh danışıqlarının bərpası ilə bağlı rəsmi təkliflə çıxış edib.**

Xatırladaq ki, 2022-ci ilin yazında rus qoşunlarının Kiyev vilayətindən geri çəkilməsindən sonra tərəflərin Türkiyədəki danışıqları kəsilmişdi. İndi Putin deyir ki, dialoqun davamı heç bir ilkin şərt olmadan baş tutmalıdır. Bu, rəsmi Kiyevin mövqeyi ilə ziddiyyət təşkil edir: Prezident Volodimir Zelenski və Ukraynanın avropalı müttəfiqləri təkid edirlər ki, danışıqlara başlamazdan əvvəl tərəflər arasında 30 günlük atəşkəs haqqında razılaşma əldə edilməlidir.

Ukrayna Prezidenti Volodimir Zelenski Rusiyanın bazar ertəsi atəşi dayandıracağını gözlədiyini və mayın 15-də İstanbulda Vladimir Putini şəxsən gözləyəcəyini bildirib. Bazar günü isə o, "Teleqram" kanalında yazıb: "Biz sabahdan atəşkəs gözləyirik - tam və davamlı. Bu, diplomatiya üçün lazımi baza təmin edəcək. Qətlləri davam etdirməyin mənası yoxdur. Mən Putini cümə axşamı Türkiyədə gözləyəcəm. Şəxsən mən ümid edirəm ki, ruslar bu dəfə görüşə gəlməmək üçün səbəblər axtarmayacaqlar".

Axşam çıxışında Zelenski İstanbula səfər etmək niyyətini təsdiqləyib və diplomatiya üçün əsas olacaq uzunmüddətli atəşkəsin sülhü daha da yaxınlaşdıra biləcəyini deyib: "Ukrayna uzun müddətdir ki, bunu təklif edir və bizim tərəfdaşlarımız da bunu təklif edir. Bütün dünya bu barədə danışır. Biz Rusiyadan aydın cavab gözləyirik".

Ukrayna Prezidentinin bəyanatlarından bir müddət əvvəl ABŞ Prezidenti Donald Tramp Kiyevi Moskva ilə Istanbulda danışıqlara dərhal razılaşmağa çağırıb: "Prezident Putin Ukrayna ilə atəşkəs sazişi bağlamaq istəmir. Bunun əvəzinə o, qan tökülməsinə son qoymaq məqsədilə danışıqlar aparmaq üçün cümə axşamı Türkiyədə görüş təklif edir. Ukrayna bununla dərhal razılaşmalıdır". Amerika lideri özünün "Truth Social" sosial şəbəkəsində əlavə olaraq yazıb: "Ən azı onlar razılığın mümkün olub-olmadığını müəyyən edə biləcəklər və əgər mümkün deyilsə, o zaman Avropa liderləri və ABŞ işlərin nə yerdə olduğunu bilib ona uyğun hərəkət edəcəklər".



Xatırladaq ki, ötən şənbə günü Böyük Britaniya, Fransa, Almaniya və Polşa liderləri Kiyevə gələrək bildiriblər ki, Rusiya sülh prosesinin başlanmasını təmin etmək üçün mayın 12-dən atəşi dayandırmalıdır. Onlar təklifin qəbul olunmayacağı halda Rusiyanı yeni sanksiyalar ilə hədələyib və ABŞ Prezidenti Donald Trampın bu mövqe ilə razılaşdığını bildiriblər.

Bundan bir gün sonra - mayın 11-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Vladimir Putin və Fransa Prezidenti Emmanuel Makrona zəng edərək Rusiya və Ukrayna arasında sülh danışıqlarına evsahibliyi etməyə hazır olduğunu təsdiqləyib. "Hürriyet" qəzetinin yazdığına görə, Türkiyə Prezidenti Makronla telefon danışığında "Ukrayna ilə Rusiya arasında müharibəyə son qoymaq yolunda tarixi dönüş nöqtəsinin əldə edildiyini" bildirib. Ərdoğan "bu fürsətdən istifadə edilməlidir və Türkiyə atəşkəs və davamlı sülhün təmin edilməsi üçün danışıqların təşkili də daxil olmaqla hər cür töhfə verməyə hazırdır" deyib. Türkiyə lideri həmçinin Ukrayna ilə Rusiya arasında sülh danışıqlarının başlanması və Ukraynanın bərpası proseslərinin həyata keçirilməsində əməkdaşlığın davam etdirilməsinin vacibliyini qeyd edib. Cümhurbaşkanı Rusiya Prezidenti ilə daha sonra telefon danışığında deyib ki, "hərtərəfli atəşkəs və sülh danışıqları üçün lazımi şərait yaradacaq".

Rusiya və Ukrayna arasında mayın 15-də İstanbulda keçiriləcək görüş böyük ehtimalla diplomatik müstəvidə baş tutacaq. Bu barədə Rusiya Beynəlxalq Əlaqələr Şurasının baş direktoru İvan Timofeyev məlumat verib: "Düşünürəm ki, Rusiya Prezidenti İstanbulda olmayacaq, o, çox güman ki, danışıqlara diplomatları göndərəcək". Rusiyalı məmurun sözlərinə görə, bu, sammit görüşünə hazırlığın daha çox vaxt tələb etməsi ilə izah olunur.

Çin də Ukrayna, Aİ ölkələri və ABŞ-nin 30 günlük atəşkəs tətbiq etmək təşəbbüsünü dəstəkləyib. Bu barədə Çin Xalq Respublikasının Xarici İşlər Nazirliyinin nümayəndəsi Lin Cian məlumat verib: "Biz sülhə nail olmaq üçün bütün səyləri dəstəkləyirik və ümid edirik ki, müvafiq tərəflər dialoq və danışıqlar yolu ilə bütün tərəflər üçün məqbul olan ədalətli, davamlı və məcburi sülh sazişinə nail olmaqda davam edəcək və son nəticədə Ukrayna böhranının siyasi həllinə nail olacaqlar". O, daha sonra qeyd edib ki, dialoq və danışıqlar Ukrayna böhranından yeganə çıxış yoludur. Lin Cian həmçinin vurğulayıb ki, rəsmi Pekin Ukraynadakı vəziyyəti həll etmək və davamlı sülhə nail olmaq üçün beynəlxalq ictimaiyyətlə əməkdaşlıq etmək niyyətindədir: "Çin bütün tərəflərin istəklərinə uyğun olaraq bu prosesdə konstruktiv rol oynamağa hazırdır".

*Rizvan CƏFƏROV, "Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**“AZƏRBAYCAN”** *qəzetinə*

*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| “Azərpoçt” MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| “Azərmətbuatyayımı” ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| “Qaya” firması | (012) 566-77-80, (050) 214-40-53 |
| “Region Press” MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| “Səma-M” MMC | (012) 594-09-59 |
| “Ziya” LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| “Pressinform” MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| “City press” MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*



## "TEMİRLİ QRUP"ASC-nin səhmdarlarının nəzərinə!

**İclasın gündəliyindəki məsələlər:**

1. Səhmdar cəmiyyətin idarəetmə orqanının 2024-cü il üzrə hesabatı və maliyyə hesabatlarının təsdiq edilməsi.
2. Səhmdar cəmiyyətinin İdarə Heyətinin, Direktorlar şurasının və Maliyyə-təftiş komissiyasının yenidən seçilməsi.
3. Səhmdarların ümumi yığıncağının gündəliyi üzrə materiallarla tanış olmaq üçün əlaqə telefonuna zəng edərək məlumat almaq olar.

**Əlaqə telefonu: (050) 330-13-76**
**Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.**
**İclasın keçirildiyi tarix:**
**30 iyun 2025-ci il saat 15:00**
**İclasın keçiriləcəyi ünvan: Bakı şəhəri, Xətai rayonu, H.Aslanov qəsəbəsi, Camal Hacıəliyev küçəsi, 12, ev 5.**

***"TEMİRLİ QRUP"ASC***



## "Türkiyə - Azərbaycan İş Adamları və Sənayeçiləri İctimai Birliyi (TÜİB)" üzvlərinin nəzərinə!

"Türkiyə - Azərbaycan İş Adamları və Sənayeçiləri İctimai Birliyinin (TÜİB)" seçkili Ümumi yığıncağı keçiriləcək.

İclas 30 may 2025-ci il, cümə günü, saat 10:00-da Bakı şəhəri, Azadlıq prospekti, 1B ünvanında yerləşən "Hilton" hotelində təşkil olunacaq.

**İclasın gündəliyi:**

1. İllik hesabat.
2. TÜİB İdarə Heyəti ilə Nəzarət və Təftiş Komissiyasının seçilməsi.
3. Cari məsələlərin müzakirəsi.

***TÜİB İdarə Heyəti***


# Günəşin hədiyyəsi

## D vitamini çatışmazlığı sağlamlıq üçün təhlükəlidir

**İnsan sağlamlığı üçün həyati əhəmiyyət kəsb edən D vitamininin əsas mənbələrindən biri Günəş işığıdır. Yazyay aylarında Günəş şüalarının daha güclü və uzunmüddətli olması bu vitaminin sintezini artırmaq üçün əlverişli şərait yaradır.**

Qış aylarında pnevmoniya və qrip kimi xəstəliklərin artması D vitamini çatışmazlığı ilə əlaqələndirilir. Statistik məlumatlara görə, dünyada, təxminən 1 milyard insan "Günəş vitamini" çatışmazlığından əziyyət çəkir. Amerikalı mütəxəssislərin tədqiqatına görə, orqanizmdə D vitamini normal səviyyədə olan insanların ölüm riski bu vitamin çatışmazlığı olanlara nisbətən 57 faiz aşağıdır.

D vitamini bədəndə əzələ və sümük sağlamlığından immunitet və sinir sisteminin düzgün işləməsinə qədər bir çox mühüm funksiyaya malikdir. Onun əskikliyi immuniteti zəiflədir, sümük və əzələlərdə ciddi fəsadlar yaradır, orqanizmin müxtəlif xəstəliklərə qarşı davamlılığını azaldır, bədən ağrıları, sümük quruluşunda pozulmalar, əzələ zəifliyi, saç tökülməsi və depressiyaya, insanın özünü davamlı yorğun, halsız, yuxusuz hiss etməsinə səbəb olur.

Yaş, cins, coğrafiya, müşayiət olunan xəstəliklər, hamiləlik vəziyyəti və hətta dəri rəngi gündəlik "Günəş vitamini" ehtiyacını təyin edən amillərdir. Məsələn, melanin piqmenti UV şüalarını udaraq vitaminin sintezini azaldır. Buna görə də tünd dərili insanlarda D vitamini istehsalı daha az olur. Artıq çəkili insanların çoxunda da bu vitaminin çatışmazlığı müşahidə olunur. Bədəndəki yağ D vitaminini saxlayır və onun dövriyyəyə buraxılmasını çətinləşdirir. Yaşlılarda D vitamini çatışmazlığının ən mühüm səbəbi isə illər ötdükcə vitaminin sintez etmə qabiliyyətinin azalmasıdır.

D vitamininin ən təbii və güclü mənbəyi Günəşdir. Günəşin köməyi ilə orqanizmdə istehsal edilən təbii D vitamini sulfatlıdır. Ona görə də o həm suda, həm də yağda həll olunmaq qabiliyyətinə malikdir. Nəticədə bədənin hər hüceyrəsinə, hər toxumasına və orqanına asanlıqla daxil ola bilir. Süni D vitamini isə sulfatsızdır. Buna görə də ilk seçim Günəşdən alınan təbii D vitaminidir.

"Günəş vannası" qəbul edərkən dəri kremsiz olmalıdır. Açıq rəngli dərili insanlar gündə 15-20 dəqiqə, tünd rəngli dəriyə sahib olanlar isə



30-45 dəqiqə günəşlənə bilərlər. Günəş altında daha çox qalanda qoruyucu kremlərdən istifadə edilməlidir. Ancaq yay aylarında tədarük edilən D vitamini orqanizmin il boyu ehtiyacını ödəmir. Soyuq aylarda qida əlavələri qəbul edilməlidir. D vitamininin yüksək dozada qəbulu toksik təsir göstərə bilər. Bu zaman qanda kalsium səviyyəsi yüksəlir, kilo itkisi, nizamsız ürək döyüntüsü, sümük sınıqları riskinin artması, damarlarda və toxumalarda kalsiumlaşma, ürək və böyrəklərin zədələnməsi kimi hallar müşahidə edilir. Buna görə də D vitamini yalnız həkim tövsiyəsi ilə qəbul edilməlidir.

Gündəlik ehtiyacın yalnız 20 faizini qarşılasa da, qida rasionuna D vitamini ilə zəngin qidalar əlavə etmək olduqca vacibdir. Balıq yağı, qızılbalıq, skumbriya, siyənək, tuna, mal qaraciyəri, süd, pendir, yağ, qaymaq, yumurta sarısı, göbələk, yulaf, kakao, cəfəri və gicitkən kimi qidalar bu vitaminlə zəngindir. 85 qram qızılbalıq gündəlik tələbatın 90 faizinə qədər D vitamini təmin edə bilər. Yumurta nisbətən az D vitamini ehtiva etsə də, əlçatan və sərfəli mənbə kimi ön plana çıxır. Azad dolaşan toyuqların yumurtaları daha çox Günəş şüası aldıqları üçün, onların sarısında D vitamini səviyyəsi daha yüksək olur.

Veqan və vegetarianlar üçün ən yaxşı alternativ qida isə göbələkdir. Göbələklər ultrabənövşəyi şüaya məruz qaldıqda D2 vitamini istehsal edə bilirlər. Onlar kiçik Günəş batareyaları kimi işıq enerjisini vitaminə çevirirlər. Yarım porsiyon göbələk 9,2 mikroqram D vitamini təmin edir.

Düzgün yuxu rejimi D vitamінindən daha çox faydalanmağa kömək edir. Araşdırmalar göstərir ki, gündə 5 saatdan az yatan insanlarda D vitamini az olur. İstifadə etdiyimiz bəzi dərmanlar bu vitaminin miqdarını azalda bilir. Xüsusilə, epilepsiya, göbələk infeksiyası, AİDS dərmanları istifadə edənlər D vitamini səviyyəsini nəzarətdə saxlamalıdırlar. Bütün bunları nəzərə alaraq mütəxəssislər ildə iki dəfə orqanizmdə D vitamini səviyyəsini yoxlatdırmağı tövsiyə edirlər.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

# Fransada minlərlə insan islamofobiyaya qarşı küçələrə çıxıb

**Fransada baş verən dəhşətli islamofob hücum ölkə ictimaiyyətində dərin sarsıntı yaradıb. "La Grand-Combe" məscidində Əbubakar Sissenin ibadət zamanı qətlə yetirilməsindən sonra bir neçə vətəndaş cəmiyyəti təşkilatı genişmiqyaslı aksiya çağırışı edib.**

AZƏRTAC xəbər verir ki, "Avropada İslamofobiyaya Qarşı Kollektiv" (CCIE) və "Müsəlman Perspektivləri" təşkilatlarının təşəbbüsü ilə Parisdə və digər şəhərlərdə minlərlə insan islamofobiyaya qarşı yürüş keçirib.

Paytaxt Parisdə etirazçılar Bastiliya meydanında toplaşaraq "İslamofobiyanı dayandır!", "Əbubakar, biz səni unutmadıq!" və "İslamofobiya öldürür, susmaq da öldürür!" kimi şüarlar səsləndiriblər. Nümayiş iştirakçıları "Biz hamımız Əbubakarıq", "Məscidlər alov içindədir, məsuliyyət hökumətin üzərindədir" kimi plakatlarla islamofobiyaya qarşı qəti etirazlarını ifadə ediblər.

Xatırladaq ki, aprelin 25-də Fransanın Qard bölgəsində yerləşən "La Grand-Combe" məscidində Malidən olan gənc Əbubakar Sisse namaz




qıldığı vaxt vəhşicəsinə hücuma məruz qalıb. Ona 57 bıçaq zərbəsi vurularaq qətlə yetirilməsi ölkənin müsəlman icması və beynəlxalq ictimaiyyət tərəfindən hiddətlə qarşılanıb.

Bu hadisə Fransada islamofobiyanın təhlükəli həddə çatdığını və ictimaiyyətin bu ayrı-seçkilik və zorakılıq hallarına qarşı birgə mövqe sərgiləməsinin zəruriliyini bir daha gündəmə gətirib.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti



Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az



## ALLAH RƏHMƏT ELƏSİN!

Umud Rəhimoğlu, Əli, Vidadi, Rafiq, Həşim, Nail və Hacı Müşfiq Hüseynovlar, Fazil Allahverdiyev, Əlövsət Əliyev, İlham və Tural İbrahimovlar, İlham Həsənov, Hidayət, Müstəqim, Mircəfər və Mircəlil İsmayılovlar İlham Zeynalova anası

**ASYA MÖHÜBBƏDDİN QIZI HACIYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Akademik Mehdi Mehdizadə adına Cəbrayıl şəhər tam orta məktəbin 1978, 1980 və 1985-ci il buraxılış 10-cu "a" sinfinin məzunları sinif yoldaşları Zakir Məmmədova, Səfa Zeynalova və Yusif Ələkbərova əzizləri

**ASYA MÖHÜBBƏDDİN QIZI HACIYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.



BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan” nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3580
Sifariş 972

Qiyməti 60 qəpik